Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 6 (6049) 16 fevral 2024-cü il | Qiyməti 40 qəpik

# İLHAM ƏLİYEV HƏMİŞƏ BİZİMLƏDİR



## “Əmin olmadığınız hesablara vəsait ödəməkdən çəkinin”

**”Doğruluğuna əmin olmadığınız hesablara vəsait ödəməkdən çəkinin, təhlükə var”.**

Adalet.az xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətinin rəisi Elşad Hacıyev bildirib.

”Təhlükəsiz kiber gələcəyin təminatı maariflənmədən keçir. Qazandıran vədlər yalandır, saxtadır. Beh verdiyiniz məhsullara görə kiber məkanda ödənişlər geri qaytarılmır. ”Qaytarıram”, -deyirsə kartda olan əlavə vəsaitlər də talamaya məruz qalır. Doğruluğuna əmin olmadığınız hesablara vəsait ödəməkdən çəkinin, təhlükə var”, - DİN rəsmisi qeyd edib.

## ABŞ SAAKAŞVİLİNİN ARXASINDAN QAÇDIĞI KİMİ...



**Paşinyan Fransaya arxayın olub hökküldəyir. O qədər kordur ki, qapıbir qonşusu Gürcüstanın sabiq prezidenti Saakaşvilinin gününü görmür. ABŞ Saakaşvilinin qoltuğuna iki böyük qarpız verdi və sonra da rusun qarşısında dura bilməyib qaçdı. Və Saakaşvili qaldı ortalıqda, indi də həbsxanadadır.**

Bir gün Fransa da Paşinyanın arxasından qaçacaq və Paşinyan qalacaq ortalıqda.

Yenə ABŞ sonradan Saakaşvilini Odessaya icra başçısı göndərdi. İnanmıram Makron Paşinyanı aparıb Fransada nəinki şəhərə, hətta bir qəsəbəyə mer təyin etsin.

Amma ola bilər ki, Putin Paşinyana Maqadanda və ya Varkutada bir iş tapıb versin.

## ÖLÜRÜK KİMİSƏ ÖLDÜRMƏKDƏN ÖTƏRİ



**Görkəmli bəstəkar Cavanşir Quliyev xəstəlik səbəbilə müalicə üçün İstanbula aparılıb. Hazırda müalicəsi gedir, Allah şəfa versin.**

Lakin bayquşlar dərhal bəstəkarın ölüm xəbərini yazıblar. Bəstəkar isə ”Teleqraf.com”a açıqlamasında bildirib ki, babatdı.

Yadıma illər öncə qəzetlərin birində mən Türkiyədə Bodrumda istirahət edərkən avtomobil qəzasına düşdüyüm və öldüyüm barədə xəbər yayılmışdı. Ailəm, dostlarım, məni istəyənlər o qədər zəng edirdilər ki, telefondan asılı qalmışdım.

Mən isə bunu gülüşlə qarşılamışdım. Həmin qəzetə zəng edib belə demişdim: ”Dostlar, düz deyirsiniz, ölməyinə ölmüşəm, amma cənnətə düşmüşəm. Bodrumda çimərlikdəyəm, hurilər də yan-yörəmdə mənə qulluq edir”.

## Kəlbəcərlə bağlı verilən mina məlumatları qeyri-dəqiq, etibarsızdır

**Kəlbəcər rayonunun Murov dağları silsiləsi ətrafındakı minalanmış əraziləri əhatə edən məlumatlar əvvəlki kimi qeyri-dəqiq, etibarsız və natamamdır.**

Bu barədə Adalet.az-a Azərbaycan Minatəmizləmə Agentliyindən (ANAMA) məlumat verilib.

Qeyd edilib k, Ermənistan tərəfi növbəti dəfə Azərbaycana qeyri-dəqiq mina sahələrinin qeydlərini təqdim edib.

Belə ki, Kəlbəcər rayonunun Murov dağları silsiləsi ətrafındakı minalanmış əraziləri əhatə edən məlumatlar əvvəlki kimi qeyri-dəqiq, etibarsız və natamamdır.

## *LAÇINLI AĞDAMLINI NECƏ DOLADI?*

Bir ağdamlı Laçına dostugilə qonaq gedir. Yeyib-içəndən sonra dostuna deyir:

**- Bəlkə bir ayı ovuna gedək?**

Dostu razılaşırlar və çıxırlar meşəyə. Xeyli gedəndən sonra qabaqlarına bir ayı çıxır, laçınlı ayını görən kimi başlayır kəndə tərəf qaçmağa.

Ağdamlı dostunun qaçdığını görüb o da başlayır qaçmağa. Təngnəfəs olur və fikirləşir ki, əlimdə vinçestr tüfəng niyə qorxub qaçıram, çevrilir ayının döşünü verir güllənin altına, ayı yıxılır.

Dostu ağdamlının ayını vurduğunu görüb qayıdır geri, tərini silə-silə deyir:

**- Ə, ayını niyə vurdun?**

Ağdamlı:

**- Qaqa, niyə qaçırdın, biz ayı ovuna gəlməmişdik?**

Dostu:

**- Ə, avara, mən qaçmırdım ey, onu kəndə çatanda vuracaqdım. İndi onu kəndəcən özün daşıyacaqsan.**

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

## MƏN ZORİ BALAYAN DEYİLƏM



***Təvazökarlıqdan uzaq da olsa, mən Azərbaycanın tanınmış və sevilən yazıçılarından biriyəm. Buna da səbəb həddindən artıq səmimi olmağımdı, həm danışığımda, həm də əsərlərimdə. Bu günədək nə danışığımda, nə də yazılarımda kimisə hədələməmişəm. Hədə mənim xarakterimə ziddi. Sarkazm olar, ironiya olar, buna da yazılarımda çox rast gəlmək olar.***

***Amma nədənsə mənim Parlamentdə Ermənistanla və Makronla bağlı dediyim fikirlər ermənilərin bərk xətrinə dəyib, qəzəbləniblər və məni hədəf götürüblər. Erməni mediası yazır: ”Azərbaycanlı deputat Makronu hədələyir və əhalisi azalmış Artsaxın ”təmir edilmiş kilsələri” ilə öyünür.***

**Bax:səh-3**

## GÜNÜN LƏTİFƏSİ



Prezidentliyə keçmiş namizəd, deputat Razi Nurullayev İmişlidə Arazda balıq tutarkən yıxılır, sağ əlinin barmaqları qırılır. Təcili götürürlər xəstəxanaya. Həkim əlinə gips qoymalı olur və deyir ki, Razi bəy, qorxulu bir şey yoxdur, uzağı on günə gipsi açacam.

Razi bəy soruşur:

**- Həkim, gipsi açandan sonra mən piano çala biləcəm?**

Həkim:

**- Əlbəttə, Razi bəy, bu nə sözdür barmaqlarınız gül kimi olacaq.**

Razi bəy:

**- Sağ ol ey həkim, bu ki möcüzədi.**

**- Nəyi möcüzədi?**

Razi bəy:

**- Möcüzə odur ki, mən axı əvvəllər piano çala bilmirdim.**

# İLHAM ƏLİYEV AND İÇDİ



**Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev andiçmə mərasimində nitq söyləyib.

## "Azərbaycanın hərtərəfli inkişafı üçün əlimdən gələni əsirgəməyəcəyəm"

**Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm.**

Adalet.az xəbər verir ki, bu barədə Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində bildirib.

Dövlətimizin başçısı prezident seçkilərində ona yenidən böyük etimad və dəstək göstərən Azərbaycan xalqına dərin təşəkkürünü ifadə edib.

"2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq".

## "Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır"

**"2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi". Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində deyib.**

Dövlətimizin başçısı, həmçinin bildirib: "Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq".

## "Gedin öz işinizlə məşğul olun"

**Fevralın 14-də keçirilən andiçmə mərasimində söylədiyi nitqində Prezident İlham Əliyev Azərbaycan-Ermənistan münasibətlərini müzakirə etmək, həmçinin iki ölkə arasında vasitəçilik etmək istəyənlərə də mesaj göndərib, bizə bu məsələdə vasitəçinin lazım olmadığını bəyan edib.**

Adalet.az xəbər verir ki, Azərbaycan-Ermənistan normallaşması prosesinin beynəlxalq gündəlikdən düşməli olduğunu diqqətə çatdıran dövlətimizin başçısı bildirib:

"Yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun. Biz öz məsələmizi həll etmişik".

## "Türk Dövlətləri Təşkilatı bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir"

**"Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir".**

Adalet.az xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində deyib.

Azərbaycanın yürütdüyü siyasətin bunu aydın göstərdiyini vurğulayan dövlətimizin başçısı bildirib:

"Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır".

# *Elçin Əmirbəyov:* "Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı B planı var"

**"Bəzi Avropa İttifaqı rəsmilərinin Azərbaycan ekspansionizmi ilə bağlı iddiaları əsassızdır".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov "Brussels Signal"a müsahibəsində deyib.

Rəsmi Avropa İttifaqı diplomatiyasının rəhbəri Borrelin Azərbaycana qarşı bəyanatlarını reallığı əks etdirməyən kimi qiymətləndirib: "Mən fürsətdən istifadə edərək bu iddiaları tamamilə rədd edirəm. Azərbaycanın Ermənistana heç bir ərazi iddiası yoxdur. İcazə verin, sizi yeni terminologiyaya əməl etməyə dəvət edim, bu gün Azərbaycanın Qarabağ bölgəsi var, ona görə də Dağlıq Qarabağ köhnəlmiş və işlək olmayan bir addır".

Diplomat Zəngəzur dəhlizi ilə bağlı suala belə cavab verib: "Azərbaycan tərəfi dəfələrlə açıq şəkildə bəyan edib ki, ölkəmizin iki hissəsi arasında rabitə əlaqəsini bərpa etmək istəyimizdə biz bunu Ermənistanın ərazisini zəbt etmək yolu ilə təmin olunmasını düşünmürük. Biz bu rabitə xəttinin bərpa olunmasının tərəfdarıyıq və bu bağlantı sovetlər dövründə mövcud idi. Dediyimiz sadəcə



odur ki, Ermənistan üzərinə götürdüyü öhdəliklərə əməl etməlidir. Öhdəliklərdən biri 2020-ci ilin noyabrında Azərbaycan, Ermənistan və Rusiya tərəfindən imzalanmış üçtərəfli atəşkəs sazişindən irəli gəlir. Onlar Azərbaycanın iki hissəsi arasında bu əlaqəni təmin etməyə razılaşıblar. Çünki bu yolla bu Naxçıvan Muxtar Respublikasının təcrid vəziyyətinə son qoyulmuş olacaq. Bununla belə, bizim Ermənistana heç bir ərazi iddiamız yoxdur. Biz bu dəhlizi hərbi yolla ələ keçirmək istəmirik. Zəngəzur dəhlizi yalnız Azərbaycanın iki hissəsi arasında bağlantı deyil, həm də bu, orta dəhlizin alternativ marşrutuna çevrilə bilər. Fikir verin, bu gün Ermənistan istənilən regional iqtisadi layihədən tamamilə təcrid olunub. O, Azərbaycanla münaqişəsi və Türkiyə ilə həll olunmamış problemlərinə görə tamamilə oyundan kənardır. Sülhdən Ermənistan da faydalana bilər. Ancaq bunun faydalarını dərk etmək istəmirlərsə, biz buna təkan verməyəcəyik".

Əmirbəyov Azərbaycanın B planının olduğunu da istisna etməyib: "Bunun üçün bizim B planımız var. Əgər Ermənistan bu əlaqənin öz ərazisindən keçməsini istəmirsə, və təklifimizin bəhrəsini dərk etmək iqtidarında deyilsə, biz Naxçıvanla nəqliyyat bağlantısını İran vasitəsilə həyata keçirməyə hazırıq. Biz İran tərəfi ilə bu barədə danışıqlara artıq çoxdan başlamışıq".

# XİN-dən Borrellin Azərbaycan əleyhinə iddialarına cavab

**13 fevral tarixində Avropa İttifaqının (Aİ) xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrellin Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ilə birgə mətbuat konfransı zamanı Azərbaycan əleyhinə əsassız iddiaları pisləyir və rədd edirik.**

Adalet.az xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb.




Ali nümayəndə Cozep Borrellin hərbi təcavüz törətmiş Ermənistan tərəfinə bəraət qazandırması, Ermənistanın hərbi təxribatına göz yumulması kimi qiymətləndirilir. Təəssüf ki, Aİ tərəfi 5 ay sabitlik hökm sürəndən sonra heç bir təhrikedici amil olmadan snayper atəşi nəticəsində Azərbaycan hərbi qulluqçusunun yaralanmasına etinasız yanaşır. Azərbaycan tərəfindən təxribata cavab olaraq atılmış addımlar tam adekvat və lokal xarakterli idi. Bu tədbirlər həmçinin Ermənistan tərəfindən hərbi eskalasiyanın genişlənməsi cəhdlərinin qarşısını alıb.

Bununla yanaşı, bir daha vurğulamaq istərdik ki, Avropa İttifaqının ali nümayəndəsinin silahlı qüvvələrin geri çəkilməsi barədə heç bir praktiki əhəmiyyətə malik olmayan təklifi təəssüf doğurur. Aİ tərəfi nəzərə almalıdır ki, Ermənistan tərəfindən sərhədyanı bölgələrdə "Avropa İttifaqı Missiyası himayəsi" altında yerləşdirilmiş muzdlular Azərbaycan hərbçilərinin və mülki əhalisinin həyatına təhdiddir.

Azərbaycanın Qarabağ iqtisadi rayonunu könüllü olaraq tərk etmiş erməni əsilli sakinlərin məcburi köçkün kimi qələmə verilməsi və Azərbaycanın ərazisi olan bu bölgəyə münasibətdə "Dağlıq-Qarabağ" kimi mövcud olmayan adlardan istifadə edilməsi qəbuledilməzdir. Azərbaycan tərəfi dəfələrlə erməni sakinlərin öz evlərində qalması üçün müraciətlər etdiyi Aİ tərəfinə yaxşı məlumdur.

Əfsuslar olsun ki, ərazini tərk etmiş erməni sakinlərə münasibətdə hətta ermənilərin dilə gətirmədiyi əvvəlki rəqəmlərə istinada ali nümayəndə tərəfindən düzəliş edilməsinə baxmayaraq, bu məsələdə də nümayəndənin erməni təbliğatının təsirində olduğu aydın görünür.

Bir daha təəssüflə qeyd edirik ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin sülhə yönəlmiş təşəbbüslərinə baxmayaraq, xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndə birtərəfli ermənipərəst mövqe tutaraq Azərbaycanla Avropa İttifaqı təsisatları arasında uçurum yaradır və özünü nəticə etibarilə, Azərbaycan-Ermənistan normallaşma prosesindən tamamilə təcrid edir.

## *"Rusiya və Azərbaycan erməni əhalisinin Qarabağa qayıtması perspektivlərini müzakirə edirlər"*



**"Rusiya sülhməramlı kontingentinin fəaliyyəti ilə bağlı növbəti Rusiya-Azərbaycan təmaslarına hazırlıq davam edir. Bu sahədə dialoqumuz müntəzəm və konstruktiv xarakter daşıyır".**

Adalet.az xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova çərşənbə günü keçirdiyi brifinqdə jurnalistlərin xahişi ilə Rusiya tərəfinin Qarabağdakı rus sülhməramlılarının gələcəyi ilə bağlı fikirlərini şərh edərkən belə deyib.

Müzakirə olunan məsələlər arasında erməni əhalisinin hüquqlarının və təhlükəsizliyinin lazımi qaydada müdafiəsi ilə Qarabağa qayıtmasının perspektivləri, birgə patrul xidmətinin təşkili, mədəni, tarixi və dini irs abidələrinin mühafizəsi də var", - deyə rəsmi əlavə edib.

## BMT-nin baş katibi: "Dünya xaos dövrünə qədəm qoyub"



**Birləşmiş Millətlər (BMT) baş katibi Antonio Quterres, dünyanın "xaos" dövrünə qədəm qoyduğunu və bunun təhlükəli və gözlənilməz olduğunu bildirib.**

Adalet.az xəbər verir ki, bu barədə Quterreş yazılı açıqlama yayıb.

"Dünyamız xaos dövrünə qədəm qoyur və bunun nəticələrini görürük. Təhlükəli və gözlənilməz bir azadlıq və tam cəzasızlıq. Qlobal sülh və təhlükəsizlik çərçivələrini gücləndirməli və yeniləməliyik. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Qərar qəbul etməyi və onları həyata keçirməyi bacarmalıdır. Daha çox təmsilçiliyə çevrilməlidir. Şuranın iş metodları da yenilənməlidir ki, üzvlər arasında kəskin fikir ayrılıqları olsa belə Şura irəliləyiş əldə edə bilsin".

Hazırda dünyada böyük qəzəb və nifrət olduğunu bildirən Quterreş, "Bu gün dünyamızda çoxlu qəzəb, nifrət və səs-küy var. Sanki hər gün və hər fürsətdə müharibə var. İnsanlar sülh və əmin-amanlıq istəyirlər. Onlar sülh və ləyaqət istəyirlər. Onlar sülh və əmin-amanlıq istəyirlər. Sülh bəşəriyyətin ən böyük məsuliyyətidir. Bu çətin və bölünmüş anda biz yerinə yetirməliyik", - yazıb.

# MƏN ZORİ BALAYAN DEYİLƏM

*Təvazökarlıqdan uzaq da olsa, mən Azərbaycanın tanınmış və sevilən yazıçılarından biriyəm. Buna da səbəb həddindən artıq səmimi olmağımdı, həm danışığımda, həm də əsərlərimdə. Bu günədək nə danışığımda, nə də yazılarımda kimisə hədələməmişəm. Hədə mənim xarakterimə ziddi. Sarkazm olar, ironiya olar, buna da yazılarımda çox rast gəlmək olar.*

*Amma nədənsə mənim Parlamentdə Ermənistanla və Makronla bağlı dediyim fikirlər ermənilərin bərk xətrinə dəyib, qəzəbləniblər və məni hədəf götürüblər. Erməni mediası yazır: "Azərbaycanlı deputat Makronu hədələyir və əhalisi azalmış Artsaxın "təmir edilmiş kilsələri" ilə öyünür. Milli Məclisin bu gün keçirilən iclasında "alovlu nitq" səsləndirib.*

*"Fransanın urana ehtiyacı var, indi onun yeganə ümidi Qazaxıstandır. Qazaxıstandan Fransaya iki yol var. Uran təyyarələrlə daşınmadığı üçün gəmilərlə daşınmalıdır (burda fikrimi təhrif ediblər. Mən təkcə gəmilər yox, dəmiryol vasitəsilə də demişəm- A.A.). Bunun üçün də ya Rusiyadan keçən yol, ya Azərbaycandan keçən yol olmalıdır. Rusiya buna icazə vermir, Azərbaycan qalır. Sanksiya tətbiq etsək, Fransa nə edəcək?", - deyə "həvəsli" parlamentari bildirib.*

*Abbas daha da ilhamlanaraq dedi: "Mən çox istərdim ki, Makron Azərbaycana dəvət olunsun, gəlsin görsün ermənilər burda necə yaşayır. Biz kilsələri və sinaqoqları sökmürük (yenə də fikrimi tam verməyiblər, mən demişəm ki, kilsə də, sinaqoq da, məscid də bizim üçün Allah evidir və müqəddəsdir - A.A.). Makron gəlsin görsün Şuşada kilsələr necə təmir olunur. Amma düzünü desəm, belə imkanım olsaydı, onları təmir etməzdim".*

*Azərbaycanlı deputatın təhqiramiz formada (erməni kilsələrinin "təmiri" adlandırdığı - xaçların yıxılması, erməni mədəni irsinin qəsb edilməsi) öyünməsi etnik təmizləmə təhlükəsi altında olan Qarabağın kütləvi şəkildə boşaldılması fonunda daha da hörmətsizlik kimi səslənir".*

*Əvvəla, Ermənistan mediasının yazdığı kimi, burada heç bir hədə yoxdur, heç bir erməni mədəni irsinə də əl vurulmayıb. Bakıdakı erməni kilsəsindən tutmuş Qarabağdakı kilsələrə qədər hamısı yerində durur. Və yuxarıda dediyim kimi, hətta təmir etmişik. Bu dəqiqə Şuşadakını da vurhavur təmir edirik.*

*Amma siz Qarabağda bir məscid də saxlamamısınız, bir abidə də saxlamamısınız. Məscid, abidə nədi ey, hətta bir ev də qoymamısız qala. Bütün şəhər və kəndlərimizi darmadağın etmisiniz. Və bu 30 ildə Fransa, eləcə də Makron dilini dinməz yerinə qoymuşdu, bir dəfə dəmədilər və demədi ki, ermənilər, bu faşizmi dayandırın.*

*İkincisi, biz Qarabağda bir erməni kəndini də, bir qəsəbəsini də dağıtmamışıq. Halbuki buna bizim imkanımız vardı, amma ev-eşik dağıtmaq, dinc əhaliyə əl qaldırmaq bizim millətin xarakterinə yaddır. Ona görə ki, biz erməni deyilik, biz türkük, azərbaycanlıyıq.*

*Möhtərəm Prezidentimiz İlham Əliyevin dediyi kimi, biz sülh tərəfdarıyıq. 44 günlük müharibədən sonra da Ali Baş Komandanımız dəfələrlə Qarabağda yaşayan ermənilərə müraciət edib ki, kim istəsə Azərbaycan vətəndaşlığını və Konstitusiyasını qəbul edib Qarabağda yaşaya bilər. Yəni biz erməniləri Qarabağdan məcbur köçürməmişik. Onlar özləri Ermənistanın hansı məkrli siyasətinə görə isə könüllü olaraq Qarabağı tərk edib.*

*Yuxarıda dedim, mən yazıçıyam və Zori Balayandan tamamilə fərqli yazıçıyam. Mən Zori Balayan kimi xalqımıza başqa millətə nifrət toxumu aşılamıram.*

*Zori Balayan kimi 6-7 yaşlı qızcığazı diri-diri divara mismarlayıb dərisini necə soymaqdan və ölümünü gözləməkdən necə ləzzət aldığını yazmıram. Və əsərlərimdə oxucularıma erməni xalqına nifrət aşılamıram.*

*Bir neçə misal çəkə bilərəm. Məsələn, elə "Dolu" romanımda və "Dolu" filmimdə belə bir yer var. Əsgərlərimiz bir erməni qızını əsir götürürlər, amma Drakon həmin qızı azad edir, deyir get evinizə: "Mən arvad davası eləmirəm, biz torpaq davası edirik!"*

*Mən də istəsəydim qələm əlimdəydi, Zori Balayan kimi yazardım. O qızı verərdim əsgərlərin əlinə zorlayardılar, sonra da öldürərdi, amma etmədim. Bu romanı yazanda həmin vaxt sizin bizim qadınlara və qızlara elədikləriniz vəhşiliklər gözlərimin qabağından keçsə də, mən məsələyə bir azərbaycanlı kimi, bir yazıçı kimi humanist yanaşdım. Bununla da əsgərlərimizə aşılamaq istədim ki, düşmənin qız-gəlininə toxunmaq olmaz, ən azı ona görə ki, biz erməni deyilik və mən də Zori Balayan.*

*Və yaxud "Çadırda Üzeyir Hacıbəyov doğulmaz" əsərimdə olduğu kimi. Əsərin azərbaycanlı qəhrəmanı Əfqanıstanda erməni Aşotla səngərdə bir döyüşür. Və Azərbaycandan anası ona iki dua göndərir, yazır: "Oğul, bu duanın birini sən öz köynəyinə taxarsan, birini də dostunun köynəyinə, Allah sizi qoruyar". Azərbaycanlı döyüşçü də duanın birini öz köynəyinə bağlayır, birini də erməni dostunun köynəyinə. Döyüşdə erməni yaralanır, mühasirəyə düşürlər, amma azərbaycanlı onu tək qoymur, on kilometr çiynində daşıyaraq gətirib Sovet qərargahına çatdırır. Hərçənd ki, yolda erməni ona yalvarır ki, məni öldür, heç olmasa sən sağ qal. Amma azərbaycanlı ona qulaq asmır və sağ-salamat gətirib çatdırır hospitala və erməni ölmür. Onu da bir azərbaycanlı ananın yazdığı dua xilas edir.*

*Mən oxucularıma bunları aşılayıram.*

*Və yaxud "Qar üstündə qan çiçəyi" povestimdə və kinossenarimdə əsgərlərimiz 18 yaşlı bir erməni əsgərini əsir götürürlər. Dağ, qış, qiyamət, şaxta, boran bizim bütün əsgərlər donub ölürlər. Komandir görür ki, bu erməni uşaq da donub öləcək. Fikirləşir ki, onun da anası, bacısı, sevgilisi var, istəsə o, sağ qala bilər. Və üzünü tutur erməni əsgərə, üç yüz metr aralıdakı erməni postunu göstərib deyir: "Dur get özününkülərin yanına. İdi jivi!" Komandir özü donub ölsə də, erməni əsiri buraxır ki, yaşasın.*

*Belə misalları çox çəkə bilərəm, yoruldum. Mən bizim millətin böyüklüyünü, kişiliyini, mərdliyini göstərməyə çalışmışam.*

*Mənim Zori Balayandan, sizin yazıçılardan fərqim budur. Çünki mən böyük bir xalqın oğluyam, mən Zori Balayan deyiləm.*

*Və sonda. Ermənistanı revanşist müharibəyə qızışdıran, onlara silahsursat göndərən Makrona da bircə sözüm var: "Nəynən, Alış?".*

# MƏN HEÇ KƏSİ AĞLATMAQ İSTƏMƏMİŞƏM, SADƏCƏ OLARAQ...

*Çox qəribədir, son zamanlar yazdığım povestlər və hekayələr demək olar ki, başdan-ayağa yumor və ironiyadan ibarətdir. "Çay kənarında bitib susuz qalan ağacların sağlığına" povestimdə, "Camış bağa girdi, gəl", "Əzrayılın erkək-dişiliyi" hekayələrimdə, eləcə də bu günlərdə "525-ci qəzet"də və bizim saytda dərc olunmuş "Tut arağı, donuz kababı və Aşotun məktubu" povestimdə ənənələrimə sadiq qalmışam. Yəni çalışmışam müharibə əzabı və sevinci yaşamış xalqımıza gülüş bəxş edim.*

*Amma nədənsə oxuyanların əksəriyyəti mənə zəng edir, ya yazır ki, oxuduq, ağladıq. Bəlkə nostalji hissləri onları ağladan, bilmirəm. Allah heç kimi ağlatmasın.*

*Təxminən gecə saat 1 idi. Rəşad Məcidin qardaşı zəng elədi:*

*- Məllim, son povestini oxudum, ağladım, sonra getdim yarım litr araq alıb gətirib içib yatdım. Yuxuda Ağdamı gördüm, yanan şəhəri, evimizi gördüm və oyanıb yenə ağladım.*

*Sonra dostum Rasim Müzəffərli zəng elədi:*

*- Qaqa, povesti oxudum, bir yerində özümü saxlaya bilməyib ağladım. Bilirsən harda? Şəhər azad olunandan sonra Faxı Ağdamdakı evlərini tapıb həyətə girəndə anasına zəng edir ki, mama, həyətdəyəm deyir və başlayır ağlamağa, bax, orda. Özü də bu povestdə yazdıqların olduğu kimi mənim də başıma gəlib.*

*Sonra da bir əhvalat danışdı. Eynilə mənim povestdə yazdığım kimi Faxının Aşotla dostluğunda olduğu kimi, Rasimin də bir erməni ilə elə dostluğu olubmuş. Rasim müəllimin dediklərini ayrıca yazacam.*

*Bu gün səhər-səhər də görkəmli ziyalı, professor Qəzənfər Paşayev zəng eləmişdi ki, povesti oxudum və ağladım. Qəzənfər Paşayev kimi bir ziyalını, bir professoru əsərim maraqlandırıbsa, nə xoş mənə. Deməli, istədiyimi yaza bilmişəm.*

*Belə zənglər çoxdu. Söz verirəm ki, povesti bütövlükdə yaxınlarda saytımızda dərc edəcəm və həm də tezliklə kitab halında nəşr etdirəcəm.*

*Amma mən heç kimi ağlatmaq istəməmişəm. Sadəcə olaraq, həyat həqiqətlərini yazmışam, insan faciəsini yazmışam, müharibələrin yaratdığı insan faciəsini.*

# LAÇININ QAŞINDA QAR ÇİÇƏKLƏDİ...

*Laçının qaşında qar çiçəkləndi,*
*Alma çiçəkləndi, nar çiçəkləndi*



**Bu misralar şair Musa Urudundu. Şair Qərbi Azərbaycanda doğulub, Bakıya da teztez gəlib-gedirdi. Hər dəfə atası ilə gələndə Məmməd Arazgilə də qonaq olardı, qohumluqları vardı. Görünür, gəlib-gedəndə Laçından gəlib-gedirmişlər. Laçının gözəlliyi onu valeh edibmiş ki, bu şəhərə gözəl bir şeir də yazıbmış.**

30 il Laçının qaşında qar çiçəkləmədi, qan çiçəklədi. Artıq o qanı Müzəffər ordumuz silib təmizlədi, inanıram ki, indi Laçının qaşında qar da çiçəkləyir.

Bu şəhəri çox sevirəm, həm mənzərəsinə görə, həm də mərd, qonaqpərvər adamlarına görə. Bu şəhərlə bağlı həm köşə yazılar yazmışam, həm də "Camış bağa girdi, gəl" adlı maraqlı bir hekayə.

Laçına şəhər desək də (Sovet dönəmində rayon mərkəzlərinə camaat şəhər deyirdi), əslində böyük və səliqəsiz bir kənd idi. Və bu şəhərdə də evlərin hamısını laçınlılar öz zəhmətləriylə, öz qazancları ilə tikmişdilər. Yalnız inzibati binaları, özünə lazım olan binaları Sovet hökuməti tikmişdi.

İndi Laçın yenidən tikilir, yəqin televiziyadan izləyirsiniz. Təmiz başqa bir şəhər tikilir, gözəl, yaraşıqlı, dağ memarlığına uyğun.

Bir dəfə televiziyada demişdim ki, mən Avropanı gəzmişəm, amma Kəlbəcər kimi cənnət bir yer görməmişəm. Sosial şəbəkədə bir nəfər irad tutmuşdu ki, sən İsveçrəni görməmisən?! Mən də ona elə televiziya vasitəsilə cavab verdim ki, mən İsveçrəni görmüşəm, amma Kəlbəcər ordan gözəldi, sadəcə olaraq İsveçrə Avropadı və abadlığı ilə Kəlbəcərdən fərqlənir. İndi Kəlbəcər yenidən tikilir, həm də özünəməxsus tikilir - abad, şən-şur bir şəhərə çevriləcək, özü də kurort şəhərinə. Ondan sonra mənə irad tutan dost İsveçrə ilə Kəlbəcəri yenidən müqayisə edər, görər mən haqlıyam.

Necə ki indi Laçın tikilir, səliqə ilə, səhmanla. Laçın da gözəl bir kurort şəhəri olacaq və İsveçrənin şəhərləri ilə döş-döşə gələcək.

Hər dəfə televiziyada yeni tikilən Laçını göstərəndə uşaq kimi sevinirəm. Və Laçın Turşsusuna 1985-86-cı illərdə yalnız bu suyu içməkdən ötəri etdiyim səfərlər yadıma düşür. Fikirləşin, durub Ağdamdan 73 kilometr yolu basabasa gedirsən ki, o sudan içəsən. O şəhərin camaatının qonaqpərvərliyinə və o Turşsunun suyuna tamarzıyam.

**Bu tamarzıya son qoymaq arzusu ilə.**

# FRANSIZ MÜŞAHİDƏÇİLƏRƏ BİR "ALA" İŞARƏSİ GÖSTƏRİLMƏLİDİR

**Fransadan daha bir sürü qurbağa yeyən guya müşahidəçi adında tökülüb gəldilər Ermənistana və ordan da üz tutublar Azərbaycan-Ermənistan sərhədinə. Binoklla bizim əraziləri, bizim əsgərləri izləyiblər. Gələnlərin əksəriyyəti də keçmiş hərbçilər və komandanlardı. Nəyi izləyirlər və niyə izləyirlər, məlumdur.**



Bu yerdə yadıma bir rus filmindən, gərək ki adı "K-19"du, bir epizod düşdü. Sovet sualtı qayığı qəzaya uğrayır və ABŞ sualtı qayığının köməyindən də imtina edir. Qayıq suyun üzünə qalxır, matroslar təmiz hava alırlar. Bu vaxt ABŞ-ın bir hərbi helikopteri qayığa yaxınlaşır və helikopterdəkilər fransız müşahidəçiləri kimi binoklla Sovetin matroslarını izləyirlər. Bu vaxt əla bir kadrla rastlaşırlar: Sovet matrosları hamı şalvarını aşağı çəkib yanlarını onları binoklla izləyən ABŞ hərbçilərinə göstərirlər. ABŞ-ın helikopterdəki əsgərləri bu səhnəni görən kimi uzaqlaşırlar.

Deyirəm, indi bizim də sərhəddəki sərhədçilərimiz və hərbçilərimiz əllərini qabaqlarına qoyub bir "ala" işarəsi göstərsinlər.

***P.S.** Şəkilə görə oxuculardan üzr istəyirik.*

# Polkovnik: "Təxribatın olacağına şübhə yox idi, o qüvvələr buna zəmin yaratmışdı..."

*Xəbər verdiyimiz kimi ötən gün Ermənistan silahlı qüvvələri növbəti dəfə qarşıdurmaya səbəb olan addımlar atıb. Antiterror əməliyyatlarından sonra bu ilk insident olsa da, əslində riskli bir addım idi.*

*Dünəndən başlayan və gün bitən həmin qarşıdurma ilə bağlı ehtiyatda olan polkovnik, hərbi ekspert Rövşən Məhərrəmov bu barədə suallarımızı cavablandıracaq.*

**-Cənab Polkovnik, Azərbaycanla müharibədə, lokal döyüşlərdə və antiterror əməliyyatında dəfələrlə məğlub olmuş Ermənistan ordumuza qarşı təxribat törətdi. Sizcə, bu Ermənistana sərf edən bir qarşıdurmadır?**

- Fevralın 12-də Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan Silahlı Qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyindən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqeyinə atəş açması göstərir ki, bu dəfələrlə məğlub olmuş Ermənistanın öz "ağlı", "cəsarəti" deyil.

Hətta təxribat nəticəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu əsgər Xəlilzadə Pərviz Ağakişi oğlu yaralanması da onu göstərir ki, Ermənistanı bu hücuma sürükləyənlər güclü qüvvələrdir. Sülh danışıqlarına təşəbbüs edilməsinə hazırlıq dövründə belə bir hücuma görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

**- Axı, bu məğlub olmuş ölkə niyə yenidən hücuma keçməyə özündə cəsarət tapdı?**

-Bilirsiniz ki, Azərbaycanın Ermənistan üzərində qələbəsini həzm edə bilməyən qüvvələr var. Bu qüvvələrə Avropada da, okeanın o üzündə də, Asiyada da , hətta qonşu Rusiyada aiddir. Bu qüvvələr antiterror əməliyyatları zamanı çox arzulayırdı ki, ermənilər - mülki şəxslər müharibə zamanı ölsün və onlarda bu fürsətdən istifadə edib Azərbaycanı qazandığı qələbəyə görə qınasınlar, onu "günahsız insanları qətl etdiyi üçün" mühakimə etsinlər.

Amma gözlədikləri baş vermədi. Ali Baş Komandanın nəzarəti altında başlayan antiterror əməliyyatı zamanı 1 nəfər də olsa mülki şəxs ölmədi. Bundan əli çıxan həmin ermənipərəst qüvvələr yeni yollar aramağa başladı.

**- Azərbaycana qarşı İlk işləri nə oldu?**

- Revanşist qüvvələrin gücləndirilməsi. 2023-cü ilin antiteror əməliyatından sonra Ermənistan Baş naziri Nikol Paşinyanın nüfuzunun sürətlə düşməsi Sərkisyan- Koçaryan qruplaşmasının üzvlərinin fəallaşması Qarabağı könüllü olaraq tərk etmiş erməniləri də, Ermənistandakı erməniləri Paşinyan hakimiyyətinə qarşı fəallaşdırdı. Paşinyanın "Qarabağ Azərbaycan torpağıdır" təsdiqi çıxışından sonra erməni lobbiləri də yaşadıqları ölkələrdə buna etiraz etdilər, mitinqlər keçirdilər, yaşadıqları ölkələrin senatına prezident administrasiyasına qarşı böhtan xarakterli müraciətlər etdilər, Azərbaycanın cəzalandırılmasını tələb etdilər. Fransa, ABŞ senatında və AŞPA -nın sessiyasında Azərbaycan əleyhinə qərarların çıxarılması əslində Ermənistan üçün verilən "cəsarət"in nümunəsidir. Xüsusən, Fransa və Hindistanın (245 milyon dollar dəyərində silah anlaşması) Ermənistanı ən müasir silahlarla silahlandırması, hətta Fransa mülki təhlükəsizlik qüvvələrinin 56 hərbçisi, 2 "Dash" təyyarəsi, 1 mobil idarəetmə stansiyası, 2 ton avadanlıq və 2 xilasedici itlə İrəvana gəlib orada təlim keçirməsi, Fransa müdafiə naziri Sebastyan Lekornu ölkəsi Fransa ilə Ermənistan arasında müdafiə sahəsində əməkdaşlığın bir neçə istiqamətdə aparmasını açıqlaması qatil Qarabağ klanına bağlı erməniləri cəsarətləndirdi.

**- Ermənilər məhz bu olaylardan sonra "partizan müharibəsi" üçün çağırışlar etməyə başladılar. Azərbaycanın qüdrətini guya öz ağılları ilə belə zəifltməyi düşünürdülər.**

- Qarabağdakı "antiterror tədbirləri"ndən sonra Ermənistan silahlı qüvvələri silahı yerə qoydu. Amma





vərdişlərində əl çəkə bilməyən bəzi revanşist qüvvələr bölgədə yeni təxribatlara və hücum cəhdlərinə əl atacaqlarını açıq şəkildə bəyan edirdilər. Məsələn, məşhur erməni terror təşkilatı olan VOMA Qarabağda silahlı partizan mübarizəsinə başlayacaqlarını and içmişdi. Məlumdur ki, Azərbaycan silahlı qüvvələri tərəfindən darmadağın edilən erməni ordusu hələ də bir komandanlıq altına altına bilməyib. Mən bu haqda dəfələrlə çıxış etmişəm. Deməli, orduda Qarabağ klanını dəstəkləyən qüvvələr var ki, onlar üçün komandanlığın deyil, Sərkisyan-Köçəriyanın əmri vacibdir.Bunu sıravi ermənilər də bilir, görür və revanşist qərarları dəstəkləməyə önəm verirlər. Dünənki hadisə də gözlənən idi.

**- Maraqlıdır ki, ötən günkü təxribatda məhv edilən iki erməni hərbçisi "Yerkrapa" könüllülər birliyinin üzvü olub...**

- Bəli, "Yerkrapa" könüllülər birliyi 1993-cü ildə yaradılan və Birinci Qarabağ müharibəsində iştirak edən erməni terrorçuları birləşdirən ittifaqdır. Görünən odur ki, Yerkrapa"kimi terrorçu bir qrupu Ermənistan hakimiyyəti hələ də zərərsizləşdirə bilməyib. - Ataların bir məsəli var, deyir gələcəkləri varsa, görəcəkləri də var. Azərbaycan haqlı olaraq təxribata cavab olaraq "qisas əməliyyatı" keçiridi. Nerkin-Hand yaşayış məntəqəsinin yaxınlığındakı döyüş postu tamamilə darmadağın edilib, döyüş mövqeləri susdurulub. Məhv edilmiş döyüş postunun şəxsi heyəti arasında ciddi itkilərin olması barədə məlumatlar mövcuddur.

**- Rövşən müəllim, bayaq qələbəmizi həzm etməyənlər arasında Rusiyanında adını çəkdiniz...**

- Rusiyanın adını təsadüfən çəkmədim, Rusiya tərəfi Qarabağda olduğu son 4 ildə bütün əməlləri ilə təsdiq etdi ki, münaqişənin gərginləşməsinin tərəfdarıdırlar. İstəmirlər ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalansın, əmin-amanlıq olsun, qonşuluq münasibətləri yaransın. Ruslar bu istiqamətdə də öz işlərini aparırlar.Xatırlayırsınız yəqin ki, 10 noyabr bəyanatının 4-cü bəndinə əsasən ərazilərimizdəki qeyri-qanuni silahlı birləşmələri məhz Rusiyanın sülhməramlıları çıxartmalı idi Amma SM qüvvələrin boynuna götürdüyü işi də Azərbaycan ordusu yerinə yetirdi. İndi də Ermənistan sülh müqaviləsini uzadır.

Sülh müqaviləsini bağlamağa delimitasiya və demarkasiya işlərinin komissiya tərəfindən aparmağa ehtiyac belə yoxdur.

İlk növbədə sülh bağlanmalıdır sonra komissiya işini davam etdirsin. Bu Qazaxın hazırda işğalda olan 7 kəndi, həmçinin Naxçıvanın Kərki kəndi işğal altındadır. Azərbaycanın tarixi torpaqları dedikdə ADR yarananda dünyanın gözü qarşısında Azərbaycanın ərazisi 100 min kvmetr olub və bu fakt Ali Baş Komandan İlham Əliyevin qırmızı xəttidir. Yəqin ki, artıq sonuncu təxribatın layiqli cavabından sonra ermənilər də, Ermənistan hakimiyyəti də anlayar ki, nə dər Azərbaycan Prezident İlham Əliyev var, onlar hər zaman məğlubiyyətə məhkumdurlar...

**- Rövşən müəllim, ətraflı məlumata görə, təşəkkür edirik və Allahdan Azərbaycana sülh və əminamanlıq arzulayırıq!Oxucularımıza da bildiririk ki, Ermənistan-Azərbaycan şərti sərhədinin Qafan rayonu istiqamətindən atəşkəsi pozaraq təxribata cəhd edən Ermənistan silahlı qüvvələrinin məhv edilən hərbçilərinin sayı 4-ə çatıb.**

**Söhbətləşdi:**
**Əntiqə Rəşid**

## Elxan Şahinoğlu: "Saxta mina xəritələrindən insanlar ölür, danışıqlara ciddi zərbə dəyir"

**Xəbər verdiyimiz kimi, bu günlərdə Ermənistan işğaldan azad edilmiş ərazilərdə mövcud olan mina sahələrinə dair 8 formulyarı Azərbaycana təqdim edib. Formulyarlar üzərində təhlil və emal işləri aparıldıqdan sonra qeyd edilən məlumatların real mina sahələri ilə uzlaşmadığı, istinad nöqtələrinin koordinatlarının yanlış və yararsız olduğu müəyyən edildi.**



Mövzu ilə bağlı siyasi analitik, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Adalet.az saytına danışıb. O bildirib ki, Ermənistan növbəti dəfə basdırılan mina sahələrinə dair yalan məlumat verməsi əslində gözlənilən idi:" Çünki bundan əvvəlki illərdə Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında basdırılan mina sahələrinə dair verilmiş məlumatlar dəqiq deyildi.

Ermənistan hər dəfə olduğu kimi bu dəfə də dəqiq mina xəritələri verməməsilə danışıqlar prosesinə ciddi zərbələr vurmuş olur. Bir tərəfdən dünyaya təbliğ edirlər ki, sülhə nail olmaq istəyirik, amma saxta mina xəritələri təqdim etməklə iki ölkə arasındakı mülayimləşməyə doğru gedən münasibətləri təhlükə altına alırlar.

Təsəvvür edin ki, son 3 ildə saxta xəritələrə görə yüzlərlə Azərbaycan vətəndaşı mina partlamasında faciəli şəkildə həlak olub. Bu əlbəttə ki beynəlxalq hüquqa ziddir. Mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, insanlıq əleyhinə törədilən cinayətdir. Ermənistanın sərgilədiyi siyasətdən belə anlaşılır ki, o saxta xəritələr verməklə danışıqların uzanmasında maraqlıdırlar.

Mütləq Azərbaycan tərəfi Ermənistanın bu əməli ilə bağlı beynəlxalq təşkilatlara məlumat verməlidirlər".

**Qeyd edək ki, təkcə keçmiş təmas xətti boyu ərazilərin deyil, eyni zamanda yaşayış məntəqələrinin, əkin sahələrinin, çay kənarlarının, meşə massivlərinin, məzarlıqların minalarla yüksək səviyyədə çirkləndiyinin şahidi oluruq. İkinci Qarabağ müharibəsindən sonra 345 nəfər mina qurbanından 247 nəfəri keçmiş təmas xəttindən kənarda baş verən mina hadisələri nəticəsində həlak olub və ya müxtəlif dərəcədə bədən xəsarətləri alıb.**

**Ə.Rəşid**

# BU, FACİƏDİR

**Ötən ilin statistikasında göstərilir ki, 54 min nigah kəsilib və 21 min boşanma hadisəsi olub. Bu çox dəhşətli rəqəmdir. Təxminən evlənənlərin 40 faizi boşanıb.**



Əvvəllər bu rəqəm 25-30 faizi keçmirdi və boşanma hallarının hər il artması, ailələrin dağılması deyəsən heç kimi narahat etmir. Adətən boşanmada müxtəlif səbəblər göstərirlər: "Xasiyyətimiz tutmur", "Qayınanamla yola gedə bilmirdim", "Yaxşı dolana bilmirdik", "Ərim içirdi", "Arvadım bozbaş bişirə bilmirdi" və sair və ilaxır. Ən sonda da xəyanət gəlir.

Azərbaycanda adətdir, elə bir çox ölkələrdə bu adət var, evlənmək istəyənlər bir müddət nişanlı olurlar ki, bir-birlərini öyrənsinlər və bir-birlərinə öyrəşsinlər. Necə oldu ki, iki il nişanlı vaxtında gül-bülbül oldunuz, evlənəndən altı ay sonra biriniz arı, biriniz gül oldunuz? Yaxşı dolana bilmirdiniz - əgər sevgi varsa sevənlər soğan-çörəklə də bir yerdə yaşaya bilərlər. Hər gecənin bir gündüzü var.

Yəni yuxarıda qeyd elədiklərim boşanmanın səbəbləri ola bilməz.

Əvvəl Braziliya serialları, sonra da televiziyamızda əxlaqımızı pozan verilişlər yıxdı bu xalqın evini. Qardaşı arvadını götürüb qaçan deyil, beş uşağını atıb müğənni olmaq həvəsi ilə Bakıya gələn deyil, müharibədə iki ayağını itirmiş ərini küreyində gəzdirən, müharibədə kor olmuş qaziyə ərə gedən qızlarımız təbliğ olunmalıdır.

Ay başbilənlərimiz, belə getsə Azərbaycanda əhalinin əxlaqı təmiz məhv olub gedəcək. Ailələri dağılan ölkənin də gələcəyi xoş görünmür.

**Nicat Novruzoğlu**

## KEÇİNİN BUYNUZU GEYİŞƏNDƏ KƏSİB BİR YERİNƏ SOXARLAR

**İndi ermənilərin buynuzu yox, bir yeri möhkəm geyişir. Dalbadal iki gündür sərhədçilərimizi və bizim postları atəşə tuturlar. Dillərində sülh gəzir guya, ciblərində bomba. Xarici himayədarlarının, xüsusilə də Fransanın təzyiqi ilə yenidən bizi müharibəyə cəlb etmək istəyirlər. Ağıllarını o qədər itiriblər ki, heç Ukraynanı göz önünə gətirmirlər. Eşq olsun bizim sərhədçilərə, onların geyişən yerlərini dağıdıb məhv ediblər.**

Və Ermənistan Müdafiə Nazirliyinin məlumatına görə, iki erməni əsgəri mırdaxes olub, ermənicədən bu sözü bizim dilə tərcümə etsək, yəni xosunvay olub, bir neçə əsgəri də yaralanıb.

Biz sülh istəyirik, savaş istəmirik. Amma peyğəmbərimiz buyurur ki, savaş, sənə qarşı savaşanlarla savaş. Qardaşımız türklər də deyir ki, savaş istəyirsən, sən onu alacaqsan.

Özü də biləsiniz ki, Ermənistan silahlı qüvvələri bizim postları Avropadan gəlmiş müşahidəçilərin gözü qarşısında atəşə tutublar.

## Mübariz İbrahimov yada düşmədi...



**Fevralın 7-si Milli Qəhrəman Mübariz İbrahimovun doğum günü idi.**

Onun hansı qəhrəmanlıq göstərdiyini bu xalq və bu millət çox yaxşı bilir. Mübarizin qəhrəmanlığı tariximizə qızıl hərflərlə yazılıb. Bunlar hamısı aydındır.

Amma aydın olmayan odur ki, onu anadan olduğu gündə bir televiziya kanalı yada salmadı, bir süjet belə göstərilmədi. Həmin gün bircə sosial şəbəkədə xatırlandı Mübariz! Niyə televiziyaların yadına düşmədi o? Bəs deyirlər şəhidlər unudulmur?

Görürsünüzmü, unudulur! Əgər Mübariz İbrahimov kimi, Milli Qəhrəman ad günündə unudulursa, onda görün digər şəhidlərimiz necə unudulur! Televiziyalarımız hər mövzuya yer tapır, amma belə qəhrəman oğullara yer tapmır, niyə? Qoy bu sualın cavabını onlar tapsınlar?!

## "Tələbələri incitməyin, sualları..."



**Bu sözləri Sumqayıt Dövlət Universitetinə yeni təyin olummuş gənc rektor, dosent Rüfət Əzizov işə başladığı ilk gündə ali məktəbin professor və müəllim heyəti ilə görüşündə deyib. Rektor onu da deyib ki, sualları azaldın və asanlaşdırın, şərait yaradan ki, tələbələr imtahanlardan yüksək qiymət alsınlar və heç kəs "kəsilməsin".**

Əvvələr hər imtahan fənnindən 80-90 sual tərtib edilirdi. Təbii ki, bu da tələbələr üçün müəyyən çətinlik yaradırdı. Amma rektorun bu tapşırığından sonra hər hansı fəndən imtahan verərkən bu semestr 20 sual hazırlanıb.

Ona görə də bu qış imtahanlarından tələbələrin 99 faizi yüksək qiymətlər alıb və əlaçıların sayı artıb. Rektor Rüfət Əzizov universitetə gəldiyi gündən kollektivdə sağlam mühit yaradıb, rüşvətin qarşısını alıb, ədaləti və şəffaflığı təmin edib. Məhz ali məktəbdəki sağlam mühitə görə, tələbələr də özlərini rahat hiss edir və heç bir çətinlik yaşamırlar.

Bax, Sumqayıt Dövlət Universitetinin bu gözəl təcrübəsi digər ali məktəblərə də yayılmalı, belə demokratik və ədalətli ziyalı rəhbərə cəmiyyət daha hörmətlə yanaşmalıdır. Çünki onlar xalqı, vətəni sevməyi öz əməllərilə göstərirlər!!!

## Sürücülər yuxulayırsa...



**Heç kimə sirr deyil ki, bəzi sürücülər sükan arxasında yuxulayır, bu vaxt idarəetməni itirir və ağır qəzalar törədirlər.**

Təbii ki, bu hadisələr zamanı ölən və xəsarət alanlar olur! Ona görə də Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayı respublika əhəmiyyətli avtomobil yollarında belə qayda pozuntularına qarşı mübarizəni son vaxtlar daha da gücləndirib.

Yol Patrul Xidməti Alayının 12-ci tağımının xidmət apardığı Hacıqabul-Horadiz avtomobil yolunda belə sürücülərə qarşı qabaqlayıcı tədbirlər görülür. Tağımın stasionar postunda yol polisi tərəfindən sürücülər saxlanılır, onlara sükan arxasında diqqətli olmaq tövsiyə edilir, yorularkən avtomobili saxlayıb, lap postun yaxınlığında dincəlməyi nəzərlərinə çatdırılır.

Aydındır ki, bu cür qabaqlayıcı tədbirlər mövcud nöqsanları aradan qaldırır. 12-ci tağımın komandiri Namiq Əzizov bizimlə söhbətində bildirdi ki, görülmüş profilaktik tədbirlər nəticəsində sükan arxasında yatan sürücülərlə bağlı qəzalar əsaslı surətdə azalıb. Sərt döngələrə və digər qəza ehtimalı olan yerlərə əlavə naryadlar göndəririk! Bir daha sürücülərdən xahiş edirik ki, yorğun halda sükan arxasında əyləşməsinlər və sərt döngələrdə diqqətli olsunlar!

Ona görə də sürücülər yol polisinin bu xəbərdarlıqlarını nəzərə almalı və qaydalara əməl etməlidir. Əgər elə olarsa, onlar sükan arxasında yuxulayıb ölümlə nəticələnən ağır qəzalar törətməzlər!

## Biz niyə təhlükəsizlik kəmərindən istifadə etmirik?

**Yol hərəkəti qaydalarının pozulmasından biri də təhlükəsizlik kəmərindən istifadə edilməməsidir.**

Düzdür, əvvəlki vaxtlara nisbətən bu gün təhlükəsizlik kəmərindən istifadə edənlər çoxdur, amma gəlin onunla razılaşaq ki, istifadə etməyənlər də az deyil! Hansı ki, baş verən qəzalar zamanı kəmər taxan sürücünü və sərnişini o, ölümdən və xəsarət almaqdan xilas edir.



Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis kapitanı Toğrul Nəsirli deyir ki, hər bir sürücü və onun yanında əyləşmiş sərnişin birmənalı olaraq təhlükəsizlik kəmərindən istifadə etməyə borcludur. Çox təəssüf ki, əməkdaşlarımızın keçirdikləri tədbirlər zamanı təhlükəsizlik kəmərindən istifadə etməyən sürücülər və sərnişinlər aşkarlanır. Bu isə məsuliyyətsizlik deməkdir. Təbii ki, kəmər vurmamağa görə, onlar inzibati qaydada cərimə olunurlar. Amma yol polisi beləl追 cərimə etməkdən çox maarifləndirmək barədə düşünür! Ona görə də bir daha sürücülərdən və sərnişinlərdən xahiş edirik ki, nəqliyyat vasitəsinə əyləşən kimi, təhlükəsizlik kəmərindən istifadə etsinlər və həyatlarını təhlükə qarşısında qoymasınlar!

## Hər şeir yazan şair deyil...



**İndi televiziyalarda elə "şair"lər peyda olub ki, onlara baxanda adamın ayağının altından yer qaçır.**

Hələ aparıcılar onlara "söz ustası" da deyir. Heç kimin tanımadığı " şair" ləri xalqa sırımaqda görəsən, televiziyaların məqsədi nədir? Onların söylədikləri bu cızmaqaralarda bir poetik ifadə, bir bədii söz, bir fəlsəfi fikir yoxdu.

Əgər bunlar yoxdusa, deməli, o səslənənlər şeir deyil. Amma şeirdən xəbəri olmayan o adamlar tez-tez efirdədirlər! Şair deyəndə Ramiz Rövşən, Seyran Səxavət, Vaqif Bəhmənli, Vaqif Bayatlı Odər, Adil Cəmil, Ağacəfər Həsənli... yada düşür... Və onları da efirlərə çox nadir halda dəvət eləyirlər! Bax şair bunlardı, o cızmaqaraçılar yox! Bir də yadımdan çıxmamış deyim: hər şeir yazan şair deyil!!!

## Bu gündən havalar dəyişir



**Hava haqqında verilən məlumatlara inansaq fevralın 15-dən ölkə ərazisində havalar soyuyacaq, şaxta olacaq, qar və sulu qar yağacaq.**

Təbii ki, belə havada insanlar diqqətli olmalı, nəqliyyat vasitələrini idarə edərkən yol hərəkəti qaydalarına önəm verməlidirlər! Çünki qar yağanda və şaxta olanda yollar buz bağlayır, sürüşkən olur.

Belə anlarda isə sürücülər sürət həddinə əməl etməli, ara məsafəsi saxlamalı, nasaz avtomobillərlə mənzil başına yola düşməməlidirlər!

**Bir sözlə, hava şəraiti nəzərə alınmalıdır!**

**EMİL FAİQOĞLU**

## <u>Aqil Abbas:</u> " Ermənistan nəqliyyat dəhlizinin yaradılmasını qəsdən uzadırsa..."






**Xəbər verdiyimiz kimi Qarabağ müharibəsindən sonra Azərbaycan, Ermənistan və Rusiya liderləri Azərbaycanın qərb rayonlarını Naxçıvanla birləşdirəcək quru və dəmir yolu marşrutlarının açılmasına razılıq verən bəyannamə imzalayıb.**

Hətta ötən həftə "TRT World" məlumat yaydı ki, Azərbaycan qərb rayonlarını Naxçıvanla birləşdirəcək və Çindən Mərkəzi Asiyaya, Xəzər dənizinə, Qafqaza, eləcə də Türkiyəyə uzanan Orta Dəhliz üçün marşrut rolunu oynayacaq Zəngəzur dəhlizi avtomobil və dəmir yollarının tikintisini davam etdirir.

Buna baxmayaraq, Ermənistan Azərbaycanın əsas ərazisi ilə Naxçıvan arasında nəqliyyat dəhlizinin yaradılması ilə bağlı danışıqları uzadır.

Milli Məclisin deputatı Aqil Abbas saytımıza Ermənistanın nəqliyyat dəhlizinin yaradılması ilə bağlı danışıqları uzatmasının səbəbləri ilə bağlı geniş bir açıqlama verib.

Millət vəkili bildirib ki, 44 günlük müharibədən məğlub çıxan Ermənistan Azərbaycan ordusunun zərbələrindən yayınmaq üçün 10 noyabr sazişinə tələsik imza atdı, öhdəliklər götürdü, amma hələki, imza atdığı məsələlərin həllini yubatmaqda davam edir: "Belə bir mövqedə qalmaq isə növbəti bir qarşıdurmaya zəmin yarada bilər. Bunu əlbəttə ki, şüurlu şəkildə Ermənistan hakimiyyəti də anlayır.

Bilir ki, Ermənistan 2020-ci ildə də, ondan sonrakı lokal döyüşlərdə də, antiterror əməliyyatı zamanı da ciddi uğursuzluğa uğrayıb. Ordusu da, cəbbəxanası da, separatizmin qeyri-qanuni hökmranlığı da darmadağın olub.

Ermənistan Baş naziri N.Paşinyan da onun hakimiyyəti də bunu anlayır ki, Azərbaycan növbəti dəfə haqqı olanı almaq üçün güçdən istifadə etsə, Ermənistan ordusu 2020-ci ilin noyabrındakı duruma düşəcək. Amma Ermənistana "ürək-dirək" verən qüvvələr var. Məsələn son 5-6 ayda Fransanın , Hindistanın Ermənistanla bağladığı silah müqavilələri və Ermənistanın cəbbəxanasının zənginləşdirilməsi, müasir silahlarla təmin olunması bu ölkədə eyforiya abu-havası yaradıb. Xüsusən revanşist ermənilərin qənaəti budur ki, Qarabağ yenidən işğal olunmalıdır. Azərbaycan ordusunun qəti qələbəsindən sonra hələ də Ermənistanda böyük qism Qarabağın yenidən ermənilərə məxsus olacağını düşünür. Bu düşüncəni isə ermənilərə yaşadan Ermənistanın silahlandırılması, Fransa və ABŞ kimi hegemon ölkələri Azərbaycana qərəzli münasibəti dayanır. Ermənistanın hərbiləşdirilməsi proqramına başlayan ölkələr Ermənistanı yeni müharibəyə həvəsləndirməkdə davam edir.

Fransa mediası da açıq şəkildə bildirir ki, Fransanın təxminən yeddi təlim mərkəzində Rusiyaya qarşı müharibədə iştirak etmək üçün Ermənistandan olan əsgərlər hazırlanır. İddiaya görə, "Fontevrault L'Abbedəki" təlim mərkəzi erməni əsgərlərin hazırlığı ilə məşğul olur. Əlbəttə ki, bu faktlar Azərbaycanın qərb rayonlarını Naxçıvanla birləşdirəcək quru və dəmir yolu marşrutlarının açılmasına mənfi təsir göstərir, proses qəsdən uzadılır.

**Prosesin uzadılması isə marşurutun açılmasında marağı olan nəinki region ölkələrinin, eləcə də dünya ölkələrinin planlarına ziddir. Ermənistan bunun bədəlini ağır ödəmək məcburiyyətində qala bilər" deyə millət vəkili bildirib.**

**Əntiqə Rəşid**

## Lavrov: "İsveçrə etibar olunası oyunçu deyil"

**"İsveçrə Ukraynaya öz vasitəçiliyini tətbiq etməyə çalışır".**

Adalet.az xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov Valday Klubunun XIII Yaxın Şərq Konfransının sessiyasında bildirib. Onun sözlərinə görə, bu səylər ölkənin anti-Rusiya mövqeyinə görə uğurlu olmayacaq.

Yaxşı, hansı vasitəçilik xidmətləri ola bilər? Yeri gəlmişkən, onlar indi öz vasitəçiliyini Ukraynaya sırımağa çalışırlar. Ondan heç nə çıxmayacaq. Bu , etibar edilə bilən oyunçu deyil ". Lavrov İsveçrə hökuməti tərəfindən təsdiq edilmiş 2024-2027-ci illər üçün xarici siyasət konsepsiyasının mətninə diqqət çəkib. Sənəddə xüsusilə qeyd olunur ki, Bern təhlükəsizliyi "Rusiya ilə deyil, Rusiyadan" gücləndirməyə çalışır. İsveçrənin xarici işlər naziri İqnazio Kassis daha əvvəl bildirmişdi ki, ölkə hakimiyyəti Ukraynada sülh danışıqlarının təşkili imkanlarını öyrənir. Onun sözlərinə görə, bu məsələ ilkin mərhələdədir.

## Pentaqon rəhbəri: "Ukrayna da, biz də təslim olmayacağıq"

**Amerika Birləşmiş Ştatları digər müttəfiqlərlə birlikdə Ukraynanı dəstəkləyir və ukraynalılar döyüşdükcə, onlarla birlikdə müqavimət göstərəcək.**




Adalet.az xəbər verir ki bunu Pentaqonun rəhbəri Lloyd Ostin deyib.ABŞ müdafiə nazirinin sözlərinə görə, Kreml hələ də müttəfiq ölkələrin Ukraynaya marağını itirəcəyinə və tərəfdaşların dəstəyinin zəifləyəcəyinə ümid edir.

"Ancaq indi mən həmişəkindən daha əminəm - ABŞ Ukraynanın yanındadır və bu mübarizədə Ukraynanı dəstəkləyəcək", - o deyib. Ostin vurğulayıb ki, koalisiya üzvləri, o cümlədən ABŞ Ukraynanı ona görə dəstəkləyir ki, Kiyev haqlıdır və bu, Birləşmiş Ştatların özünün əsas təhlükəsizlik maraqlarına uyğundur. "Ukrayna da, biz də təslim olmayacağıq", - Pentaqon rəhbəri qeyd edib.

# 2023-cü ilin intihar statistikası: Ermənistanda 198, Azərbaycanda 620...

**Hər il olduğu kimi bu il də bütün dünyada olduğu kimi Qafqaz ölkələri 2023-cü ilin müxtəlif sahələrin hesabatını açıqlayıblar.**

Adalet.az xəbər verir ki, Ermənistan Milli Statistika Komitəsinin açıqladığı məlumatlara görə, 2023-cü ildə respublikada 198 nəfər intihar edib ki, onlardan 5-i 17 yaşa qədərdir.

Müqayisə üçün qeyd edək ki, 2022-ci ildə 188 nəfər intihar edib, onlardan 10-u 17 yaşdan aşağı olub. intihar edənlərin böyük əksəriyyəti, 151-i kişi, 47-si qadındır. Milli Təhlükəsizlik Agentliyinin məlumatına görə, 30-65 yaş arası vətəndaşlar öz həyatına son qoymağa daha çox meyllidirlər: intihar edən vətəndaşların 118-i bu yaş qrupunda, 27-si 18-29 yaşda, intihar edənlərin sayı isə bu yaş qrupundadır. 65 yaşdan yuxarı yaş qrupu 48-ə çatır.



Gürcüstan son 3 ilin intihar hadisələri ilə bağlı hesabat haqqında xeyli araşdırma aparsaq da, tapa bilmədik. Amma axtarış zamanı rast gəldiyimiz 2020-ci ilin hesabatı bəzi məqamları aydınlaşdıra bilir: "Cari ilin (2020) birinci yarısında Gürcüstanda intihar halları artıb. Yanvarın 1-dən iyunun 30-dək ölkədə 162 nəfər özünə qəsd edib. Onlardan 125-i kişilərdir. Bu rəqəmlərdən təxmin etmək olar ki hər iki ölkə bu hesabatda bizə uduzur.

Qeyd edək ki, Azərbaycan baş prokuroru Kamran Əliyev qurumun geniş kollegiya iclasında çıxışı zamanı bildirdi ki, 2023 -cü ildə Azərbaycanda 620 intihar hadisəsi qeydə alınıb.Amma Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2022-ci il üzrə məlumatında deyilir ki, 654 nəfər intihar edib. Belə ki, intihar edən şəxslərdən 457-i kişi, 152-i qadın olub, o cümlədən 42-si yetkinlik yaşına çatmayan şəxslər olub. Yeri gəlmişkən, statistik məlumatlara əsasən, 2021-ci ildə ölkədə 612 nəfər özünə qəsd edib. İntihar hadisələrindən 438-i kişi, 147-si isə qadın tərəfindən törədilib. 2019-2020-ci illərdə ölkədə 1 182 intihar və 1 830 intihara cəhd hadisəsi baş verib.

Psixoloqlar kütləvi intiharların səbəbini belə xarakterizə edirlər:

-İldən-ilə artan intiharlara qarşı istər beynəlxalq təşkilat və super dövlətlər səviyyəsində, istərsə də ayrı-ayrı ölkə hökumətləri(kiçik istisnalarla) səviyyəsində heç bir ciddi adekvat profilaktik tədbir görülmür.

-Dünya üzrə yoxsulluğun səviyyəsi ilbəil artır.

-Milyonlarla insan, hamilə qadın, uşaq aclıq və susuzluqdan əziyyət çəkir ki, bu da nisbətən rufah halında yaşayan ölkə sakinlərini də təhdiq altında saxlayır.

-Bahalaşma, xüsusən ərzaq məhsullarının qiymətlərinin artması aztəminatlı ailə başçılarını ciddi psixoloji imtahanlar, sarsıntılar qarşısında qoyur...

-Bir yandan iqtisadi böhranlar, digər yandan texnoloji inkişaf, o cümlədən robotlaşdırma işsizliyi kütləviləşdirməkdədir...

-Gündən-günə uşaq və gənclər arasında onları birbaşa və ya dolayısıyla intihara sürükləyən virtual oyun və ya filmlər çoxalır.

-Tərkibi şübhəli olan, insan beyninə psixoloji təsir və təzyiqlər göstərən müxtəlif energetik içki və qidaların kütləvi satışı durdurulmur.

-Allahın haram buyurduğu sələm, kredit ucbatından borcluların, rəsmi bank "əsir"lərinin sayı aybaay artmaqdadır.

***P.S.** Əziz oxucular, sizcə insanlar daha hansı səbəblərdən canına qıya bilər?*

Əntiqə Rəşid

# Əziz Ələkbərli: "Amagu məbədi mədəni irs nümunəmizdir, ona "Noravank" deməklə saxtalaşdıra bilməzlər"

*Ermənistan mediası növbəti dəfə uydurduqları "qədim tarix", "erməni mədəni irsi" kimi saxtakarlıqları dünyanın diqqətindən uzaq tutmaq üçün çıxış yolunu Azərbaycana qarşı şər-böhtan kampaniyasını seçiblər. Beləki, Ermənistan İctimai Radiosunun saytında qədim Alban mədəniyyətinin incisi sayılan bir tarixi tikilinin guya erməni irsinin nümunəsi kimi göstərərək Azərbaycan dövlətinin həmin abidəni "özününküləşdirir" deyib haray çəkir.*

*"Ermənilər məbədin adını Noravank qoysalar da tarix yalanı sevmir və bütün araşdırmaçılar, arxeoloqlar, tarixçi və salnaməçilərin son qənaəti budur ki, məbədin ermənilərlə heç bir əlaqəsi yoxdur".*

*Bunu 500-dən çox elmi və publisistik məqalənin, 46 kitabın, o cümlədən "Qərbi Azərbaycan" adlı 10 cildlik ensiklopedik nəşrin, Azərbaycanda və xaricdə Azərbaycan, ingilis, rus, alman və fransız dillərində nəşr olunmuş "Qərbi Azərbaycan abidələri" adlı kitabın müəllifi, Milli Məclisin deputatı, tarixçi alim Əziz Ələkbərli təsdiq edir.*

*Ə. Ələkbərli Adalet.az saytının suallarını cavablandırır:*

**- Əziz müəllim, Qarabağ qalibiyyətindən sonra susmaq əvəzinə ermənilər daha çox təxribatlara əl atır, daha çox oğurluqla məşğul olurlar...**

- 1813-1828-ci illərdə Qafqaza köçürülən ermənilərin əlbəttə ki, bir tarixi, bir irsi ola bilməzdi. Odur ki, bütün bunları oğurlamaqla yarada biləcəyini düşünüb və düşünməkdə davam edir . Bu səbəbdəndir ki, iki yüz ildən çoxdur ermənilərin Cənubi Qafqazda xalqımıza qarşı etmədiyi vəhşilik, törətmədiyi yaramazlıq qalmayıb. Xalqımıza vurduğu zərbələr, tariximizə, ədəbiyyatımıza, musiqimizə, mahnılarımıza və mədəni irsimizə qarşı törətdikləri məqsədyönlü mənimsəmə əməllərini 200 ildən də çoxdur dünya görür və susur.

Dünyanın susmasından həvəslənən ermənilər hər gün bir az səsini başına atara̱q daha bərkdən bağırır, özünü təmizə çıxartmağa çalışır. Azərbaycanı etmədiyi hərəkətlərlə suçlayır . El arasında bir məsəldə deyildiyi kimi: Oğru elə bağırır , doğrunun bağrı yarılır. İndi artıq zaman əvvəlki zaman deyil və biz də öz haqqımızı tələb etməliyik.

**- Ogrular indi də bağırır ki, erməniləşdirdikləri, adını Noravank qoyduqları Amagu məbədini Azərbaycan öz mədəni irsikimi tanımasına etiraz ediblər.Bunu guya Azərbaycan hökumətinin Ermənistanı işğal etmək planı kimi dünyanın diqqətinə çatdırmağa çalışırlar. Əslində kimdir haqlı?**

- İlk öncə gerçək tarix nə deyir, ona bir baxaq, sonra görək axı niyə ermənilər bu məbədi erməniləşdirmək fürsəti tapıblar: Deməli, Dərələyəz mahalının, Keşişkənd rayonun (Onun da adını dəyişib Yexqnadzor qoyublar- red Ə.Ə) Amağu adlı bir kəndi var.Həmin kənddən 2 km aralıda, Arpa çayı ilə Amağu çayının arasında yerləşən alban(qıpçak) məbədi yerləşir. Həmin Alban məbədinin adı tərcümədə Yengi Vəngdir. Hər iki söz qıpçak türkcəsindədir. "Yengi" sözünün mənası "yeni", "təzə" deməkdir, "Yeni vəng", "Təzə kilsə" mənasına gəlir. Məbəd XIII əsrə aiddir və Qərbi Azərbaycanın qədim tarixini



əhatə edir. Erməni işğalında olan bu məbəd tarixini saxtalaşdıraraq dünyaya "əzəli erməni" kilsəsi kimi tanıdırlar.

**- Erməni mediası yazır ki, erməni orta əsrlərə aid Noravank monastır kompleksinin YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi ilə bağlı müraciət rədd edilib, çünki YUNESKO-nun ekspert komissiyasının üzvləri avtobusla monastıra gələndə və tarix-mədəniyyət abidəsinin ərazisində tikilmiş restoranı görəndə, ərizəni rədd edərək avtobusdan düşmədən geri qayıdıb.**

-Məbəddəki daş rəsmlərin birində yaşlı kişi sujeti var, təbii ki, kişi sifət quruluşuna görə qıpçaklara bənzəyir. Bayaq qeyd etdiyim kimi, məbəd erməni qəsbkarları tərəfindən dünyaya "Noravank" adıyla tanıdılır. Ermənilər bu məbədin alban dilində(Yengivəng) adını erməni hay dilinə elə olduğu kimi tərcümə ediblər. Çünki hay dilində "nor, nora" sözünün mənası "yeni, təzə" deməkdir. Demək olar ki, işğal altında olan bütün kilsənin türkcə adları erməni adları ilə dəyişdirilmişdir.

**- Bəs bu Amagu məbədini kim tikib?**

- Buradakı epiqrafik yazılardan anlaşılır ki, məbədin əsası 1221-ci ildə Sis alban knyazı Libarit Orbelian tərəfindən qoyulmuş, sonra knyaz Darsaiç 1275-ci ildə burada qardaşı Sembat üçün sərdabə, daha sonralar Darsaiçin oğlu Burtel ikimərtəbəli məbəd ucaltmışdır. Bura türksoylu Orbelianların nəsil sərdabəsi olub.

Elxanilər dövründə Arpa xan (1335-1336) abidəni bərpa etmiş, Satibəy xatun (1339-1340) ikinci mərtəbəni yenidən qurmuş, qadınlarla kişilərin bir qapıdan daxil olmaması üçün ikinci mərtəbəyə ayrıca pilləkənlər əlavə etmişdir. 1840-cı il zəlzələsi zamanı məbəd xeyli zərər çəkmişdir. Amağu kəndi qədimdən Qıpçak-Oğuz boylarının anayurdu olmuş, 1988-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. Kəndə ilk ermənilər Qərbi Azərbaycan türklərinin 1988-ci il soyqırımından sonra köçürülüblər.

**- Əziz müəllim, sizin sırf bu mövzuda olan qiymətli kitablarınız var. Qərbi Azərbaycan abidələri" kitabınız , Azərbaycan, ingilis, rus, fransız, alman dillərində çapdan çıxıb . Müxtəlif dillərə tərcümə edilən həmin kitabda milliyyətcə azərbaycanlı olmayan qədim salnaməçilərin, arxeoloqların, şərqşünasların, tarixçilər, araşdırmaçıların, qafqazşünasların tutarlı faktlarla zəngin mənbələrdən istifadə edilib. Dünyanın hər tərəfinə yayılmış kitablarınız hətta dünya ermənilərinin də əlinə keçib. Eşitdiyimə görə, Ermənistanda da sizin kitablarınız var və yəqin ki, ermənilər dəqiq tarixi sizin kitablarınızdan oxuyublar. Onlar həqiqəti bilәndən sonrada, sizcə, hansı əsasla uydurma tarixlərindən əl çəkmirlər.**

- Bəli, mövzu ilə bağlı kitabım hətta Ermənistan dövlət televiziyasında müzakirəyə də çıxarılıb. Ermənilərə gerçək tarix gərək deyil. Sərf eləmir həqiqət onlara... Onda gərək Qafqaza gəlmə olduqlarını boyunlarına alalar. Təsəvvür edin bu xalqda ikiüzlülük, yalan o həddədir ki, 1828-ci ildə köçdükləri Qarabağa, orada Marağa kəndində bunu əyani şəkildə təsdiqləyən 18128-1978 illəri əhatə edən Marağa -150 heykəlini unudub, Artsax min illərdir erməni torpağıdır" deyib dünyaya haray salmışdılar.

Heç bir millət bunlar qədər başqa xalqın maddi- mənəvi sərvətlərinə hücum etməyib, mənimsəməyib. Azərbaycan alimləri Ağdam ərazisində Gavurqala adlı şəhər aşkar edəndən sonra erməni alimləri Qarabağda "Tiqranakert şəhərin xarabalıqları"nın Azərbaycan torpaqlarında axtardılar və guya tapdılar ki, həmin ərazi "qədim erməni Tiqranın" yaşadığı ərazilərdi. Bir sözlə, onların beyninə yeridilmiş "mənim" təfəkkürü gerçəyi görməyəcək qədər inkişaf edib, xəstəlik həddinə çatıb. Ermənidən etiraf gözləməyin mənası yoxdu.

**- Əziz müəllim, ətraflı məlumat və maarifləndirməyə görə təşəkkür edirik!**

**Söhbətləşdi:**
Əntiqə Rəşid

## Dərman idxalı ilə məşğul olan şirkətlərə XƏBƏRDARLIQ

**Analitik Ekspertiza Mərkəzi Azərbaycanda fəaliyyət göstərən dərman idxalı ilə məşğul olan şirkətlərə xəbərdarlıq edib.**

AEM-dən Adalet.az-a verilən xəbərə görə, Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı ilə təsdiq edilmiş Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısına əsasən Narkotik vasitələrə və psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələr, həmin maddələri hazırlamaq və ya emal etmək üçün avadanlıqların dövriyyəsinə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin xüsusi icazəsi ilə yol verilir. Bildirilib ki, güclü təsir edən və ya zəhərli maddələrin idxalı zamanı Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinə təqdim edilməli olan sənədlərin sırasında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən xüsusi icazənin olması mütləqdir.

# "Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamağa məcburdur"

**"Nikol Paşinyanın Azərbaycanla sülhlə bağlı "Teleqraf" media holdinqə verdiyi müsahibədə söylədiyi fikirlər hesab edirəm ki, Böyük Britaniya auditorisyasını və bütövlükdə Qərbi Azərbaycanla Ermənistan arasında baş verə biləcək sülh prosesi ilə bağlı yanlış məlumatlarla yükləməyə yönəlmişdi"**

Bu fikirləri Adalet.az-a açıqlamasında politoloq Tural İsmayılov bildirib.

O, bu fikri Azərbaycanın Ermənistana təklif etdiyi beşmaddəli sülh təklifini Ermənistanın bəhanələr gətirərək manipulyasiyalara məruz qoyduğuna işarə verərək əsaslandırır. Politoloq qeyd edir ki, eyni zamanda Ermənistan sülh danışıqları üçün ortada olan qərarların heç birinə əməl etmir və biz görürük ki, məhz Ermənistanın provakakasiyaları, təxribatları üzündən Azərbaycanla-Ermənistan arasında delimitasiya komissiyalarının iclasları çox ləng keçir. Təbii ki bugün Ermənistan öz adına deyil, daha çox xaricdəki havadarlarından aldığı bəyanatları və əmrləri səsləndirir. Mən hesab edirəm ki, Paşinyanın sülhlə bağlı mətbuata verdiyi müsahibədə söylədiyi yalanlar daha çox Ermənistanın guya sülhə hazır olmağı ilə bağlı fon yaratmağa hesablanmışdı. Şübhəsiz ki Ermənistan bölgədə sülhün olmağında maraqlı deyil. Belə olan təqdirdə heç 2020-ci ildə biz 44 günlük Vətən müharibəsinə də başlamazdıq.



Sadəcə olaraq Azərbaycan qalib tərəf kimi regionda şərtləri diqtə edir və Ermənistanın baş naziri Nikol Paşinyan verdiyi müsahibədə özündə o siyasi diplomatik etiketi taparaq cəsarətlə etiraf edə bilmir ki, məhz Azərbaycanın qələbəsinə görə Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamağa məcburdur. Və eyni zamanda bugünə qədər Azərbaycanın sülhlə bağlı bütün çağırışları Ermənistan tərəfindən blok edildiyi də ortadadır. Yeni Ermənistan Fransanın və müxtəlif xarici dairələrin təhdidləri, təzyiqləri, həmçinin birbaşa direktidləri ilə Cənubi Qafqaz bölgəsində gərginliyin qalmağında maraqlı tərəf qismində iştirak edir, qlobal imperyalizmin və neo-imperyalist cəhdlərin davamçısı qismində çıxış edir.

Emin

# İlqar Əlfioğlu: "Telekanallar kütlə səviyyəsindədir deyə, aparıcılar efirdə şpaqat açır, dombalaq aşır"

*Əziz oxucularımız, xatırlayan var bəlkə... Bakı Televiziya Studiyası ilk dəfə 1956-cı il fevralın 14-də efirə çıxıb. İlk veriliş günü ekranda mərhum sənətkarımız Nəcibə Məlikova görünüb və çıxışına "Göstərir Bakı" kəlməsi ilə başlayıb. Həmin gün ekranda "Bəxtiyar" bədii filmi göstərilib. 1970-ci ildə televiziya Dövlət Televiziya və Radio Verilişləri Komitəsi statusu alıb.*

*Bu gün Azərbaycanda və şərqdə ilk televiziya olan, indiki AzTV kanalının yaranmasından 68 il keçir. Bu münasibətlə bir zamanlar Azərbaycan tamaşaçısının sevimlisinə çevrilən "Dalğa" proqramının müəllif və aparıcısı telejurnalist İlqar Əlfioğlu ilə söhbətləşirik.*

**- İlqar müəllim "Dalğa" verlişini o zaman həvəslə gözləyən ailələrdən biri də bizim ailəmiz olub. Dövlət televiziyasının efirində fərqlilik, yeganə televiyamızın tamaşaçısında maraq, sevinc yaradan "Dalğa" o vaxt biz gənclər üçün əsl möcüzə idi. Həm maarifləndirmə vardı, həm məlumatlandırma , həm də əyləncə vardı.**

- Mən özümü dərk edəndən demişəm ki, televiziya çağırılmamış qonaqdır. İndi qəzetlər də, saytlarda çoxdur. Amma heç bir KİV televiziya ( tv ) missiyasını yerinə yetirə bilməz. Təsəvvür edin, evinə girərkən ilk işin ayaqqabını soyunmaqdırsa, ikinci işin mütləq televizorun düyməsini basıb, sonra başlayırsan paltarın dəyişməyə, daha sonra yemək yeməyə ...

Ona görə deyirəm ki, televiziya hər bir süfrənin başında oturan çağırılmamış qonaqdır. Əgər bu çağırılmamış qonaq "üzlü" olarsa, bir o qədər ev sahibini narazı salır, bezdirir. Sovet dövründə Muratov soyadlı tanınmış bir televiziyaçı vardı. Moskva tv-da bir çox ideya və layihələrin müəllifi olub.O, tv ilə bağlı 30-40 kitabın müəllifidir .(İnanmıram ki, hazırda onun adını bilən tv işçisi olar) Muratov deyirdi ki, tv kütlədən azca yuxarı səviyyədə olmalıdır.Çox yuxarı səviyyədə olanda kütlə sənə nifrət edir :"Televiziya işçisi gərək həqiqətən də səviyyəcə çox yuxarı olsun, amma onu "qaşıq-qaşıq" göstərsin. Gərək ilk gündən tamaşaçıya bütün potensialın təqdim etməsin .Onda kütlənin yaxşılaşmaq həvəsi birdəfəlik öləcək". Bəli, gərək məişətdə təvözəkar olsunlar, qonşularla salamlaşsınlar, özlərini heç kəsdən yuxarı tutmasınlar və bilsinlər ki, bu gün olan şöhrət sabah olmaya bilər.

**- Muratov çox dəqiq hədəfi vurub... Çünki hazırda tv-ımızda səviyyə istənilən həddə deyil və kütlənin də yaxşılaşmaq həvəsi "ölüb". Yoxdur.**

- İndiki televiziyalarımız aqressivdir. Əvvəla hamısı pis işlə məşğul olduqlarını başa düşür. İnanıram ki, onlar da pis iş gördüklərini gözəl bilirlər. Çünki kütlə zövqünə işləməkdən pis şey yoxdur. Mən tv işçilərini günahlandırmıram, qətiyyən! Onlara nə tapşırılır, onlarda onu yerinə yetirir! Televiziyaya yanaşmanın səhf olduğunu düşünürəm. Ölkədə 8-9 eyni sifətli tv-kanal var ki, ancaq detalları və levlları ilə fərqlənir. Bu tamaşaçıya lazım deyil. Kanallar mütləq tematik olmalıdır. Məsələn, CBC kanalında idman verlişləri var. Buna baxmayaraq, AzTV nəzdində "İdman Kanalı" açılıb . Kanal 3-5 il əvvəlki futbol oyunlarını göstərir. Bu kanal niyə açılıb? Bunu bir sual verən var? Əgər bu kanal Milli Televiziyanın bütün idman oyunlarının vacib olanlarını göstərməyəcəksə, o adda kanal nəyə lazımdır?

**- Mən düşünürəm ki, ümumiyyətlə televiziyaların yalnız informasiya vermək missiyası qalıb. Maarifləndirmək missiyasını 8-9 kanalın heç birində yoxdu. Məsələn çox istərdim ki, sırf Azərbaycan tarixini əhatə edən, qədimdən bu gününə qədər olan dövr xırda detallarına qədər bütün hadisələri , tarixi şəxsiyyətləri işıqlandırsın. Tamaşaçı tariximizi, tarixi şəxsiyyətlərimizi yox, TV uçuz şou sayəsində məşhurlaşmış savadsız, Azərbaycan qadınına, kişisinə yaraşmayan hərəkətlər nümayiş etdirən vətəndaşları daha yaxşı tanıyır.**



- Bilirsiniz, tematik kanalların olması zəruridir. Tamaşaçı öz maraq dairəsinə uyğun bölünür və hərə özünə sevimli bir kanal seçir. Məsələn, Rusiya tv məkanında tarix kanalı var. "İstorika" Bəzi kanallardan çox onun izləyicisi var. Anlayıram, hər şey pula bağlıdır. Amma tək pul məsələsi də deyil. Yüksək səlahiyyətli məmurların tv-rə münasibəti düzgün deyil. Hazırda vəzifəsi televiziya və radio yayımçılarının fəaliyyətini tənzimləmək, Azərbaycan Respublikası Audiovizual Şurası var. O da ancaq efirdə olan söyüş, dava kimi hadisələrin baş verməsinə tövsiyyə xarakterli müdaxilə ilə işini bitirmiş hesab edir.

Tutaq ki, qaynanasını döydüyü üçün məşhurlaşan, efirlərdə olan qadının bu əməli ona baxan tamaşaçı tərəfindən mənimsənilir. Axı qaynanasını döyərək , asan yolla məşhurlaşmaq, iş tapmaq, hətta yüksək səviyyəli adamlarla təmasda olmaq təbliğatı artıq tamaşaçıda cücərməyə, pərvaz etməyə başlayır.

Beləliklə cəmiyyət başqa yoldan yerimeyi üstün tutur. Bax, tv-rin kütlə səviyyəsinə enməsi onun məhvidir. Bunu heç kəs ciddiyə almır və getdikcə cəmiyyətdə yaxşı olan bütün nümunələr məhvə məhkum olur. Əgər Azərbaycan tv-rı özündə prinsipal dəyişiklər etməsə, heç Tik-tokun da rəqibi ola bilməyəcək. Baxmayaraq ki, 1991-ci ildən tv-də işləmirəm, amma onların reytinqinə baxanda xəcalət çəkirəm. Adam nə qədər maaş xətrinə mənasız- lazımsız işlə məşğul olar, verlişlər yaradar. Ondansa getsinlər dəzgah dalında dursunlar , uşaq baxçasında işləsinlər...

**- Təəssüf ki, bizim teleməkanlardakı verlişlərin çoxu xarici kanallarda yayımlanan verlişlərin "kserokopiyasıdır", həm də ən ucuz formatda ...Bu da başqalarının dəyərlərini öz cəmiyyətinə aşılamaq kimi çıxır.**

- Televiziyaya ayrılan böyük büdcələr bir maarifçi kanala verilməlidir. Verilən həmin pul hara xərclənir?Deməli, 1 milyon və daha çox pula bütün dünyada insanların artıq görməkdən usandığı proqramları müqavilə bağlayıb alırlar. Həmin zəhlətökən verliş "bəhbəh"lə sırınır camaata! Dekorasiya, studiya, geyim, danışıq tərzi - hər şey plagiat!Verlişlərin alınmasına etirazım yoxdur, amma həmin verlişi gətirəndən sonra onu olduğu kimi efirrə vermək olmaz, cilalanmalıdır, özününküləşdirilməlidir. Bundan başqa, bəyəm, Azərbaycanda başı olan, layihə hazırlayan yoxdur?Belə şeylər qəbuledilməzdir.



**- Arabir məşhur verlişlər var onlara nəzər yetirirəm, sonra düşünürəm ki, bu verlişlər cəmiyyəti sanki bir uçurumun kənarına sürükləyib. Necə qurtulmaq olar bu bəladan...?**

- Filosofların fikridir, deyir ki, kütlənin ən ağılsız adamının səviyyəsi nədirsə, kütlənin səviyyəsi odur. Deməli , 50 akademiki, elə o qədərdə cahillə bir otağa kütlə şəklinə salsan, orda akademik görünməyəcək, məhz o cahil, tərbiyyəsiz, səviyyəsizlər görünəcək...

**- Elə niyə?**

- Çünki yaxşılar dözümlü olur, cahil, tərbiyyəsiz, səviyyəsizlər, pislər aqressiv olur. Qaldı da, bu bəladan qurtulmaq məsələsinə, bunu yalnız zor gücünə düzəltmək olar. "İctimai problem" adı ilə cəmiyyətə sırınan tərbiyyəsizliklərin hamısını bağlamaq lazımdır. Hansı kanal işləmək istəyirsə, ona tematik yön verilməlidir. Axı, bu necə ola bilər ki, 15-dən çox kabel və internet tv-miz olsun , amma bir dənə maarifçi kanalımız olmasın?Demirəm ki, milyonlar qoysunlar, yeni verlişlər hazırlasınlar. O sonrakı məsələdi. Ən azından dünya praktikasında sənədli, ensklopedik filmlər var, onları tərcümə edib göstərmək lazımdır. Şəxsən mən insanlar olan verlişlərdən daha çox dünyanın fauna və florası haqqında olan verlişlərə daha çox baxıram. Ölkədə vətəndaşların maraqlandığı, maarifləndirici sahələri əhatə edən verilişlər tapılmalı, göstərilməlidir. Bunun üçün konsepsiya hazırlanmalıdır, layihələr ortaya qoyulmalıdır, tematika da bu səbəbdən mütləq lazımdır. Ümumiyyətlə, televiyalara münasibət kökündən dəyişməlidir.

**- İlqar müəllim bu 68 ildə AzTV əsl məktəb olub. Roza Tağıyeva, Ofeliya Sənani, Şərqiyyə Hüseynova, İlham Rəhimli, Həqiqət Əsgərzadə, Tamilla Ələkbərova , Sevda Ağazadə, İradə Tuncay, Nərgiz Cəlilova, Nailə İslamzadə, Rafiq Həşimov və başqalarının adını çəkə bilərik ki, öz sahəsinin korifeyləri olub. Niyə bu korifeylərdən hazırda heç bir tv-də istifadə etmirlər, ən azı məsləhətçi və ya redaktor kimi...**

- Çox təəssüf ki, belə mütəxəssislərdən heç bir tv-də istifadə edilmir. Əgər onlar tv-lərə dəvət olunsaydı, məsləhət versəydilər yəqin ki, tv-lərdə qadın aparıcıların şpaqat açması, donbalaq aşması kimi neqativ hallar baş verməzdi.Tutaq ki, lap məni gətirdilər bir tv-yəki məsləhət ver. Mən də bir telejurnalist olaraq bütün neqativlərin üstündən xətt çəkəcəyəm və qadağan edəcəyəm. Güzəşt etməyəcəyəm. Deyəcəyəm ki bu belə olmalıdır, bu isə belə olmalı deyil. Dediklərim həyata keçməyək, çıxıb gedəcəyəm. Bir həftə də çəkməyəcək... Yəni bu yolun faydası yoxdu. Çürüyən təkcə televiziyamızdır ki? Təhsilimiz çürümür? Mədəniyyətimiz çürümür?Ancaq yuxarının siyasi iradəsi ilə cəmiyyətimizin , gələcəyimizin qayğısına qala bilərik.

**- Problemlərin kifayət qədər danışdıq, indi keçək ötən günlərin "Dalğa"sına...Niyə o qədər sevilirdi "Dalğa"?**

- Bir dəfə rəhmətlik Elşad Quliyev dedi kİ, "veriliş əvvəlki kimi əks-səda yaratmır, nə edək? Tənqidi materiallar azalıb". Dedim ki, Elşad müəllim, mən də daxil olmaqla, aparıcıları dəyişmək lazımdır, ildə bir dəfə. Əgər sərt tənqidi süjetlər istəyirsinizsə, bundan başqa əlac yoxdu". Dedi:" Niyə axı? Dedim: "Kəskin materialların azalmasının iki səbəbi var: Birincisi, ilk verilişlərim efirə çıxanda, vəzifəli məmurların heç birini tanımırdım, indi hamısını tanıyıram, əksəriyyətilə dostlaşmışam, çörək kəsmişəm. sərt tənqid vermək olmur" Elə belə də etdik. Aparıcıları ildə bir dəfə dəyişdik. Amma indikilər: 15 gün tv-də aparıcı olan birinin forsu yerə-göyə sığmır. "Mənim verlişim, mənim layihəm" deyərək özlərini önəmli, təkrarsız şəxs, ixtiraçı hesab edirlər.

Yeri gəlmişkən,verlişimiz efirə çıxandan xeyli sonra idi. O vaxtın daxili işlər naziri, general-mayor Aydın Məmmədov mənə zəng elədiki, İlqar sənə bir şey deyim:"Dalğa "verlişi efirdə gedəndə respublikada cinayətkarlıq sıfıra enir, inanmırsan gəl, statistikanı göstərim". Çünki, insanlar yaxşı olmağa çalışırdılar.

Fikirləşirdilər ki, day sovet hökuməti yoxdu, biz yaxşı insan olmalıyıq. Bu düşüncəyə əlbəttəki, həmin dövrdə televiziya verilişlərinin də böyük qatqısı vardı. İndi elə bilirsiniz "Dalğa" verlişini yenidən canlandırsaq, efirə çıxartsaq əvvəlki ilgini görə biləcəyikmi? Xeyir. Bax, məsələn, sosial şəbəkələrdə ağıllı, sanballı bir status yazırsan, heç 10-15 nəfər ona baxmır. Amma bir qeyri ciddi fikir yazırsan, hamı çalışır ora rəy yazsın, fikir bildirsin.

Cəmiyyət artıq kütlə halını alıb. Yenə də deyirəm, peşəkarlar, cəmiyyəti tanıyanlar, problemi bilənlər konsepsiya hazırlamalıdırlar, həyata keçirməlidirlər! "Ələkçinin qıl verənləri" yox!Məhz peşəkarlar! Deməli, balet ustaları adətən 40 yaşında təqaüdə çıxırlar. Əmək və Əhalinin Sosial Müdafis Nazirliyi bunu qaldırıb 65 yaşa.Bu qanunu yazan başa düşmür ki, 30 yaşlı balet ustası artıq həmin sənətdə qala bilməz. Yaşa görə, bu sahəyə yaramırlar. Yaxşı, işindən uzaqlaşdırılan bu balet ustaları 65 yaşına qədər nə yeməlidir, nə etməlidir? Yəni, həmin sahənin təxminən 50 peşəkarını qanuni istisnalarla əmək haqqı ilə təmin etmək mümkün deyil ki?Azərbaycan teleməkanının səviyyəsini qaldırmaq istəyirikse, bu sahədə kökündən həll ediləsi məsələlərə səlahiyyətli orqanlar qarışmalıdırlar.

**- İlqar müəllim, sizdən çox eşitmişəm, bütün neqativlərə baxmayaraq, siz hər zaman Az Tv-yə təşəkkür borcunuz olduğunu qeyd etmisiniz...**

-Televiziya əbədi məhəbbətdir. Bir dəfə ora bağlandısa, heç vaxt ayrıla bilmirsən. O dövrün AzTvsinin koridorlarında məşhur simaları görəndə istər istəməz özünü yığışdırırdın, Nahid Hacızadə, Gəray Fəzli, Cəlal Bərgüşad, Elşad Quliyev Hər biri bir məktəb idi. Biz belə şəxslərin süzgəcindən keçib telejurnalist olduq. Ona görə, hər zaman bu qurumu da, orada da əməkdaş olduğum insanları da hörmətlə xatırlayıram. Elə indi də deyirəm: Nə yaxşı ki, 68 il əvvəl o studiya yarandı, nə yaxşı ki, nəinki Azərbaycanda eləcə də şərqdə yeganə televiziya kanalı olan Az.TV yarandı və nə yaxşı ki, AzTV kimi bir kanalda mən də işlədim! Milli Televiziyamızın yaranması günü münasibətilə bütün həmkarlarımı, peşəkar telejurnalistləri təbrik edirəm. Dünyasını dəyişənlərə Allahdan rəhmət diləyirəm!

**- İlqar müəllim, maraqlı söhbətə görə, sizə təşəkkür edirik! Kollektivimiz adından sizi təbrik edirik! İnşallah, televiziyalarla bağlı arzularınız bir gün çiçək açar.**

**Söhbətləşdi:**
**Əntiqə Rəşid**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Açılan əllərin, pıçıldayan dillərin DUASI

Adətimdi, hər səhər yuxudan oyanan kimi günümə şükür edib əlimi Tanrıya açıram. Və hətta bir şair duası da yazmışam. Yazmışam ki:

*İlahi, əlimi açmışam sənə*
*Dərddən uzaq olaq, kədərdən qaçaq...*
*Bütün gecələri iş avandlığı -*
*Bütün səhərləri xeyirlə açaq...*

Bu mənim günümün, anımın duasıdı. Onu öz-özümə də deyirəm, dörd divara da, ağaca da,daşa da, suya da. İçimdə də bir inam var ki, bütün dualar gec-tez qəbul olunur.Təbii ki, dua sahibləri istərlər ki, elə anındaca arzularına qovuşsunlar.

Amma mən heç də o iddiada deyiləm. Ən azından ona görə ki, Tanrı bəndələri sırasında hələ neçə milyonuncu olduğumu dəqiqləşdirməmişəm. Bu sırada neçə milyardıncı bəndə olduğumu da bilmirəm. Ona görə də növbəyə girmək, növbəni pozmağa nə gücüm yoxdu, nə də cəsarətim. Guya olsa nə edərəm ki? Allahdan böyük Allah yoxdu. Deməli,onun növbəsini də pozmaq qeyri-mümkündü. Bax, bu mənada duanın nə vaxt qəbul olunacağını Allahın ümidinə buraxmışam... Özüm isə dərdlərimin çözümü ilə günümü keçirirəm...

Günlər dəbir-birinin davamıdı aylar, illər kimi. Elə mən də bu bir-birinin davamı olan günlərimi ömrümə hopdurmaqla, üstəlik də ömrümü o günlərin yaddaşına köçürmək niyyəti ilə bir ipucundan tutub gedirəm. Və hərdən də öz-özümə deyirəm ki, bax, budur ipucu və budur ömrümə hopan günlərin məna verdiyi ümid!.. Necə asi olum, necə şəkk gətirim bütün olanlara. Axı, hər şey göz önündədi - əzab da, vüsal da, sevgi də nifrətdə, lap elə sevən də, sevilən də!.. Hər şeyin bir müstəvidə olduğu məqamda özünü ittihamdan başqa yol qalmır. Yəni günahı başqasında axtarmaq kimi sadə və primitiv üsuldansa, özündəki eyibi görmək daha dürüst seçimdi məncə. Onda biraz ,əzabı da sinirmək asan olar. Deməli, həm də özünü də tanımış olarsan. Bilərsənki, nəyin cəzasıdı və nəyə görə çəkirsən.

Bu məqamda yaddaşımdan ilham pərisinə ünvanladığım bir şeirin həniri gəlib keçdi - duydum və xatırladım. O pəriyə yazmışdım ki:

*Bənövşə tək açıldın*
*Ürəyimin üstündə...*
*Gözlənilməz gəlişdə-*
*De, qız, nədi qəsdin,nə?!*

*Çaşdım, titrədi səsim*
*Əlim əsdi nanə tək...*
*Sən də çaşdın deyəsən -*
*Əlini telinə çək!*

*Qarşılaşan baxışlar*
*Nəhayət ki, dil tapdı...*
*Sənə etiraf edim-*
*Gözəl görmək savabdı!*

*Bu çaşqınlıq, bu tələş*
*Təbəssümdə ərisin...*
*Öpüm, ruhumla yavaş -*
*Mən bu ilham pərisin!*

***

İndi qışın bu oğlançağında çox yerlərdə, o cümlədən doğuld o yerləri gözümün önünə gətirib məhz arxada qalan günlərimi xatırlamağa çalışıram. Həyətimizdəki su xəttinin donduğu düşür yadıma. Onu ya qaladığımız hansısa bir odun, ya da qaynar suyun hesabına açmağa çalışırdıq. Donmuş gölməçələrin üstündən ehtiyatla keçirdik. Hətta çayın axmayan, hardasa bir maneənin hesabına lillənən nöqtəsində buzu sındırıb əlimizi daşların altına salıb balıq çıxarmağa çalışırdıq...

Bunlar indi şirin bir xatirədi. Amma mən bu xatirəni yaddaşımı təzələmək üçün yox, bu günlərdəFəridə Rəhimlinin internet səhifəsində paylaşdığı qar dağı ilə bağlı gördüyüm mənzərənin içimdə yaratdığı kədər və həsrət dolu nüansları yenidən yaşamaq üçün diqqətə təqdim edirəm. Məhz həmin o mənzərə bütünlüklə kəndimin qış günlərinin görüntüləriilə üst-üstə düşürdü. qar altında qalan ağaclar, hətta həyətin, evin qapısını açmağa imkan verməyən qar tarı bütünlüklə yaddaşımdakı ilə eyni idi. Ona görə də söz yazmaq imkanım mənə rahatlıq vermədi. Və bir də gördüm ki, misralar bir-birinin ardınca düzülüb:

*Belə istəyirəm ömrün qışını*
*Qar səssiz -durmadan yağa üstümə...*
*İlıq göz yaşı tək süzülüb bir az -*
*Hopa bələndiyim ağa - üstümə!..*

*Heyrət sərhəddini ötüb keçə səs*
*Titrəyə bu səsdən qar tikən qəfəs!*
*Saçından bəyaz tel ayıran bir kəs -*
*Onu al bayraq tək taxa üstümə...*

*Bu qar gerçəkdimi,yoxsa yuxumu*
*Görəndən gözümdən silir yuxumu!*
*Bilir ürəyimi,bilir ruhumu -*
*Allahım, bu dəfə baxa üstümə...*

*Hər yan ağappaqdı gerçək sözü tək*
*Nurdu bu mənzərə,nurlu gözü tək...*
*Duman da o qızın elə özü tək -*
*Qalxa asta-asta dağa - üstümə!*

*Əbülfət, sən indi qar havasında*
*Dinləndin bu qarın tar havasın da!..*
*Qatıb bir-birinə yar havasında -*
*Hopdura ruhuma,yaxa üstümə...*

İndi gördünüzmü,niyə xatırladım qışı, şaxtanı?! Və bir də yəqin ki, bu xatırlamanın məni nə qədər içimdən oynatdığını da hər halda duymuş olarsınız. Çünki yazdığım şeir yaşadığım həmin anın pıçıltıları idi. Deməli,özüm-özümlə danışmaqla bahəm, həm də sizlərə nəyisə çatdırmağa çalışmışam. Lakin burda bir etirafı da edim ki, mən o qara, o şaxtaya üz tutub duamı demədim. Qorxdum ki, duam o qarda, o şaxtada donsun. Və...

Hə, həyatın hər üzünü görə-görə, adamların hər sifətinə baxa-baxa və hətta bəzilərinin içinibelə oxuya-oxuya dua etməyin də öz ləzzəti var. Axı, Tanrı hər kəsə öz ürəyinə görə verir.

Kiminsə cəhdindən, əməlindən,hətta oynadığı rollardan asılı olmayaraq, başqasının payını əlindən ala biləcəyinəheç bir inamım yoxdu. Bir məqamdan başqa. Yəni həmin o rol oynayanlar milçəkdən başqa bir şey deyil.

Milçək də həmişə ürək bulandırır. Şükürlər ki, ürəkbulanmasının kifayət qədər dərmanı var. Onlardan biri də əhəmiyyət verməmək, elə milçəyi milçək donunda da görməkd haqqına girmədən, hətta belə bir şeir də yazmışam:

*Sözü küləyə tapşır*
*Məni fələyə tapşır...*
*Xatırlamaq istəsən-*
*Bir də ürəyə tapşır...*

*Al əli, ələ saxla...*
*Əlinə belə,saxla...*
*Ruhuna yük sevgimi -*
*Könlündə hələ,saxla...*

*Bir telin ucunu düy*
*Bir qəlbin içini duy...*
*Ürəyini ağrıtma-*
*Dözməsən dizini döy!..*

*Xəyalı çəpər elə*
*Özünə təpər elə...*
*Təklikdən çıxmaq üçün -*
*Yol tap, bir təhər elə!..*

*Bil, daşı daş yeyəndə*
*Kipriyi yaş yeyəndə...*
*Bir udum dözüm gəlir-*
*”Ah” çəkib ”kaş”deyəndə...*

***

İnsan öz durumunu, öz gerçəkliyini və bir də içindəki sevgi və nifrəti göstərmək zorunda deyil. Yenə bir məqamdan başqa. Yəni artıq duyulmursa, hiss olunmursa,görünmürsə, onda hansısa bir formada öz haqqını göstərməyə məcbursan. Belə məqamda da görünməsə, onda qalır qarşı-qarşıya gəlmək. Bunu isə heç kimə arzu etmirəm. Ən yaxşısı sakit və anlayışlı şəkildə ömür payını yaşamaqdı...

Bəli, qış havalı, qış ovqatlı indiki anımda bir sözün işığını açıq şəkildə görürəm və özümü o işığa tərəf can atan varlıq hesab edirəm. Ola bilsin ki, o gördüyüm işıq deyil, ilğımdı. Amma hər nə olur olsun, indiki anımda mən onu işıqkimi qəbul etmişəm. Və bu işığın da gücünə bələdəm. O, həyat əlamətidi. Deyə bilərsiniz ki, bəs sən kimsən? Onda bu misraları oxuyun:

*Mən bəlkə də heç kiməm*
*Bəlkə də sonuncu ”ah”...*
*Bəlkə də bu dünyada-*
*Günahın özü günah!..*

*Əlim küləkdən tutub*
*Ayağım hava üstə...*
*Yer məni elə udub -*
*Gedir tay dava üstə...*

*Dözülməzdi tənhalıq*
*Dözülməzdi dörd divar...*
*Düşünün siz biranlıq -*
*Kimin lal, kar dərdivar?!*

*Bölüşmək çətinləşib*
*Qeyb olubdu isti söz...*
*Məni qüsul etməyin-*
*Məndən bezib -küsüb söz!...*

Bütün yazı boyu sağdan, soldan müəyyən məqamlara diqqət çəkmək istədim. Amma ən böyük istəyim Allaha və sevgimə olan inancımı ifadə etmək idi.

Bunların hər ikisi yaşamağımın, ayaqda olmağımın ən böyük ilhamçısı, ən böyük dəstəyidi. Mən hər ikisinə şükürlər etməklə ömrümü suya tuturam. Yaşadığım Masazırda hələ ki su donmayıb. Ona görə də duamın suya qarışıb aydınlığa çıxacağına şübhəm yoxdu. Duam isə bundan ibarətdir ki, hərkəs özü-özünü görə bilsin! Hər kəs özü özündə olsun! Və nəhayət, hər kəsin özü öz günahını yuya bilsin!..

***P.S.*** *Mən bütün hallarda Allahın qüdrətinə və Sevginin gücünə inanmaqla yaşadığım bu ömürdə günahlarımın cəzasını çəkməyə həmişə hazıram. Və onu da bilirəm ki, cəzadan qaçmaq heç kimə qismət olmayıb. Sizə də günahsız və cəzasız ömür arzu edirəm.*

## *Dünən susan AŞ, 209 müşahidəçi bu gün ölən terrorçulara görə narahat olursa...*

**Bilirsiniz, dünən - fevralın 12-də, günün günorta çağı - saat 13:37 radələrində Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan Silahlı Qüvvələrinin Qafan rayonunun Nerkin-Hand yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyindən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqeyinə atəş açılıb.**

Təxribat nəticəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu əsgər Pərviz Ağakişi oğlu Xəlilzadə yaralandı. Hazırda dərhal hospitala qaldırılan, cərrahi əməliyyata götürülən hərçimizin vəziyyəti ağır-sabit olaraq qiymətləndirilir.Yeri gəlmişkən, hərbçimizi yaralayan hərbi mütəxəssislərin ilkin rəyinə görə, xarici ölkələrdə istehsal olunmuş snayper gülləsidir

Dünən bu hadisəyə dünyanın heç bir yerindən nəinki təpki göstərən heç səs çıxardan da olmadı. Hətta Avropa İttifaqının Ermənistandakı mülki monitorinq missiyasının 209 nəfərindən birinin də narahat olduğunu eşitmədik.

Qeyri müharibə şəraitində qəsdən güllələnən əsgərin vurulması Azərbaycan Silahlı qüvvələrinə sataşmaq kimi dəyərləndirildi. İş qaldı Azərbaycan Silahlı Qüvvələrinin öz ixtiyarında...

Bu gün -13 fevral tarixində Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin törətdikləri təxribata cavab olaraq qisas əməliyyatı keçirildi. Əməliyyatdan sonra Ermənistan Müdafiə Nazirliyi fevralın 13-də şərti sərhəddə ölən hərbçilərinin adlarını açıqladı:

**1. Arutyunyan Eduard Hamletoviç (1974);**

**2. Manukyan Qaqik Varazdatoviç (1982);**

**3. Ambartsumyan Arsen Qagik (1979);**

**4. Oqanesyan Qraçya Talışeviç (1957).**

Deyilənə görə, yaralanan bir nəfərdə o dörd erməninin dalınca tələsik gedib. Say olub 5.

Belə anda Avropa Şurası dayanarmı? Susarmı? Əlbəttə ki, yox!

Qurumun baş katibi Mariya Peyçinoviç-Buriç bir həyəcanlanıb, bir narahat olub, sonar da deyib ki, Ermənistan-Azərbaycan sərhədində toqquşmalarla bağlı xəbərlərdən narahatdır: "Ermənistan-Azərbaycan sərhədində atışma xəbərlərindən narahatıq. Tərəfləri güc tətbiq etməkdən çəkinməyə çağırırıq. Dialoq davamlı sülhün yeganə yoludur.".

Azərbaycan Ordusunun qanuni hərbçisi yaralanda susan, 1993-cü ildə, Qarabağın işğalı zamanı yaradılan, Azərbaycana qarşı xeyli cinayətlər törədən"Yerkrapa" Könüllülər Birliyi adlı terrorçu təşkilatın qatilləri öləndə narahat olan Avropa Şurasının dərdini, azarını hələ də anlamış deyilik. Hazırda terrorçulara terrorçu başçılıq edən Sasun Mikaelyan hələ antiterror əməliyyatlarından sonra dil-boğaza qoymadan "qisas", partizan müharibəsi" deyə bağıran ermənilərdən olub. Di alın sizə "qisas" və "partizan müharibəsi"...

**Şanlı ordumuz növbəti dəfə də xəbərdar etdi ki, o spayperinizi sərhəddən yığışdırın, aparın, soxun, gözünüzə...**

**Əntiqə Rəşid**



*Eminquey*

# 18+ yox, 55+

*Filmin ilk dəqiqələrində elə bildim evimizdəyəm, sonra gördüm ki, yox, bizim evimiz bu evdən azı 8 dəfə böyükdür. Film 15 kvadratmetrlik otaqda çəkilib. Məni evimizdə hiss etdirən şey film boyu dayanmayan Xoşqədəm və Elgizin səsləri oldu. İndiki dövrdə bu nə gözəl tapıntıdır? Hətta mənə elə gəldi ki, Hikmət filmi sırf bu iki obraza görə çəkib. Evdə bütün günü başqalarının problemi, ailə söhbətləri ilə məşğul olan Xoşqədəm və Elgizə baxan bu ailə özü xirtdəyəcən problem içindədir. Ailə darmadağındır, səfildir.*

*Ərin, yəni Əhmədin taxdığı lupaya bənzəyən eynəkdən gözləri həddindən artıq ya iri görünür, ya da ümumən görünmür. Amma Əhməd bu eynəklə belə hər şeyə gözünü qıyaraq baxır. O hər şeyə baxır, hətta görür, amma onlarla birgə qalan qaynı Mənsura söyüş söyməkdən, arvadı ilə dalaşmaqdan başqa heçnə etmir. O siqaret çəkir, Xoşqədəmə baxır, uzanır, Xoşqədəmə baxır, yatır, Xoşqədəmə baxır. Kürəyilə, sinəsilə, gündəyməzi ilə. Elə hey ucuzvari siqaret olan "Bakı"nı sinəsinə çəkməklə məşğuldur. Elə bu evdəki qaranlıq da Bakını udmağa hazırdır.*

*Evin aman-zaman oğlu Akif isə divarda rəsm çəkir. Ev, günəş, yelləncək, ailə. Yalnız onun divarda çəkdiyi rəsmdə hər şey işıqlıdır, ailə xoşbəxtdir, maşınları var, həyətləri var. Amma bu evdə işıqdan zərrə də əlamət yoxdur. Hətta atası narkoman qardaşına "apar bunu yanına, bir iş-düz qoş elə" deyəndə də Akifin rəssamlıq qabiliyyəti heç kimin vecinə olmur, ailə acından günorta durduğu üçün Akif pul qazanmalıdır. Rəssamlıq kimə pul gətirir ki?!*

*Filmin səs-küy yaradan, tənqidlə qarşılanan detalı Əhmədlə Elnarənin gecəyarı tualetdə boşalmalarıdır. Bunu zaldakı qurcalanmalardan da hiss etmişdim. Əvvəlcə Əhməd güzgünün arxasında gizlətdiyi "Playboy" jurnalını güzgünün önünə qoyub ona baxaraq orqazm olur. Elnarə qapının o üzündə ərinin orada hansı işi tutduğundan xəbərdar olur. Ərinin dalınca tualetə girən Elnarə də öz-özünə orqazm olmağa başlayır. Bu iki səhnə də açıq-aydın filmdə verilir. Rejissor 15 kvadratmetrlik otaqda qayın, ər, arvad, uşaq - hamının yan-yana yatdığı, ər-arvad münasibətlərinin həm mənəvi, həm də fiziki olaraq anormal getdiyini, normal yataq həyatının olmadığını bu kadrlarla bütün çılpaqlığı ilə göstərir. Yataq həyatı olmayan ər və arvad bunu özbaşına, özü-özünə ödəməlidirlər.*

*Çılpaq səhnələrə hazır olmayan, "Təhminə" filmində Zaurla Təhminənin sevişdiyi səhnəyə hələ də barmaqları arasından baxan cəmiyyət üçün rejissor ilkin mərhələdən başlayıb. Görüb ki, kişi ilə qadının sevişməsi, yataq görüntüləri cəmiyyətimiz tərəfindən normal qarşılanmır, onları ayırıb, ayrı-ayrılıqda orqazm etdirib. Filmdə 18+ xəbərdarlığı var, yəni bu film uşaqlar üçün deyil. İş orasındadır ki, bu filmə baxan 18+ insanların əksəriyyəti də bu açıq səhnələri qəbul etmir. Əgər film partlayış effekti versə, Elnarə obrazını canlandıran Şəhla Əliqızını bu cəsarəti üçün daş-qalaq edən çox olacaq. Məncə filmin afişasına 18+ yox, azı 55+ qoyulmalıdır.*

*Film boyu evdə yemək yeyən evin yeganə işləyəni, pul qazananı Mənsurdur. Nə Elnarə, nə Əhməd, nə də Akif yemək yemirlər. Əhməd siqaret çəkir, Akif rəsm çəkir, Elnarə isə yemək üçün ət çəkir. Rejissorun tualet epizodları Elnarə ilə Əhmədin orqazm səhnəsi ilə bitmir. O, bu dəfə də Mənsurun tualet epizodunu çəkir. Mənsur unitazda oturur, siqaret çəkə-çəkə... Hamı nə iş görürsə, onun acığını çıxır tualetdə. Hə, rejissor vəziyyəti yüngülləşdirmək üçün Akifin hamamda çimmək kadrlarını da unutmayıb. Rejissorun bu çılpaq epizodları həm bu filmin "Apatiya" mövzusuna xidmət edir, həm də bu filmin "ac cəmiyyətimiz"in marağına səbəb olmasına. Kimə desən ki, filan filmdə belə səhnələr var, axtarıb baxmaq istəyəcək. Sonra da başlayacaq qınamağa.*

*Filmdə Azər Aydəmirin oynadığı, "rusyət"dən gəlmiş qohum Aqlay obrazıvə xüsusən də bir frazası mənə, eləcə də zaldakı insanlara ləzzət elədi:*

*"Bu Xoşu çox mərd qadındır. Vallah, Azərbaycan dövlətçiliyi, suverenliyi üçün çox böyük işlər görür".*

*Bayaq qeyd etdiyim "ancaq Mənsur yeyir" ifadəsi Əhmədin Mənsuru ad günü süfrəsində öldürməyi ilə qüvvəsindən düşür. İlk dəfə filmdə üç nəfərlik yemək süfrəsi görürük. Mənsurun Akifə "kişi g... tursik ala bilmirsə" ifadəsi (əslində bu deyimdə "tursik" deyil, "şalvar"olmalı idi) kimi öyüdləri, bir növ, Əhmədi oğlunun qarşısında alçaltması Əhmədin ləyaqətinə toxunur, onu külqabı ilə vurub öldürür.*

*İşsiz-gücüz bütün günü evdə otur, qaynının, qardaşının əlinə bax, arvadla, uşaqla bağların qopuq olsun, bütün günü Xoşqədəmə, Elgizə bax, "çest"inə dəyməsin, amma həqiqət üzünə şillə kimi çəkiləndə vur adamı öldür. Bu da insanlarımızın ən ciddi problemlərindən biridir.*

*Mənsuru öldürüb, hissələrə bölüb zibilqabılara tullayan, cibindən yüzlükləri götürən Əhmədin laqeydliyi Elnarənin qardaşı üçün təlaş keçirdiyi məqamlarda da davam edir. Və nəhayət film Elnarənin Akifi götürüb evdən getməyi ilə bitir.*

*Filmdə rejissorun yarımçıq saxladığı epizod Mənsurun "itməsi" ilə bağlı evə çağırılan müstəntiq epizodudur. Müstəntiq gəlir, bir-iki standart sual verir. Açığı, gözlədim ki, Akifi çağırıb "ananla qardaşının arası necə idi?" sualından sonra müstəntiq söhbəti daha dərinə aparsın, olmadı. Akif atasının üzünə baxa-baxa susdu, müstəntiq isə "araşdırma aparılacaq" deyib getdi. Halbuki Akifin gördüyü cinayətin şokunda olması əllərinin əsməyindən, qorxu dolu baxışlarından, səssizliyindən bilinirdi. Yəqin bu cinayəti də "Xoşqədəm" açmalı idi, bilmirəm.*

*Daha bir yarımçıq detal Akifin divara çəkdiyi rəsmdir. "Apatiya" özünü ən çox da Akiflə valideynləri arasındakı münasibətdə özünü biruzə verir. Onlar uşağın məktəbə getməməsinə normal yanaşırlar, rəsm çəkmək qabiliyyəti onları ümumiyyətlə maraqlandırmır, yoxsa narkoman əmisinə "nə iş olur olsun" təfəkkürü ilə müraciət etməzdilər. Akifin neçə gün əllərinin əsməsi, divara rəsm çəkməməsi də onların diqqətini çəkmədi. Düşünən olmadı ki, görəsən Akif niyə daha rəsm çəkmir? Bəlkə də rejissor Akifə gördüyü cinayəti divara çəkdirə bilərdi, amma inanmıram ki, övladlarına biganə qalan bu valideynlər o detalı görəcəkdilər. Amma hər halda filmin afişasına qədər çıxan bu önəmli rəsm detalı yarımçıq qalmayacaqdı.*

*Hər şeyə simvolik yanaşmağım soxaya qalsın, filmdə bir epizoda ilişib qaldım. Hansı ki Əhməd qaynını öldürəndən sonra onu baltayla şaqqalamışdı. Və sonra qan izlərini təmizləməyə başlamışdı. Bax, həmin epizodda o, xalçanı qaldırır. bax o xalçanın altındakı toza ilişib qaldım. Bu toza kasıb evlərində daha çox rast gəlmək olur. Hətta elə ailələr var ki, evin bütün tozunu tez-bazar xalçanın altına süpürür. Bax bu epizodda bəlkə də ilk dəfə o xalçanın altı təmizlənir. Əhməd evi başdan-ayağa silib təmizləyir. Bu detal bəlkə də rejissorun iradəsindən kənar filmə xidmət etmiş oldu. Bütün çirkabını xalçanın altında ört-basdır etmək və cəmiyyətin çirkabını göz önünə tökən, bütün günü yayımlanan sosial verilişlər.*

*"Apatiya"nın rejissoru Hikmət Rəhimov bundan əvvəl "Çılpaq" filmini çəkmişdi, ondan öncə isə rejissoru Emil Quliyev olan "Pərdə" trilogiyasında oynamışdı. Bu filmlərin hər biri ayrı-ayrılıqda mövzu etibarilə məişəti özündə ehtiva edir. Nədənsə, yeni dövr filmlərdə məişət mövzuları - kasıblıq, bakirəlik, işsizlik kimi mövzular işlənilir. Bunun ən əsas səbəblərindən biri tamaşaçının istəyidir. Azərbaycan oxucusu öz dərdindən danışan qəzet, sayt oxumaq istəyir, Azərbaycan izləyicisi öz dərdini göstərən TV istəyir (ki, sosial verilişlər bu qədər baxımlıdır), Azərbaycan tamaşaçısı özünü göstərən film istəyir. Bu səbəbdən yeni dövr rejissorlar kütləyə xitab edir. Hadisələri də, obrazları da bu mövzulardan kənara çıxmır. Son dövr filmlərdə bu mövzulara xitab, açıq, söyüşlü dialoqlar məncə Emil Quliyevdən sonra daha da dəbə mindi.*

*Film haqqında "bu filmlə dünyaya çıxmaq olar?" kimi ironik suallar verən olacaq, deyim ki, 2016-cı ildə istehsal olunan İran filmi "Satıcı". İranlı rejissor Əsgər Fərhadinin ikinci filmi olaraq ən yaxşı xarici film nominasiyası üzrə "Oskar" mükafatını qazanmışdı.*

*Film Emad və Rana adlı cütlüyün Tehranda yeni evə köçməsindən sonra, evin əvvəlki kirayənişinləri ilə baş verən insidentdən sonra, sakit xarakterli Emadın kökündən dəyişib sərt birinə çevrilməsindən bəhs edir. Film İran cəmiyyətində ictimai dəyişikliklərin anatomiyasını əks etdirir, cəmiyyətin ailələrə təsirini araşdırır.*

*Orada da bizim məişət hadisəsi hesab etdiyimiz zorlama faktoru var və mövzu məişətdir. Yəni məsələ məncə təkcə mövzu deyil, həm ölkənin film sektoru ilə dünya film sektorunun əlaqələri önəmli faktdır, həm də ölkənin dünyadakı nüfuzu.*


***Nizami Cəfərov***

***Milli Məclisin deputatı, akademik***




# Azərbaycan yazıçısının qlobal narahatlığı

Yusif Həsənbəyin yaradıcılığı ilə yaxından tanış olan oxucular, heç şübhəsiz, bilməmiş deyillər ki, o, vaxtaşırı olaraq bütövlükdə dünyanı narahat edən qlobal mövzulara toxunmaqla bu və ya digər problemin həllinə öz töhfəsini verməyə çalışır. Əlbəttə, bu cür problemlərin həlli mümkün olmayacaq qədər çətindir, ancaq məlumdur ki, ədəbiyyat meydana gəldiyi dövrlərdən etibarən məhz həlli müşkül məsələlərlə məşğuldur. Və "Ədəbiyyat qəzeti"nin son nömrələrində çıxmış "Can sağlığının sorağında" hekayəsi də göstərdi ki, yazıçı ümumbəşəri, hətta belə demək mümkünsə, planetar problemlər barədəki axtarışlarını davam etdirməklə yanaşı, mövzuya yeni-yeni ideya- estetik çalarlar gətirməkdədir.

Artıq neçə onillərdir ki, Yer kürəsində qlobal istiləşmə ən müxtəlif səviyyələrdə ciddi müzakirələrin predmetinə çevrilmiş, elm adamları, siyasi xadimlər, dini- ruhani cameənin nümayəndələri bu barədə müəyyən mülahizələr söyləmişlər. Əslində, ədəbiyyat da heç zaman kənarda qalmamış, bəşəriyyəti gözləyən təhlükə ilə bağlı zaman- zaman həyəcan təbilini çalmışdır.

Xüsusi olaraq qeyd eləmək lazımdır ki, müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası dünya miqyasında özünü göstərən bütün təbii, sosial, siyasi və s. təbəddülatlara münasibətdə fəal ümumbəşəri mövqe nümayiş etdirməkdə, mövcud problemlərin həllində ardıcıl, səmərəli əməkdaşlıq etməkdədir. Təsadüfi deyil ki, 2024- cü il Azərbaycanda "Yaşıl Dünya Naminə Həmrəylik İli" elan olunmuşdur. Və o da hər cəhətdən anlamlıdır ki, Azərbaycan məhz bu il çox möhtəşəm bir beynəlxalq tədbirə ev sahibliyi edəcəkdir. BMT- nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29- cu sessiyasının - COP 29- un ölkəmizdə keçirilməsi barədə qərar qəbul edilmişdir. Tədbirin miqyası, əhəmiyyəti və nəticələri barədə danışan Azərbaycan Prezidenti demişdir:

"Dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir".

Əlbəttə, Yusif Həsənbəyin sözügedən hekayəsi həmin prioritetlər kontekstində daha böyük əhəmiyyət (və məna- məzmun!) kəsb etməyə bilməz. Keçmişin xatirələrindən bu günün gerçəklərinə qədər dünyada baş verən "istiləşmə"nin mahiyyətinə varmağa, bəşəriyyətin hansı faciələrlə üzləşə biləcəyi barədə növbəti xəbərdarlıq etməyə cəhd göstərən müəllif yazır:

"Yerdən göyə qalxan tüstülər, kimyəvi tullantılar, zəhərli qazlar atmosferin "Ozon qatı"nı söküb- dağıdır! Istiləşmələr gücləndikcə xəstəlik daşıyan bakteriyaların doğulub törəməsinə münbit şərait yaranır. "Donuz qripi"nin qılçasını qırdıq, "Quş qripi" süngüsünü dirədi boşazımıza. Indi də "Koronavirus"un əlində aciz qalmışıq".

Müəllif xatırlayır ki, dahi Səməd Vurğun xəstəlik ucbatından özünün iştirak edə bilmədiyi əllli illik yubileyinin iştirakçılarına belə bir xəbərdarlıq məktubu göndərmişdi: "Axır vaxtlar havalar çox istiləşib! Sizə can sağlığı arzulayıram". Həmin bu "can sağlığı"nın sorağına düşən yazıçını hadisələr gətirib çıxarır Naftalanın "Çinar" sanatoriyasına... "Dəmir darvazanın dingilbabisini taqqıldatdım. Qapı açıldı. Içəridən qəribə ətirli, yumşaq bir külək çarpıldı üzümə. Iki- üç addımla ağ, sarı, çəhrayı zambaqların divarına dirəndim. Boyları məndən də uca zambaqlar əyilib- düzəlir, başımı sığallayırdılar... Sinə dolusu iki ağız asqırdım. Başım- beynim ayazıdı. Göz qapaqlarım qalxır, qaşlarımın çəpərlərini sökürdü".

Müəllifi təəccübləndirən bir də odur ki, burada müalicəyə gəlmiş insanlara "xəstə", "pasient" yox, "qonaq" deyirlər. Və bu "qonaq" sözü də zambaq ətri qədər adamın ruhunu oxşayır... Təhkiyə davam etdikcə oxucunun gözləri qarşısında "yaşıllıqlardan ibarət bir dünya" canlanır:

"Yolum Qovaq ağaclarının altından keçirdi. Havarəngi kombinizonunun ətəyi dizlərini tutan güləriz oğlan uzun saplı süpürgəni özündən iki- üç metr irəli ataraq sağa- sola tövlayır, dəvə pəncəsini xatırladan yarpaqları süpürgənin ucuyla qarşısındakı xəzəl topasının üstünə oturdurdu". Güləruz oğlan yazıçının "bunları yandıracaqsız, eləmi" sualıına cavab verir ki, "xəzəl topalarını torpağın altına basdıracam. Xəzəllər orada gübrəyə çevriləcək. Zambaqlarımız da bu təbii gübrədən mayalanıb daha yaxşı qol- budaq atacaqlar. Zambaqların oksigen nəfəsinə "Ozon qatı"nın da ehtiyacı var". Orası da maraqlıdır ki, əlində süpürgə bağçanı səliqəyə salan bu oğlan adi işçi deyil, çəyirdəksiz bitkilərin genetikası üzrə elmlər namizədidir, bir müddət laboratoriya müdiri də olub, ancaq xoşuna gəlmədiyindən ayrılıb, indi bu işlə məşğuldur... "Ərazidə çoxlu şabalıd, palıd ağacları var. Payızın axırlarında meyvələri yerə tökülür. Mən meyvələri çuvallara doldururam. Zambaqların bürüşmüş ləçəklərini, qurumuş çör- çöplərini də xüsusi qutulara yığıb Bakıdakı Baş Apteklər İdarəsinə yollayıram. O idarədən də sanatoriyanın büdcəsinə xeyli vəsait daxil olur".

Müəllif xatırlayır ki, bir vaxtlar Qubada "Nazlı" gölünün buz kimi, dadlı suyundan yayın istisində ləzzətlə içərdilər, ətrafdakı qamışlıqda qaz, yaşılbaş da olardı. Şəhərin "baş bilənlər"i gölə axan suların yönünü öz bağlarına, bostanlarına tərəf çevirəndən göl bataqlığa dönüb... Daha bir misal gətirilir. Londondan gələn gəmiyə təklif edirlər ki, amyak gübrəsi aparsın. Əlbəttə, boş getməkdənsə bu daha sərfəli idi. Ancaq zəhəri aparmaqdan imtina edirlər. Kapitan şiddətli töhmət alır, etiraz edən fəal işdən qovulur. Və indi "Çinar"da ocaqçı işləyir. Havanın təmiz olub- olmadığını aldığı nəfəsdən bilir. Yusif Həsənbəyin hekayəsində əsas diqqət ideya- məzmuna, ekoloji fəlakətin doğurduğu (və doğuracağı!) faciələr barədəki təsəvvürlərin daha da qabardılmasına verilsə də, yazıçı bədii təhkiyənin rəngarəng imkanlarından da istifadə etməyi unutmur. Ona görə də əsər maraqla oxunur, ayrılıqda hər bir insanın, bütövlükdə isə bəşəriyyətin taleyinə hər an təsir göstərən qlobal problemin miqyası barədə aydın qənaət yaranır. Və heç şübhəsiz, bu hekayə, bir tərəfdən, həssas Azərbaycan yazıçısının düşüncələrini əks etdirirsə, digər tərəfdən, bugünkü Azərbaycan cəmiyyətinin ümumi maraqlarının ifadəsinə xidmət göstərir.



VAQİF YUSİFLİ

# Qırx ildən sonra

*Qırx il bundan öncə "Yazıçı" nəşriyyatı "Yeni səslər - poeziya" almanaxını nəşr etdi.*

*Bu almanaxda 70-80-ci illərin üzdə olmayan o qədər də tanınmayan 15 gənc şairin şeirləri təqdim edilirdi. O gənc şairlər sonralar yaşa doldular, üstündən 40 il keçib, bir çoxu dünyasını dəyişib (Vaqif Kərimov, Vaqif Məmmədov, Məşədi İsmayıl, Nurəngiz Gün, Rauf Soltan, Sabir Sarvan), az bir qismi yaşayıb-yaradırlar (Əvəz Mahmudov, Məhərrəm Qasımlı, Muxtar Qasımzadə, Minayə Əliyeva).*

*Xanlar Həmidovun da 16 şeiri o almanaxda çap olunmuşdu. Lerikin Çayrud kəndində - uca dağlar qoynunda dünyaya göz açan, xasiyyətcə, xaraktercə elə dağlar kimi vüqarlı bir insantək tanıdığım Xanlar Həmidovun sonrakı illərdə nəşr olunan şeir kitabları və mənzum poemaları ilə də rastlaşdım. Məncə, onun bir şair kimi formalaşması, özünü dərk etməsi və sonralar etiraf olunması "Yeni səslər" poeziya almanaxında dərc edilən o 16 şeirlə başlayır... Mənim fikrimcə, Xanlar Həmidovun bütün yaradıcılığına o şeirlər gür işıq saçır...*

*Xanlar Həmidov o illərin (70-80 ci illər) müasir poeziyasında ən çox işlənən vətənpərvərlik mövzusuna meyl edirdi, xatırladaq ki, bizim Nəriman Həsənzadə, Məmməd Araz, Sabir Rüstəmxanlı, Tofiq Bayram, Cabir Novruz kimi şairlərimiz ən gözəl (həm məzmun, həm də formaca) şeirlərini Vətənə həsr edirdilər. Xanlar Həmidovda gənc şair kimi bu vətənpərvərlik missiyasına sadiq qalırdı.*

*Torpaq ki, dünyada birdir, bəs niyə*
*Bir yer mənə doğma, bir yer yad oldu?*
*Bir yer qanad verdi ruha, diləyə,*
*Bir yerdə duyğular nə bərbad oldu.*

*Bir yerdə zirvələr səsləyir məni,*
*Aşırma dağları, alnımda vüqar.*
*Bir yerdə zirvələr uzun yol kimi*
*Məni əldən salar, məni tez yorar.*

*Bu yerdə nənələr, babalar yatar,*
*Bu yer Azərbaycan - Ana Vətəndir.*
*Bu yer anamada layla çalıbdır,*
*Bu yer özümə də həyat verəndir.*

*Desəm ki, böyükdür o günəştəki*
*Daim işıq salır insan üstünə.*
*Vətən elə uca bir zirvədir ki,*
*Kölgəsi düşübdür cahan üstünə.*

*Bu şeirdə Azərbaycanın o taylı bu taylı xəritəsi göz önündə canlandırılır - iki dünya, amma bu iki dünyanı - Şimali və Cənubi Azərbaycanı bir-birindən ayırmaq olmaz. Xanların həmin almanaxda çap olunan "Niyazinin qollarında" şeirində də eyni vətənpərvərlik ruhunu görmək olar. Xanlar dünya şöhrətli mayestro Niyazinin drijor çubuğunu hərəkətə gətirən qollarına rəmzi məna verir - bu qollar Təbriz, Xəzər, Kəpəz, Araz, Kür, Ərk, Əlincə, Örənqalanı özündə əks etdirir, muğamlarla nəfəs alır.*

*"Kürd ovşarı", "Misri", "Cəngi",*
*Yerin vəzni, göyün rəngi,*
*Kainatın öz ahəngi*
*Niyazinin qollarında.*

*Haray çəkir simfoniya*
*Silkinər dağ, titrəyər qaya*
*Qalxıb enər ulu dünya*
*Niyazinin qollarında.*

*Vənətin birliyi ideyası "bu gecə qəlbimə Savalan köçüb" şeirində öz poetik ifadəsini daha parlaq şəkildə əks etdirir:*

*Bu gecə qəlbimə Savalan köçüb,*
*Bu vüsal gecəsi gərək mən yanam.*
*Təbrizin yolları sinəmdən keçib,*
*Bu gecə qovuşan Azərbaycana.*

*Mən həmin gənclik almanaxında Xanlar Həmidovun bir təbiət vurğunu olduğunu da gördüm. Təbiətə hər bir insan vurğun ola bilər, amma şairin təbiət sevgisi əsl poeziya sevgisinə çevrilməlidir. Xanlar təbiətin gözəlliklərini özündə cəm edən Lerik diyarında doğulubsa, necə ola bilər bu gözəllikləri şeirlərində əks etdirməsin? "Dağlar" şeirinə baxaq:*

*Dağlar dik dayanıb qoca nər kimi*
*Zamanlar ağaran başının üstə.*
*Yaşar təbiətdə şah əsər kimi*
*Min illərdə gələ yaşının üstə.*

*Yaxud: "Şəlalə" şeiri*

*Ey mənə ruh verən, ey məni duyan*
*Gəl onun önündə səndə bir dayan.*
*Dağların səsini çöllərə yayan,*
*Çırpınan ürək kimi, dilmi şəlalə.*

*Ümumiyyətlə, Xanlar Həmidovu təbiət şairi kimi də səciyyələndirmək olar. Mənim fikrimcə, "Bir çinar baş vurub ucalıqlara" şeiri onu ən gözəl şeirlərindən biridir desəm, səf etmərəm:*

*Bir çinar dayanıb əsrlər boyu*
*İllər yarpaq kimi Xəzan olubdur.*
*Bir çinar dünyanın gözəllik payı,*
*Bir çinar nəğməkar ozan olubdur.*

*Bir çinar dayanıb dumanda, sisdə,*
*Bülbülün yatağı budağındadır.*
*Sabir, Hadi yatır qolları üstə*
*Vaqifin nəğməsi dodağındadır.*

*Xanlar Həmidin 2011-ci ildə çap olunan "Bir sevgidən doğulan" şeirlər kitabında onun qəzəlləri, qoşmaları və gəraylıları toplanıb həmkarım filologiya elmləri doktoru İslam Qəribli o kitaba maraqlı bir önsöz yazıb. Bu şeirlər kitabında mən Xanlar Həmidi (o artıq ovu üzərindən atıb) klassik poeziyaya və xalq şeirinə bağlı bir şair kimi gördüm.*

*Qəzəl yazmaq (özüdə müasir dövrdə) heç də asan deyil, çünki əsrlərdən bəri öz poetik statusunu saxlayan Qəzəl şairləri həmişə onu sevməyə vadar edir. Xanlar Həmidin Fizulidən gələn "bir dad, bir duz" hiss edirsən, Ələğa Vahidin yaxşı mənada təsiri duyulur (İslam Qəriblidə qeyd edib).*

*Gülüm, meydan oxuyur gözlərinin tağı mənə,*
*Axı, nə etmişəm ki, çəkir belə dağı mənə.*
*Məndə eşqinlə sənin aləmdə bir ad eylərəm,*
*Razıyam ki, desinlər Məcnun çırağı mənə.*
*Xanlaram sönməz eşqin, məhəbbətin şairiyəm,*
*Verilmiş Fizulinin, Vahidin torpağı mənə.*

*Xanlar Həmid qoşma və gəraylılarında da səlisdir - yəni dilimizin saflığına, duruluğuna sadiq qalır (hərçənd ki, bu sözü onun bütün qoşma və gəraylıları haqda söyləyə bilmərəm, "dəstədən geri qalanları" da var). Və burada qeyd edim ki, fikir, məna özlüyündə bizə adi sözlər təsiri bağışlaya bilər, amma bu sözlər şeirdə gərək düşündürücü missiya daşısın.*

*Onun sevgi şeirləri (xüsusilə, "Darıxan sevgilər" kitabındakı şeirləri) insan hislərinin ən ali məqamı kimi yaşanan sevginin poetik şəkildə ifadə etmənin yaxşı nümunələridir. Mən həmkarım Yadulla Ağazadənin bir fikriylə tam şərikəm ki, "Maraqlı cəhət ondadır ki, şairin məhəbbət düşüncələri, məhəbbət hekayələri şeirdən şeirə yenilənir, hissin, duyğunun yeni, tanış olmadığımız qatlarını açıb üzə çıxarır, oxucusunu sözünün sehrinə sala bilir".*

*Xanlar Həmidin sevgi çeirlərinin "payız lirikası" da adlandırmaq olar. Amma bu şeirlərin əksəriyyətində yaşanan hisslər elə onun cavanlıq duyğularının təkrarı kimidir. Bu şairlərdə o ənənəvi sevgi poeziyası ilə bağlı hisslərə, duyğulara sadiq qalır, amma həm də bu günün sevgi duyğularını əks etdirir.*

*Dünən və bu gün. Nə fərqi var, sevgi üçün dünən yox, bu gün var, amma dünən də sevgi sevgi idi, bu gün də təfərrüata varmaq istəmirəm: sevginin əbədiliyini özündə yaşadan bir şeirlə Xanlar Həmid haqqında, onun yaradıcılığı barədə sözümü sona çatdırmaq istəyirəm:*

*Sənin eşqin mənim üçün Tanrımı?*
*Mən yandıqca dirilirəm təzədən*
*Gülüm, sənli günlərim çox acıdır*
*Mən onlara atacağam təzə dən.*

*Sağ qalmağım bu sevdanın gücündə,*
*Bu canımda daha nələr yanmadı?*
*Hər şey yandı bu ataşin içində,*
*Bircə sənli xatirələr yanmadı.*



Sona Çərkəz,
şair-publisist

# "Asan Xidmət"in adını doğruldanlar...

Bu yaxınlarda yolum 3 saylı Bakı "Asan Xidmət" mərkəzinə düşdü. Burada gördüyüm insan axınının qarşısında özümü itirdim və ürəyimdə bütöv Azərbaycanın prezidenti cənab İlham Əliyevə bu mərkəzlərin yaradılmasındakı böyük əməyinə görə qəlbən minnətdar oldum.

Sənədləşmə işlərimlə əlaqədar üz tutduğum bu mərkəzdə yaşadıqlarımı, gördüklərimi ətraflı yazsam, əminəm ki, bir qəzet materialına sığmaz. Təbii ki, insanların xidmətində duranların çəkdiyi zəhməti duyaraq bu duyğulara qapıldım. Bir neçə gün ərzində buraya gəlib-getmək xoş əhval-ruhiyyə ilə bərabər, həm də mükəmməl, öz işinə məftunluqla yanaşan insanlarla məni doğmalaşdırdı. Onların taleyimə Allahın bir töhfəsi olduğuna inandığımdan bu yazını qələmə almağa qərar verdim.

Səmimi söz, xoş münasibət, böyük ürək, mehriban rəftar yaxşılıq sözünün mayasıdır mənim aləmimdə. Düşünürəm ki, elə yaxşılar sözü də yaxşılığın özündən doğur və bu yaxşılar da dünyaya yaraşıq olub ona inamı artırır. İnsanın mənəvi gücünü çoxaldaraq, yaşayıb-yaratmağa sövq edir. Yaşadığımız ömrə yaxşılar rəng qatır, yaxşıların kölgəsində yamanları unuda bilirik. Haqlı olaraq deyirlər ki, dünya yaxşıların və xeyirxahların çiyinlərində durur, onu çökməyə qoymur. Kimliyindən asılı olmayaraq, əqidəsi düz, əməli saleh, mərhəməti sonsuz, halallıq məhfumunu uca tutub, başının üstündə hər an Tanrını hiss edənlər dünyanın yaraşığı olan insanlardır. Ən böyük məramı Allaha məhəbbəti olan, insanlığa şərəf gətirən, sözün tam mənasında yaxşılardan söz salmaq, onları tanımaq və tanıtmaqdan hər zaman böyük qürur duyuram.

Yaşadığımız həyatda hər birimizin ömür yolunu Tanrı müəyyənləşdirir, nə qədər bu həyatda olacağımızı da o bilir, lakin adımızın önünə yazılanları, yəni əməllərimizi özümüz müəyyənləşdiririk. Ömür bir kitaba bənzəyir sanıram. Misra-misra, kəlmə-kəlmə yazılıb, hər kəsə oxuna bilən ömür kitabımızı isə mələklər qələmə alır. Müqəddəs kitablarımızda da buyurulur ki, insanın çiyinlərində mələklər əyləşib. Sağ çiynimizdə olan yaxşılığı, soldakı yamanı yazır... Çalışıb yamandan və yamanlardan uzaq olaq, ömrümüz yetincə qoldan tutmağı, imdada çatmağı, yıxılanı qaldırmağı və xoşbəxtliyimizi onların sevincində görməyi bacaraq...

Xülasə, növbə götürüb ikinci mərtəbəyə qalxıb, məsləhət almaq üçün gənc bir xanıma yaxınlaşıb sualımı verdim. Diqqətlə üzümə baxan bu qızımızı kimsəə bənzətdim və fikrə getdim. Bu zaman o, kimliyimi istədi, çıxarıb verdim, kimliyə baxanda bu gözəl xanımın üzündə qəribə bir təbəssüm sezdim o an. Dönüb mənə baxıb dedi: "Siz Çərkəzin nənəsisiniz?" "Bəli" - dedim. "Siz mənim nəvəmlə oxuyubsunuz?". "Yox, anam Çərkəzə 20 nömrəli məktəbdə tarixdən dərs deyib, tez-tez adını çəkdiyindən kimliyinizdə Sona Çərkəz görçək, yadıma düşdü". Kövrəldim, nəvəmin məktəbli olduğu illərdə görüşdüyüm sevimli İradə müəlliməsini xatırladım. Bayaqdan söhbətləşdiyim bu mehriban qız 3 saylı Bakı "Asan Xidmət" mərkəzində Ədliyyə Nazirliyinin Qeydiyyat Şöbəsinin baş mütəxəssisi Banuçiçək Füzuli qızı idi.

Məni az-çox tanıyanlar, taleyimə bələd olanlar "Füzuli" adının ağrısının mənim ürəyimdə nə boyda olduğunu bilirlər, bu gün isə illər öncə Bakı Dövlət Universitetindən tanıdığım həmkarımız, ömür-gün yoldaşım Çərkəzin də çox sevdiyi Füzuli müəllimin qızını görməyim idi. Yənı gənc yaşlarında itirdiyim qardaşım Füzuli Məmməd oğlu və bu gün Banuçiçəyin atası Füzuli Məmməd oğlunun da eyni yaşda həyatdan getmələri təsadüf idimi? Bu da məni çox kövrəltdi.

Bu qeyrətli övladın - Banuçiçəyin adının yanında atasının adını daşımağını görüb düşündüm ki, həm ot öz kökü üstə bitər, həm də valideyni uca tutmaq ananın halal südündən irəli gəlir. Banuçiçək məni çox mehriban qarşılayaraq, bunu da hiss etdirdi ki, burada, bu mərkəzdə çox böyük hörmətə sahibdir...

Elə həmin bu mərkəzdə yaşadıqlarım, gördüklərim bununla da bitmədi. Notariat ofisinin xüsusi notariusu Əliyeva Xuraman Rəfail qızı və baş mütəxəssis, böyük inspektor Rəhimova Afaq Firdovsi qızı ilə görüşüm də əbədi olaraq qəlbimə iz saldı, yaddaşıma həkk oldu.

Bir daha demək istəyirəm ki, bu qədər məsul və gərgin işlərində adlarını çəkdiyim bu xanımların insanlara sevgi ilə yanaşmaları, hər kəsə xüsusi zaman ayıraraq diqqət göstərmələri məni valeh etdi. Növbəmin nə zaman çatdığını hiss etmədən onları izləyir və düşünürdüm, budur öz peşəsinin vurğunu olmaq, budur ləyaqətlə xalqına xidmət etmək və fədakarlıq! Bu peşəkar insanlarla iş prosesində az müddətdə yaxın təmasda olmağıma baxmayaraq, onların mənə çox gözəl hisslər yaşatdıqlarına görə o an Allahın kərəminə şükür etdim.

İnsanlara yüksək xidmət göstərməkdən, yardımcı olmaqdan zövq alaraq çalışan gözəl simalı, ədəb-ərkanlı əsl Azərbaycan xanımına xas olan xüsusiyyətləri simasındaca yaşadan Xuraman xanıma və həmyerlim olan mehriban Afaq xanıma səmimi qəlbdən təşəkkürlərimi bildirir və hər birinə ayrı-ayrılıqda uzun ömür, səadət dolu mənalı həyat nəsib olmasını diləyirəm.

Bəlkə də kiməsə qəribə gələcək, amma tam səmimiyyətimlə demək istəyirəm ki, ürəyim bu təşəkkür yazısını yazmamı çox istədi və yazdım. Bu arada Allahıma minlərcə yol şükür olsun ki, az olmayan ömrümdə qarşıma hər zaman, hər yerdə yaxşıların ən yaxşısını çıxarmaqla Rəbbim təsəllendirir məni. Bundan artıq Allahdan nə pay uma bilərəm ki? Yaxşıları məndən uzaq salma, Uca Yaradan!

# Azərbaycanda rekord məbləğdə dollar satıldı

**"Bu gün keçirilən hərracda rekord məbləğdə dollar satılıb. Bankların bugünkü sifarişi 151.1 milyon dollar olub. Bütövlükdə, bu ayın ilk 13 günündə keçirilən hərraclarda 370.9 milyon dollar satılıb".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, bu gün hərracda yüksək sifariş heç də 13-ün "nəs rəqəm" hesab edilməsi ilə bağlı deyil, rekord məbləğ satışı valyuta bazarında dollara tələbin artdığını bir daha təsdiq edir.



"Valyutadəyişmə məntəqələrində manatın mövcud məzənnəsi dollara tələbin kəskin artmasından xəbər verir. Rəsmi məzənnənin stabil qalmasına baxmayaraq, aktiv valyutadəyişmə məntəqələri dolların satış deyil, alış kursunu manata nisbətən 1.70 müəyyənləşdiriblər. Neftin dünya bazar qiymətinin yüksək olmasına rəğmən, Azərbaycanın valyuta bazarında volatillik artıb.

Bununla belə, aparılan təhlillər göstərir ki, tələbin artması yalnız psixoloji faktorlar ilə bağlı deyil. Tələbin müşahidə olunmasına baxmayaraq, Mərkəzi Bankın bu məsələyə münasibət bildirməməsi də diqqəti cəlb edir. Bu dönəmdə requlator tərəfindən kommunikasiyanın gücləndirilməsi çox vacibdir".

# TƏHSİLİMİZİN PƏRVANƏSİ SƏMƏNDƏR...

*Baxça-bağlı Faxralı,*
*Gözəl dağlı Faxralı,*
*Bəxtəfərlər başına,*
*Səməndərli Faxralı!*

**Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" mukafatı laureatı, qabaqcıl təhsil işçisi və Prezident təqaüdçüsü SƏMƏNDƏR MƏMMƏDOVUN 8 fevral 2024-cü ildə 70 yaşi tamam olur. Onunla bağlı bir neşə il bundan əvvəl yazdəğım məqaləni Sizə təqdim edirəm...**

Yer üzünə zaman-zaman peyğəmbərlər gəlmiş, insanları haqqa çağırmışlar. Zaman göstərmiş ki, peyğəmbərlərin söylədikləri ideyaları xalqa çatdırmaq, öyrətmək üçün peyğəmbərlərə bənzər qeyri-adi istedada malik insanlar da olmalıdır. Onlar xalqın içindən çıxan, xalqın hörmətini qazanmış, xalqın istəyini xalqın dilində xalqa çatdırmağı bacaran insanlar olmalı idi. Öyrətmək üçün seçilmiş bu insanlara təlimləri rahat təbliğ etmələri məqsədilə ayrıca xüsusi yerlər ayırıb, binalar-məktəblər, mədrəsələr, tikmişlər. Bu insanlara böyük diqqət və qayğı göstərilmiş, tənzim edilmiş, müraciət edəndə isə hörmət və məhəbbət əlaməti olaraq adlarını "müəllim", "xoca", "ustad"... deyə çağırmışlar.

Azərbaycanın xalq şairi Zəlimxan Yaqubun fikrincə "Məktəb Məkkə, müəllim isə peyğəmbərdir". Bu qədim, çətin və şərəfli peşə-müəllimlik haqqında dünya xalqlarının sonsuz sayda bir-birinə bənzər, fərqli və dəyərli fikirləri mövcuddur. Bütün bunlara baxmayaraq yeniləşən zamanda müəllim peşəsinin fəlsəfi dərki özünə məxsus dəyər-qiymətini daha da artır və öz möhtəşəmliyi ilə zamana hökm edir. Təhsil və məktəb zamanın tələbləri ilə hər an dəyişdiyindən, yeniləşdiyindən müasir müəllimdən tələb olunan bilik və bacarıqlar sistemi də bu yeniliklərə uyğun hər saniyə durmadan uyğunlaşmağa can atır. İndi inkişaf etmış ölkələr müəllim hazırlığı məsələlərini hər bir dövlətin, daha çox hər bir millətin gələcək taleyi ilə bağlı strateji məsələsi kimi qəbul edir, ən çox yatırımları da bu sahəyə qoyurlar. Dahi Üzeyir Hacıbəyovun fikrincə söyləsək: "Müəllim millətin xeyri üçün iş görən şəxsdir". Belə şəxslər bütün dövrlərdə seçilmiş, onların adları millətin, dünya mədəniyyətinin tarixinə qızıl hərflərlə yazılıb. Bəli, qədim tarixə və mədəniyyətə malik xalqımızın düşuncəsində də müəllimlər bütün dövrlərdə harada olmalarından aslı olmayaraq uzaqdan barmaqla göstərilən, sayılıb-seçilən, işıq-nur, hörmət sahibləri olmuşlar.

Belə şəxsiyyətlərdən biri də uzun illərdir ki, yaxşı tanıdığım, bütün ömrünü müəllimliyə həsr etmiş, ağıllı, biliyi və bacarığı, cəmiyyətdə tutduğu ali mövqeyi ilə bu peşəyə şərəf gətirən, Bakı şəhəri Sabunçu rayonu 271 nömrəli tam orta məktəbin direktoru Səməndər Məmmədovdur.

Səməndər müəllimlə tanışlığımız olsa da münasibətlərimiz bir o qədər də dərin deyildi. Münasibətimizin bir-birinə daha da yaxın və səmimi olmasına Xalq şairi Zəlimxan Yaqubun böyük təsiri oldu. Ümumiyyətlə, Səməndər müəllimlə ilk tanışlıqdan yaranan təsəvvürlər Z.Yaqubun söylədiyi kimi belədir: "Ortaboylu, tökməbədənli, düz qamətli, böyük ürəkli, şair qəlbli, şirin ləhcəli...". O, danışmağa başlayanda isə istər-istəməz poetik ruhunun böyük gücü öz təsirini göstərir, səni bütün söhbət boyu özün də bilmədən ovsunlayır, əsarətə alır, yerindən qoparıb aranlı-dağlı Azərbaycanımızı, turk dünyasını ruhunu incitmədən gəzdirir və onları sevməyi Səməndər ucalığına qaldırır. Bu cazibə qüvvəsi daha da artdıqca, qəribə hallar baş verir. İllərdir yaşadığın Vətənə, insanlara, gözəlliklərə Səməndər müəllimin gözü ilə baxdıqdan sonra, onu yenidən sevib, ona yenidən vurulursan. Söz açdığı hikmətlərlə dolu, qərinələrə hökm edən xalqımızın sevə-sevə qoruyub yaşatdığı milli mənəvi dəyərlərimiz, böyük ədiblərin əmanətləri, dadlı-duzlu lətifələr, bir də özünün dilindən qopan, hikmətlər axan və incilər saçan həyat eşqli, müdrik və poetik kəlamlarıdır. Onun qəm-qüssəni dağıdan, mənəvi dünyamızı təmizləyən, şəfa gətirən işıqlı, nurlu poeziyası, idrakımıza şəfqət, könlümüzə mərhəmət və məhəbbət bəxş etməklə bizi daha da böyük edir. Yunus Əmrə kimi: "Həqq bir könül verdi bana, hə demədin heyran olur" deyən Səməndər müəllimin poeziyasının yaratdığı sehrlənmiş mənzərəsini, elm və helmlə dolu bir könül dünyasını anlamaq, təsvir etmək üçün: "Mən ruh ilə can, can mənəm mən! "... "mən bu cahanə sığmazam"deyən, İmadəddin Nəsiminin ruhuna bürünmüş dərin hikmət və sevgi dolu kəlamları dadımıza çatır, bu möcüzəyə bir aydınlıq gətirir:

*"Hər kişinin sorman əslin, izzətindən bəllidir,*
*Söhbəti-irfan görənlər xidmətindən bəllidir.*
*Həq təala elm içində çünki simahun dedi,*
*Hər kişinin üzünə bax, surətindən bəllidir."*

Səhər tezdən dərslərin başlamasına xeyli vaxtın qalmasına baxmayaraq, Səməndər müəllim məktəbin həyətində və ya dəhlizində var-gəl edərək, karvan-karvan məktəbə gələn müəllim və şagirdləri göz altından seyr edir. Fürsətdən istifadə edərək yeri gəldikcə ayaq saxlayır, kiminsə hal-əhvalını soruşur, ya tövsiyə verir, bəzən söhbət daha ciddi xarakter, bəzən də özünə məxsus gülüş dolu, insana qanad verən bir mənzərəyə çevrilir.

Məktəbin öz daxili qanunları və gözə görünməyən, hamının hiss etdiyi qarşılıqlı münasibətlər kompleksi vardır. Bu münasibətlərin düzgün qurulması, tənzimlənməsi və bunlara əməl olunması işində məktəb rəhbərinin şəxsi nümunəsi, xarakteri həlledicidir. Ümumiyyətlə hansı müəssisə olmasından aşlı olmayaraq rəhbər, daha çox da məktəb rəhbəri həmişə haqqın tərəfində olmalıdır. Səməndər müəllimə hörmət və məhəbbət qazandıran bu keyfiyyəti o, təkcə özündən, bölmə rəhbərlərindən deyil, hər kəsdən tələb edir. Onun bu tələbi məktəbi hərəkətə gətirən, bütün məsələləri-münasibətləri haqla tənzimləyən, hər kəsə inam və güvənc verən aparıcı qüvvəyə çevrilir. Hamı öz yerini və işini bilir: "Öz işini düzgün quranlara maneə yox, dəstək olmalı", "Müəllim öz ixtisasını dərindən bilməli", "Görülən iş vicdanla görülməli" -bunlar Səməndər müəllimin əsas iş prinsipləridir.




Səməndər müəllim rəhbər kimi istedadı təkcə tədris prosesinin təşkili və idarə olunması işində deyil, eyni zamanda kollektivdə sağlam pedaqoji mühitin formalaşması, bütün münasibətlərdə pedaqoji yanaşmaların üstünlüyünün qorunub saxlanması və məktəbin əsas keyfiyyət göstəricisi olan-"doğmalıq" və ya "vahid ailə" modelinin formalaşması kimi qlobal pedaqoji problemin həllində də özünü nümunə kimi göstərir. O, məktəbdə çalısan hər bir kəsə diqqət və göstərməklə yanaşı, hamıdan, burada baş verən hadisələrdən də tam halıdır. Kimin hansı işlə məşğul olması, hətta bu işin hansı etapda olması da ona bəllidir. Görülən hər bir işə lazımınca dəyər və qiymət vermək, xırdalıqlara kimi onu təhlil etmək də Səməndər müəllimin iş qaydasıdır. Məktəbin idarə olunmasında formalaşmış şəliqə-səhman, ciddi əmək intizamı, onun bir çox nailiyyətlərinin əsasıdır. Şəhər və rayon məktəbləri arasında bu məktəbin müəllim, şagird və məzunlarının qazandıqları uğurların sayı daha çoxdur. Səməndər müəllim kollektivin hər bir üzvünün uğuruna öz uğuru kimi sevinir, qüsurlarını isə öz qüsuru kimi qəbul edir, onunla nəfəs alır.

Mövcud reallıq bundan ibarətdir ki, pedaqoji ali təhsil müəssisələrinin məzunları yeni iş yerində bir sıra problemlərlə üzləşirlər. Bu baxımdan ali məktəbdən sonra gənc müəllimin düşdüyü pedaqoji kollektivdən, mühitdən çox şey asılıdır. Səməndər müəllimin rəhbərlik etdiyi bu müəssisədə gənc müəllimlərə xüsusi diqqət və qayğı göstərilir. Onlara təcrübəli müəllimlərin dəstək olması ilə yanaşı, düşdükləri kollektivə isinməkdə də xüsusi diqqət və qayğı göstərilir. Taleyin hökmü ilə mən də bir vaxt Səməndər müəllimin rəhbər olduğu məktəbdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Fizika və texnologiya" fakültəsinin "Fizika müəllimliyi" ixtisası üzrə əyani şöbəsinin IV kurs tələbələrinin təcrübəsinin təşkili və keçirilməsi işinə rəhbər oldum. Dəfələrlə gənc müəllimlərə təlim texnologiyalarının düzgün seçilməsi, nəticəyönümlü olması ilə bağlı Rabindranat Taqorun; "Təhsil, mümkün qədər, gərək insanın yediyi qidaya oxşasın. Əgər yediyiniz qida lap birinci tikəni ağzınıza alan dəqiqədən sizə ləzzətli görünürsə, mədəniz ağzınızdan da əvvəl oyanıb açılır" fikrini onun özünəməxsus tərzdə şərh etməsi və ya ilk növbədə şagirdi sevməli, bu sevgidə də sərhədli, pərdəli bir barmaq da uca olmaqla bağlı öz təcrübəsini bölüşdüyünün şahidi olmuşam. Xüsusi vurğularla müəllimin ən böyük vəzifəsinin Vətənin, Millətin və Dövlətin gələcəyi naminə onu sevən vətəndaşlar tərbiyə etmək və bu işdə əsl müəllim, əsl ziyalı kimi şəxsi nümunə göstərməsinin əsas şərt olduğunun xatırlatdığını dəfələrlə görmüşəm. Səməndər müəllimin dediklərindən-" Vətən sevgisi iki cür olur, birisi ailədən, kökdən, nəsildən miras olaraq qanla gəlir, digəri isə Vətənə olan sonsuz sevgi və məhəbbətin şüurlu dərkinin bəhrəsi kimi, ilahi sevgiyə yüksəliş yolunda mükəmməl bir məqam olaraq üzə çıxır. İkincisi daha əzəmətli olur, bizim müqəddəs borcumuz bunu tərbiyə etməkdir."

Səməndər müəllimə görə məktəb şagirdlərin təkcə təsil aldıqıqları, ictimai fəaliyyəti göstərdikləri yer deyil, ilk öncə onların əsas ailəsi olmalıdır. İllərin təcrübəsi göstərir ki, şagirdlər məktəbə gələndə təkcə təhsil almaq üçün gəlmirlər. Eyni zamanda özünün, ailəsinin sosial-psixoloji durumu ilə bağlı cavab tapa bilmədikləri bir çox suallara da aydınlıq gətirmək, cavab almaq üçün onları da özləri ilə məktəbə gətirirlər. Onlar bu problemləri hər gün məktəbə daşısalar da, bəzən illərlə cəsarətləri çatıb dillərinə belə gətirə bilmirlər. Vaxtında cavab tapmayan bu suallar illər keçdikcə ağır yükə çevrilərək onları əyir, sındırır, sonrakı talelərində öz mənfi təsirini göstərir. Bu baxımdan Səməndər müəllimin illərlə qazandırdığı təcrübəsindən, diqqət və qayğıkeş baxışlarından, şair qəlbinin hərarətindən heç bir şagird və ya müəllim yan keçə biməz. Onun hər kəsin gözlərinə baxıb ürəyindən keçəni oxumaq bacarığı, hər bir şagird və müəllimin iç dünyasının rahatlıq tapmasında bir məlhəmə, işığa çevrilir. Səməndər müəllim deyir ki, hər bir şagirdi şəxsən tanımaq, yeri gələndə onunla əsl doğması kimi səmimi hal-əhval tutmaq, müəllim qayğısı-nəvazişi göstərmək, humanist xarakterli müəllimlərə mənsub olan müsbət insani dəyərlər olmaqla yanaşı, həm də şagirdlərin həyata və insanlara baxışını, özünə və Allaha inamın köklü surətdə dəyişməsinə güclü təsir göstərən pedaqoji təlim texnologiyalarından biridir.

Bu gün pedaqogika elminin cavab axtardığı suallardan ən önəmlisi "Müasir müəllim necə olmalıdır?" sualıdır. Bununla bağlı dünyada çoxlu sayda bir-birinə bənzər və fərqli modellər vardır. Təəssüflə qeyd etməliyik ki, müasir müəllimdə görmək istədiyimiz dəyərlərin çoxunun onun fərdi keyfiyyətləri ilə bağlı olduğu üçün bu modellərin heç biri tam tətbiqini tapa bilmir, özünü doğrultmur. Təcrübə göstərir ki, müəllim üçün vacib olan bilik-bacarıqlar sistemi hər zaman həll edici rol oynamır, daha önəmli olanı onun fərdi-Allah-təalanın bəxş etdiyi keyfiyyətləridir. Bu baxımdan Böyük yaradan öz ruhundan Səməndər müəllimə verdiyi insani gözəllikləri əsirgəməmiş, bol və mükəmməl verərək onu şərəfləndirmişdir.

Səməndər müəllim tərbiyədə çətinliklə başa düşülən, həll olunan bir çox məsələni mahir ustalıqla, anlaşılan bir dildə şərh etmə qabiliyyətinə malikdir. Bu metod təcrübədə sınaqdan çıxmış və ən geniş yayılmış metodlardan birisidir. Burada şagird və müəllim arasında münasibət sünilikdən uzaq olmaqla, daha böyük təsir gücünə malik olan səmimiyyətə çevrilir. Vaxtilə yunan filosofu Platon da tələbələri ilə öz apalarında yaranmış səmimi və təbii münasibətə daha çox üstünlük vermişdir. Onun bu təcrübəsi pedaqogika elmində "Platon məhəbbəti" adı ilə əbədiləşmişdir.

Səməndər müəllim bəzi məktəb rəhbərləri kimi, istər uşaqlara, istərsə də müəllimlərə ümumi baxmır, "hamınızı eyni dərəcədə sevirəm" demir, kimi nəyə görə sevdiyini tam dəqiqliklə deməklə, qarşılıqlı münasibətlərin düzgün qurulması və inkişafına aydınlıq gətirir. Səməndər müəllimlə olan söhbətdən sonra istər şagird, istərsə də müəllim özündə yeni bir güc, cəsarət və ideya tapır, yaxşı mənada çevrilib başqa bir adam olur. Bu baxımdan arxada qalan ilin bəhrələri hər yerdə onu-Səməndər müəllimi sevinclə, sevgilərlə qarşılayır, hər kəs "kiçicik bir xatirənin-hadisənin" onun taleyində həlledici, yadda qalan həyat və ustad dərsi olması barədə öz nağılını kövrəkliklə və minnətdarlıqla özünə danışırlar. Belə anlarda həm öz peşəsi ilə fəxr eyləyən, bir az da kövrələn Səməndər müəllim qürrələnərək yazır:

*"Müəllim şərəfini qoruyub saxlar*
*Dəniz tək çağlayar, bulaq tək çağlar...*
*...Ondakı bu eşqə, həvəsə bir bax*
*Vətənə nur yayan çıraqdır, çıraq..."*

İnsan həyatının mənası onun hansı məqsədə xidmət etməsi ilə müəyyənləşir. Bəli, Vətənə nur yayan bu çırağın-Səməndər müəllimin bircə məqsədi var, şagirdləri həyatda gərəkli və dəyərli insanlar olsunlar. O hamıya sübut etməyə, öyrətməyə çalışır ki, Vətənin ön sərhədi məktəbdən başlayır, millət və dövlətin mənəviyyat əsgəri olan müəllim ön cərgədə möhkəm dayanmalıdır, məktəb sabahımız olmaqla yanaşı, bu günümüzün də aynasıdır.

Millətin milli mənəvi dəyərlərinə və tarixinə varis çıxmağı bacaran rəhbər işçi, ona qismət olmuş fürsəti lazımınca dəyər verməli, milli ruhun inkişafına yardımçı olan incə mətləbləri daima gündəmdə saxlamağı bacarmalı, onun daşıyıcısı olan ziyalılara qayğı göstərməlidir. Bakı şəhər Sabunçu rayonunun İcra başçısı Adil Vəliyevin bacarıqlı, qabaqcıl, təşəbbüskar və yenilikçi bir rəhbər olması respublikamızda hamıya bəllidir. Bir də onu rəhbər kimi insanlara daha çox sevdirən, hamının duyduğu səviyyədə sadə və səmimi olması ilə yanaşı, çoxundan fərqli olaraq milli ruhun üstün daşıyıcısı, həm də onun təəssübkeşi olmasıdır. Səməndər müəllimin istedadlı və millət sevdalı ziyalı olmasını duyan və buna dəyər verən Adil müəllim, rayonda keçirilən tədbirlərin daha da təbii alınması üçün mütləq ona söz verir... Səməndər müəllim də öz növbəsində ona göstərilən bu etimadı əsl müəllim-ziyalı kimi qəbul edir. Uca dağların ətəkləri belə təpələrin zirvəsindən daha uca göründüyü kimi, Səməndər müəllimin hər çıxışı, kiçicik bir cümləsi də böyük sevgilərin fəlsəfəsinə bürünərək həmişə olduğu kimi ətirli, dadlı-duzlu, dahiyanə olur. Hamını Dövlətimizin inkişafına xidmət göstərməyə və Milli mücahiddə bir bayraq altında birləşməyə səsləyərək, elmi dəyərlərə söykənən işıqlı fikirləri ilə hər kəsin qəlbində bu sevgilərin çiçəklənməsi üçün bir bahar abı - havası yaradır.

Səməndər müəllimi digər müəllimlərdən fərqli bir cəhəti də onun yaradıcıdolu adam, ruhumuzu oxşayan söz sahibi olmasıdır. Onun Vətən, torpaq, çiçək ətirli hər bir fikri şeirə çevrilərək bahar qızı kimi min bir donda çölə-çəmənə səpələnərək, min bir rəngli çiçəklər kimi göz və könülləri oxşar, hər kəsin qəlbinə bayramsayağı sevinc bəxş edər. Onun ürfan əhli müəllim-şairliyinə sübut, yaradıcılığı və əməllərində Allah eşqinə, Vətənə, millətə və Azərbaycan dövlətinə olan ilahi sevgilərinin böyük, söz-söhbətinin isə dillər əzbəri, aşıqların dilində olmasıdır. Bu məqamda maraqlı bir sual meydana çıxır, görən Səməndər müəllimdə haradandır bu güc? Cavab çox gecikmir, öz şerləri əsl ünvana çevrilib, bu sirrin gizləndiyi məkana aparır.

***Axa-axa durulmuşam,***
***Qucağında özüm, dağlar.***
***Çeşmən üstə diz çökmüşəm,***
***Güc alıbdı dizim, dağlar.***

Güc aldığı torpaqla qürrələnən Səməndər müəllim, "Faxralı tək ağır elim var mənim", "Od tutub odunda yanım, Faxralı" deyərək onu canından əziz, dilimanı bilir. Zaman-zaman Türk, eləcə də Azərbaycan, Gürcüstan Respublikalarının tarix və mədəniyyətinə görkəmli şəxslər bəxş etmiş, Ulu Borçalıda ağır bir el hesab olunan Faxralıya oğul məhəbbətini bildirərək onun şərəfinə qoşmalar qoşub, dastanlar yazır:

***Vurğun könlüm pərvanədir başında,***
***Canımdan da əziz canım, Faxralı.***
***Həyatım, varlığım, zövqüm, kamalım,***
***Səcdəgahım, din-imanım Faxralı.***

Göz açıb, ayaq tutub yeridikcə, bu torpağı gəzdikcə, onun hər qarışının tarix, bu torpaqda şərəflə ömür sürənlərlə bağlı xatirələrlə dolu canlı və sirli kitab olduğunu bilən Səməndər müəllim, ona qucaq açan bu yerlərin hər künc-bucağı ilə "Anası kimi", "Vətən kimi" bayatı dilində danışır:

***Göy qaya,***
***Hər yanı gömgöy qaya.***
***Yağılara dirsəkdi,***
***El-elata öy qaya.***

***Qarabulaqdı,***
***Dərdə çara bulaqdı.***
***Gözəllərə seyrangah,***
***İgidlərə oylaqdı.***

***Kəmər qaya,***
***Buludu əmər qaya.***
***Mehribandı insana,***
***Söz desən, dinər qaya.***

***Boz qılıcdı,***
***Əhdinə düz qılıcdı.***
***Nakəsə bu torpağın,***
***Hər sözü bir qılıncdı.***

Hər bir qələm əhlinin yaşam fəlsəfəsini özündə əks etdirən dahiyanə poetik fikirləri vardır. Məsələn, xalq şairi Məmməd Araz: "Bir xatirəm köçəcəkmi xatirələrə? Min xatirə köçəcəkdir mənimlə, əfsus!" və ya xalq şairi Zəlimxan Yaqub: "Ölərəmmi, məni duysan mən kimi, Bir ömür də borc alaram fələkdən!" deyərək bu həyatla bağlı istəklərini bildirmişlər. Milli ədəbiyyatımızın həm dərin bilicisi, həm də onun vurğunu və təbliğatçısı olan Səməndər müəllim də ustadları kimi bu məsələyə:

"Səməndər, dünyanın nuru insandır, Mən insan ömrünü bahar istərəm" deyə dünyanın bir çox ədibləri-romantikləri kimi insan ömrünü həmişə bahar görmək istəyir. Bu dahiyanə arzular, fikirlər onun iç dünyasının, həyat eşqinin nə qədər gözəl, möhtəşəm və humanist olmasına bir işarədir.

Sokrat söyləyir ki, poeziya sirdir, ovsundur, hər kəsə qəlbini açmır. Qəlbini Səməndər müəllimə geniş açan bu sirli -ovsunlu poeziya dünyasını nə gəzməklə doymaq olur, nə də onun ovsunundan qurtulmaq. Nəfəsini dərib sakitcə qərar qəbul etmək istəyirsən, görən kimdir bu Səməndər? Fikirləşincə xəyal-fikir dünyası ağuşuna alıb məni özümdən qoparır, fikirlərim dünyanı dolaşır, bir-birinə qarışır.. .heç nə fikirləşə bilmirəm, sükut hökm edir...

**Yuxuda doğma bir səs, nurlu bir sima dadıma çatır... hər ikimizin könül Sultanı, Azərbaycanın xalq şairi Zəlimxan Yaqub: "Təhsilimizin, maarifimizin, seirimizin, sazımızın, sözümüzün səməndəri, pərvanəsi qardaşım."**

**VİDADİ ÖMƏR OĞLU ORUCOV**
**Pedaqogika üzrə elmlər doktoru**



Nurlanə Məmmədova,
Filologiya elmləri üzrə fəlsəfə doktoru

# Avtobioqrafik məqamlar, yoxsa Vətən sevgisi

## "Ulu Heydərimin yurdu Naxçıvan!": - ASİM YADİGAR

**Tarixin istənilən dövrlərində Naxçıvan ədəbi mühiti Azərbaycan ədəbiyyatının formalaşmasında mühüm rol oynamışdır. Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Məmməd Araz ədəbi irsinin ədəbiyyatımızda yeri danılmazdır. Müasir dövrdə də bu tendensiya davam etməkdədir. Çağdaş ədəbi prosesə nəzər yetirdikdə Naxçıvan ədəbi mühitinin yetirməsi olan Naxçıvan Yazıçılar Birliyinin sədri Asim Yadigarın fəaliyyəti seçilməkdədir. Onun yaradıcılığı mövzu baxımından zəngindir. Bu rəngarənglik içərisində vətən həsrəti, sevgi lirikası, təbiətin ecazkar tərənnümü, mənəvi-əxlaqi motivlər, cəmiyyətdə baş verən hadisələrə müəllif yanaşması diqqəti cəlb etməkdədir. Şəxsi hisslərin və avtobioqrafik məqamların yer aldığı bədii nümunələrdə də müəllifin vətən sevgisi və yurda bağlılığı ön plandadır. O, avtobioqrafik şeirlərinin bir hissəsində qəlbinin həssas nöqtələrini göstərən duyğularını, bir hissəsində isə həyatının və fəaliyyətinin əsas məqamlarını qələmə almışdır. "İlk xitabət kürsüm" şeirində "Şərurun səsi" qəzetindən başlayan yaradıcılıq yolunu həyata ilk qədəmlərini atan uşağın səsinə bənzədir. Dil açan körpənin "ana" sözü ilə mətbuatda çap olunan "Ana" şeiri arasında əlaqələndirmə aparılması və bunun şeirə köçürülməsi uğurlu bir təşbehdir:**

*Ən uca kürsülərdən şeir oxusam belə,*
*Hərdən dönüb gəldiyim cığırlara baxıram.*
*Hər nə qazanmışamsa şair kimi həyatda,*
*İlk xitabət kürsümün sinəsinə taxıram.*

Bədii yaradıcılıq insan duyğuları üzərində qurulan, bu hissləri müəllif təxəyyülünün nəticəsi olaraq oxucuya çatdıran, mövcud fikirlərə yeni düşüncə müstəvisindən yanaşan qabiliyyətdir. Poeziyada bu hisslər müəyyən ölçü və qəlib çərçivəsində tərənnüm olunur ki, bu da yaradıcılıq istedadı tələb edir. Asim Yadigar da poeziyanın tələblərinə cavab verərək dövrünün tanınmış şəxsiyyətlərinə və yaradıcı irsin nümayəndələrinə sevgisini poetik dilin vasitəsilə dolğun şəkildə ifadə edə bilmişdir. Bu şeirlər tarixi şəxsiyyətlərə rəğbət və hörmətdən yaranmışdır.

Şair Məmməd Araz, Bəxtiyar Vahabzadə, Əli Kərim poeziyasının zirvə əsərlərindən ilhamlanaraq nəzirə yazmışdır. Bu yaradıcı şəxsiyyətlərin şeirinin təsir gücü müəllifin şeir dünyasını şəkilləndirmiş, yeni orijinal əsərlər ortaya gəlmişdir. Asim Yadigar "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" deyən Məmməd Araza üzünü tutaraq, vətənin həsrətinə dözə bilməyib daşlaşmış insanlar kimi yaşamağı öyrətməyi sevimli şairindən tələb edir:

*Şeirini güllə kimi tuşla yağılarına,*
*Sözünü məlhəm eylə yurdun ağrılarına,*
*İçini dərd qovurur, su səp yanğılarına,*
*Övundur bu milləti, kirit, a Məmməd Araz.*

Bəxtiyar Vahabzadənin "Bir salama dəymədi" şeiri ilə Asim Yadigarın "Salam" şeiri arasında bağlılıq unudulmayan eşqin zamanın sınağından necə keçməsi ilə əlaqədardır. Hər iki şairin sevdiyinə ünvanlanan suallarının fonunda gənclik məhəbbətinin həsrəti tərənnüm olunur. Bəxtiyar Vahabzadə "Bir salama dəyməyən eşqə ölüm yaraşır" deyirsə, Asim Yadigar şeirini belə yekunlaşdırır:

*"Salam" - dedin, salamın yaman gecikdi, gülüm,*
*Sən anasan, mən ata... Qəlbim incikdi, gülüm.*
*Gecikmiş salamını aldım qəlbimdə təşviş,*
*Nə yaxşı ki, bu sevgim bir salama dəyirmiş!*

Əli Kərimin nankor oğuldan təkidlə istədiyi ana borcu Asim Yadigarın şeirində başqa şəkildə təzahür etmişdir. Ali məktəbə daxil olan oğlun anadan üz çevirməsi, oğlun ananın həsrətinə etinasız yanaşması, ananın oğluna məktub yazması mövzu baxımından eyni olsa da, Asim Yadigar Əli Kərim şeirindən fərqlənən təsirli səhnələrlə bədii nümunə ortaya qoyur. Asim Yadigar şeir daxilində ana ilə oğlu qarşılaşdırır, onların dialoqunu tərənnüm edir. Əli Kərimin oğlundan bir xəbər çıxmırsa, Asim Yadigarın oğlu anası öldükdən sonra geri qayıdır. Əli Kərim "Qaytar ana borcunu, o borc sənin özünsən, özünü qaytar geri" deyərək oğlu düzgün yola çağırırsa, Asim Yadigar oğulun qəlbində ana sevgisi oyadır. Son nəticədə, şair belə bir fikri təbliğ edir ki, bir övlad olaraq valideynlərimizin sağlığında onlara diqqət və qayğı ilə yanaşmalıyıq:



*Bilirdim gələcəksən dostların görüşünə,*
*Demişdim bu məktubu qonşular versin sənə...*
*Son dəfə gözlərindən öpürəm, oğul, sənin,*
*Sözüm güldür, başına səpirəm, oğul, sənin.*
*Oğul necə gəlmişsə elə qayıtdı geri,*
*Ürəyinin başında yanıq yeri, köz yeri.*

Şairin yaradıcılığında "mən" anlayışı ilk əvvəl diqqəti cəlb etsə də, bu məfhumun içərisində müəllifin hiss və həyəcanlarından əlavə cəmiyyət hadisələrinə açıq münasibəti, ifşa və tənqid hədəfi ifadə olunmaqdadır. Onun poeziya aləmi düşüncə müstəvisinin dərinliyi ilə səciyyələnməkdədir. Şairin "mən" anlayışının arxasında həyatının vacib tarixlərinin yer aldığı şeirlərlə yanaşı, vətən, xalq sevgisini, Qarabağ, Təbriz həsrətini, sevən qəlbin fəryadını görmək mümkündür. Deməli, birinci şəxsin dilindən ifadə olunmasının arxasında şəxsi istəklər deyil, xəlqi mahiyyət daşıyan amillər dayanır. "Ulu Heydərimin yurdu Naxçıvan" deyən şair bütöv Azərbaycan ideyasının təbliğatçısı kimi çıxış edir:

*Alışdım bu yerdə odsuz-alovsuz,*
*Qəlbimin Araztək axdı al qanı*
*Bu yerdən baxanda bütöv görürdüm,*
*İkiyə bölünmüş Azərbaycanı.*

*("Araz sahilində düşüncələr")*

*Para - para bölünübdür Vətənim,*
*Parasının parasına baxın bir.*
*Qan süzürəm yüz illərdir torpağa,*
*Ürəyimin yarasına baxın bir.*

*("Baxın bir")*

Asim Yadigarın tənqid hədəfləri və təsir dairəsinin gücünü nəzərə alaraq deyə bilərik ki, ədəbi düşüncə cəmiyyət hadisələrinə biganə deyildir.

Vətəndaşlıq mövqeyindən yanaşaraq həyatdakı çatışmazlıqları satirik poeziya müstəvisindən dəyərləndirmək bacarığı şairin yaradıcılığının əsasını təşkil edir. Dövlət orqanlarında öz vəzifələrinə arxalanıb rüşvət alan, xalqın taleyinə laqeyd olan, millətin gələcəyini öz şəxsi mənafeyinə satan məmurlar onun tənqid atəşindən kənar qalmamışdır. Bu cəhətdən onu "Vətəndaş şair" adlandırmaq olar:

***Nədənsə vəzifə kürsülərində***
***Gur çıxır allahın sözü, səsi də,***
***Özü, qohumları hələ bir yana,***
***Allahlıq eyləyir katibəsi də.***
***Çoxu vəzifədə allahdır bu gün,***
***Asar da, kəsər də - ha də, ha çığır.***
***O qədər allahlar görürəm, vallah,***
***Allahın özü də yadımdan çıxır.***

Xalqın canına hopmuş qorxunun səbəblərini aydınlaşdırmağa çalışan şairi bir sual maraqlandırır: "Ölümdən qorxmuruqsa, onda nədən qorxuruq?!". Allahlıq iddiasında olan, insanlığını itirən müqəvva adamların sayının çox olduğu bir mühitdə bu sual cavabsız olaraq qalacaqdır. Belə insanların əksi olan xeyirxah insanları gördükdə isə şair qəlbi sevinir, ona yaxşılıq edən, həyatının sınaqlarından uğurla çıxmasına köməklik göstərən insanlara minnətdarlığını bildirir. Akademik İsa Həbibbəyliyə həsr olunan "Yaxşılar" şeiri buna sübutdur.

Nağılla başlayan həyatında öz qələmi, öz sözü ilə iz qoymağı arzulayan şairin yaradıcılığı da nağıllar aləminə bir səyahəti xatırladır. Bu səyahətdə şairin ürək ağrılarını, sevinc göz yaşlarını, qəlbinin sirli məqamlarını görmək mümkündür. Asim Yadigar "O mənim ürəyim deyil" şeirində "ürəyində heç nə yoxdur" deyən həkimə müraciətində qəlbinin ağrılarını, Vətən sevgisini ifadə etmişdir:

***Həkim, o ürəyi sən bir də yoxla,***
***Çatlamış torpaqtək olmalıydı o.***
***Ağrıdan, acıdan şələ bağlayıb***
***Yanıqlı muğamat çalmalıydı o.***

Onun şeirlərinin bir qismində müraciət hədəfi nəvələridir. Dostluqda vəfalı olmağı, insanlara yaxşılıq etməyi nəvələrinə məsləhət görən şairin şeirləri vəsiyyət xarakteri daşıyır. Bu öyüd-nəsihətlərin təsviri fonunda Təbriz həsrəti, vətən məhəbbəti aydın hiss olunmaqdadır. Təbriz həsrətinə son qoyan şairin əsas arzusu nəvələri ilə Şuşaya getmək idi. Vaxtilə Şuşa dərdi ilə incinən şair qəlbi müasir dövrdə vətən torpağının işğaldan azad olunması nəticəsində öz rahatlığını tapmışdır:

***Bir arzum var ürəyimdə***
***Bir gün nəvələrimlə***
***əl-ələ tutub***
***Şuşanı gəzə biləydim.***
***Ürəyimi üzən dərdin***
***Özünü üzə biləydim.***
***Onda ürəyimdə qalmazdı***
***Bir nisgilim, bir dərdim.***

Nəticədə, Asim Yadigarın kədəri də, sevinci də şəxsi motivlərdən uzaqlaşıb milli zəminə köklənir. Onun yaradıcılığının ana xəttini təşkil edən əsas mövzu aşağıdakı şeirdə öz əksini dolğunluğu ilə tapmışdır:

*Vətəndir dünyada hər şeydən əzəl,*
*İlk sevgim, son sevgim bu yurd, bu torpaq.*
*Məndən inciməsin sevdiyim gözəl,*
*Vətəni sevmişəm mən ondan qabaq.*

Bu poeziyanın sehrində vətəni sevməyə çağırış motivi güclüdür. Asim Yadigar Azərbaycan poeziyasında Vətən və sevgi anlayışlarını birləşdirən şairlərdəndir. "Vətən şairi" və "Vətəndaş şair" anlayışlarını öz şəxsiyyətində cəmləşdirən Asim Yadigarın şəxsi hisslərinin mayasında xalqa məhəbbət dayanır.

"Çox yaşamaq istəmirəm" deyən şairin ömür yolu 70-ci pilləsindədir. Nəvələrinin gözündə həmişə şux qalmaq arzusunda olan Asim Yadigarın həyat kitabının yeni səhifələrində də qələminin eyni həvəslə cəmiyyət problemlərini işıqlandırmağa davam edəcəyini yəqinliklə deyə bilərik.

---

Eminquey

# Adəm adam olacaq?

**Tiktok-da ata-bala var, canlı yayım açırlar.**

**İndi bu yazını oxuyan həmin ata-balanın fanatları o dəqiqə dodaqlarının altında "həə, Adəm, Adəmi deyir" deyə qımışırlar.**

**Bu ata-balanı canlı yayımda hədiyyələr atıb, pul tökub min oyundan çıxarır insanlarımız.**

**Hədiyyələr atılır, bala söyüş söyür, cibə pul gəlir, ata qımışır.**

**Hədiyyələr atılır, bala söyüş söyür, cibə pul gəlir, ata qımışır.**

**İndi bu Adəmlə atası barədə DİN tədbir görüb. Yəqin ki profilaktik söhbətlər olacaq. Sonra isə seyrə davam.**

**Mən düşünmürəm ki, ailə tərbiyəsi bu səviyyədə olan, övladına tərbiyə verə bilməyən, üstəgəl, bu tərbiyəsizliyi hamıya nümayiş edən bir ata DİN-in tədbirindən bir nəticə götürsün.**

**Bir dəqiqə dayanın e,..**

**Ümumiyyətlə, günahın hamısı Adəmdədir. Balaca Adəmi demirəm, Adəm babamızı deyirəm.**

---

## "Qayıdandan sonra özlərinə həci və həcixanım dedizdirəcəklərsə..."



**"Həccə getməyin qiyməti açıqlandı. Ən ucuz paket 5850 ABŞ dolları, yəni 10 min AZN təşkil edir".**

Adalet.az xəbər verir ki, ilahiyyatçı Elşad Miri Həcc ziyarətilə bağlı fikirlərini bölüşüb.

"Bu qiymətə həcc ərəfəsində qidalanmaq, ehramlar, kəsəcəyiniz qurbanlar daxil deyil. Nəzərə alın. Bodruma, Pattayaya, Havaiyə, Maldivlərə gedənlərə heç kim heç nə deyə bilməyəcəyi kimi həccə gedənlərə də, mən də daxil olmaqla qarışmaq ixtiyarımız yoxdu. Hər nə qədər həcdən başqa adlarını yazdığım digər yerlərə gedənlər bunu dinin əmri kimi qəbul etməsə də, qarışa bilmərik.

Özləri bilər. Kim gedib şeytan daşlayacaqsa, bunu da özləri bilər (hələ də öldürə bilməyiblər). Kim gedib lüt bədənə iki dəsmal bağlayıb bunu ehram adlandıracaqsa, tikili heç nə geyinməyəcəksə, bunu da özləri bilər. Qayıdandan sonra özlərinə həci və həcixanım dedizdirəcəklərsə, bunu da özləri bilər yox, özləri bilir. Özüm neçə dəfə getmişəmsə, başqalarının getməyinə niyə qarışıram axı.`

**Emin**

---

## *Ermənilərin həzm edə bilmədiyi 7-ci sinif tarix dərsliyi: Nazirə qarşı aksiya*

**Xəbər verdiyimiz kimi, Ermənistanın təhsil sistemində qalmaqala səbəb olan hadisə aylardır davam edir və bu gün ermənilər yenidən aksiyaya başlayıblar.**

Adalet.az xəbər veri ki, ermənilər Ermənistan təhsil, mədəniyyət, idman və elm nazirliyinə qarşı növbəti etiraz aksiyasına çıxıblar. Aksiya iştirakçıları nazir Janna Andreasyanın istefasını tələb edirlər. Aksiyalara səbəb 7-ci sinif "Ermənistan tarixi" fənni dərsliyindən Qarabağın ermənilərə məxsus olduğunu bildirən səhifələrin dərslikdən çıxarılmasıdır. Ermənilər həmin dərsliyin ləğv edilməsinə yönəlib. Ermənistan təhsil, mədəniyyət, idman və elm nazirliyindən bunu tələb edir və bir neçə aydır narazılıqları qulaqardına vuran nazir Janna Andreasyanın istefasını bu səbəbdən tələb edirlər.

Qeyd edək ki, tarixçi Smbat Hovhannisyan şagirdlər üçün tərtib etdiyi 7-ci sinif tarix kitabının bəzi paraqraflarında erməni təxəyyül məhsullarını deyil, gerçək tarixi qeyd edib.Bu nüansda təxəyyül, xəyalqurma xəstəliyindən əziyyət çəkən ermənilərə ağır təsir edib.

Bundan əvvəl də Ermənistanda tədris edilən 7-ci sinif tarix kitabında Qarabağın Azərbaycan ərazisi kimi göstərilməsi etirazla qarşılanmışdı.

Xatırladaq ki, Ermənistan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, tarix elmləri namizədi Ruslan Tsakanyanı kitaba salınmamış Ağrı dağı ağrıdıb. Bu səbəbdən də o dərslikdə Ağrı dağının təsviri olmamasına sərt reaksiya verib:"Hazırki Ermənistan Böyük Ermənistanın, Kilikiyanın daxil olmaqla ayrılmaz hissəsidir. İndiki Ermənistan Respublikası isə həmin hissənin mənəvi və maddi mədəniyyətinin varisidir".

**O, dərsliklərdən "mühüm tarixi fakt"ların silinməsini dövlət sifarişi olduğunu bildirmişdi.**

**Əntiqə**



Azad Müzəffərli

# Sevgi fəlsəfəsinin xiridarı

**Ömrünün müdriklik çağında Əbülfət Mədətoğlu 65 illik yubileyi münasibətilə "Yoruldum ahları körpü etməkdən" adlı növbəti kitabını oxucularına ərməğan edib. Kitabın redaktoru, "Yeni səs" saytının baş redaktoru Fəridə xanım Rəhimlinin də xüsusi vurğuladığı kimi pensiya yaşını - 65-i haqlasa da, hələ də xəyali Leylisini aramaqda davam edən şair çətinki Məcnun libasına "əlvida" deyə. Təbii ki, Əbülfət Mədətoğlu yaradıcılığına yaxından bələd olanların hər biri də bunu şəksiz təsdiqləyər...**

***Gün yaşayır sələmiylə Əbülfət***
***Dəftəriylə, qələmiylə Əbülfət...***
***Sevgi adlı aləmiylə Əbülfət -***
***Yol ölçdüyü bu dünyada iz qalır...***

Bəli, şairin başlıca məramı yenə əvvəlki təkindir, sözü o Qadınadır. Yaradıcılığı yaşananların piçıltılarıdır, Tanrının ən böyük mətləbinə söykənir. Onun şeirlərinin bədii-estetik dəyəri özünəməxsusdur. Bütün yaradıcılığının mayası ulu Yaradanın mükəmməl eşq fəlsəfəsindən yoğrulub. Emosional qat səni bağrına basır, kədər okeanının ağuşuna düşürsən. Şair hər bir kəsi sevgi nəğmələrinə qovuşdurur. Onun nəzmindən həm dünən, həm də bu gün boy verir, klassika ilə müasirlik vəhdətdədir. Plagiatlıq Əbülfət Mədətoğlu yaradıcılığına yaddır, onun buna qətiyyən ehtiyacı yoxdur, hər kəlməsi, hər bəndi içdəngəlmədir.

***Mənim ürəyimin baharı Sənsən,***
***Qışı tənhalıqdı, bir də ki, ahdı...***
***Mənim varlığımın hər anı Sənsən -***
***Sənsizəm söyləmək böyük günahdı!***

Bəlkə də, tək-tük qələm əhlindəndir ki, yaşantılarına sığal çəkmir, bütün səmimiyyətilə, incəliklərinə qədər bölüşür. O, sevgi dünyasına gah ən uca zirvələrdən boylanır, gah da buludlarla qoşalaşıb kirpiklərini pərçimləyərək saf bulağa çevrilir, qananlara eşq şərbəti daddırır. Onun yaradıcılığı eyni zamanda bir növ qabaqkı aşıq toylarını andırır, dilimizin bütün incəliklərini ortalığa qoyur, ana dilimizlə bağırbadaş olursan. Şeirlərindəki Qarabağ ləhcəsinin zərləri də səni özünə çəkir. Beləcə, onun sözlə, sözün də onunla bu qədər doğmalığına həsəd aparırsan. Azərbaycan türkcəsindən bədii xalılar sıralayır. O, kəlamlar xiridarıdır. Dədə Qorqud ruhu onun yaradıcılığı və sevgi dastanının mayasındadır.

Əbülfət Mədətoğlu ulu Qarabagda, füsunkar Tuğda ağlı kəsəndən aldığı dərsləri eynilə şeirlərinə hopdurur. Məhz ona görə də onun yaradıcılığı ulu təbiət qədər hər birimizə doğmadır.

Şairin başlıca mətləbi Tanrı fəlsəfəsinin sevgi üzərində bərqərar olmasından qaynaqlanır, hayqırtısının məramı da elə budur. Əbülfət Mədətoğlu yaradıcılığının diqqətçəkən özəlliklərindən biri onun hər gün qələmə sarılması ilə bağlıdır. Şübhən qalmır ki, demək olar heç yatmır da, gecələr onun şeirlərinin möhtəşəm körpüləridir. Əksər şeirlərinin mayası elə yuxudaykən yoğrulur. Ömür yoluna yaşıl işıq yandıran, bəzən "gözlə", bəzən də "dur" deyən sevgi işıqforu onun eşq tonqalına kösövü kösöv dalınca tolazlayaraq gur alovunu öləziməyə qoymur. Onun çəkdiyi sevgi yükünə tab gətirmək hər oğulun işi deyil...

***Ağ vərəqdə əlim hər an gül əkdi,***
***Nəfəsim də tel oxşayan küləkdi...***
***Gül içində bəyəndiyim gül təkdi -***
***Allah təkdi, Sevgim təkdi, Sən də tək!***

Onun ruhunun yerdəmi, göydəmi olduğunu ayırd eləmək müşkül məsələdir, axı, bunu əslində heç o, özü də bilmir. Daxili piçıltıları səngimir.

Şeirlərindən göründüyü kimi Tanrı onun ustadı, müqəddəs ağsaqqalıdır...

**Əl açan saysızdı, dinləyən Sən - Tək!**
**Başqa ümid yoxdu, varlığa Səntək!**
**Allahım, Allahlıq yükünü Sən çək -**
**Mən də bəndə qalım Sənə alqışla!**

Hərdən adama elə gəlir ki, deyəsən, əlinə aldığı da elə o uca Varlıqdan izn lə "çırpışdırdığı" qələmdir. Yaradıcılığından Tanrı fəlsəfəsi əskilməz. İnanıram ki, ulu Füzuli Məcnun və Leyliyə can da verə bilsəydi(əslində, elə sözlə onları canlı eləyib), onların Əbülfət Mədətoğlunun ən sadiq oxucuları sırasında öncüllərdən olacaqlarına qətiyyən şübhəm yoxdur. Az-çox sözə yaxından bağlı kəs kimi bunu da mən xüsusi vurğulayıram.

O, həyata sevgidən boylanan kəslərdəndir. Şeirlərində vurğuladığı kimi, eşq dini və qibləsidir. Yaradıcılığı sevgi dualarıdır. Yozumları səngimir. Poeziyasında çox vaxt Xəzərin dalğaları tək çağlayır. Təkliklə əlbəəldir, birgə addımlayırlar. Ahları tükənməz. O, könrələndə buludlar da ona qoşulur. Gah eşqin piyadası, gah da atlısı olur, var gücü ilə çapır. Bəlkə də, məhdud şairlərdəndir ki, qələmə aldıqlarının hər birində mütləq nəsə var. Hər gün yazmağı qismən də olsa ovunmaq üçündür. O, sevgini, sevgi də onu körükləndikcə, qələm dilə gəlir, nalə yağdırır, bir-birindən üstün mətləbləri sıralayır, ahı Tanrı dərgahına dirənir. Beləcə, onun məhəbbət dastanın növbəti boyları araya-ərsəyə gəlir. Əbülfət yaradıcılığının özəlliyi ondadır ki, hər gün qələmə sarılsa da, bir-birini döyən şeirlərinə qətiyyən rast gəlməzsən, mövzusu əsasən eyni olsa da...

***Əlim Allah ətəyində, ünümsə***
***Sənə çatır, bəs eləyir - gülümsə!***
***Bu sevgidən mənə düşən ölümsə -***
***Sevə-sevə səsləyəcəm, bunu bil!..***

Əbülfət Mədətoğlu yaradıcılığında sevgi və yurd həsrəti daim qoşa ləpir olub. Vaxtilə şeirlərinin birində:

***Əriyir ömrüm, yaşım da,***
***Əriyir dağım, daşım da!***
***Papağım düşmən başında -***
***Bakıda papaq gəzirəm!..***

- deyən şair indi istər ölkəmizin möhtəşəm paytaxtında, istərsə də, Qarabağın hər bir bucağında, o cümlədən, doğmaca Tuğunda papağını yan qoyub gəzir, canbir ellərinə hayqırtısını da, şeirlərini də mərdi-mərdanə yetirə bilir. Artıq bir neçə dəfə Tuğu bağrına basaraq bir-birini nəzmə də çəkiblər. Bu "deyişmə"də Qarabağ da ona çoxdan fürsətini gözlədiyi "halal olsun, eloğlum!" alqışını layiq bilib.

***Axır ki, duruldu yurdun səması -***
***Dualar selləndi şəhid adına!***
***Əsgər oğulların Vətən anası -***
***Təbəssüm sarıdı yaralarına!***

İndi Əbülfətin bircə istəyi var, ulularının həsrətinə də nəhayət ki, son qoyulsun, eyni soy-kökdən olduğu soydaşları Qərbi azərbaycanlılarla birgə (onun əsli Naxçıvan və Qərbi Azərbaycandandır) Vətənimizin o parçasını da bağrına basmaq, orada da poeziya şərbətini dadmaq ona qismət olsun.

Bu məqamda Əbülfət Mədətoğlu yaradıcılığı ilə bağlı təxminən 4 il əvvəl dilə gətirdiyim və qələmə aldığım bir mühüm məqamı yenidən səsləndirmək istərdim. Ona görə ki, təəssüf, ölkəmizdə əsl ədəbi tənqid (təbii ki, məhdud sayda tənqidçiləri çıxmaq şərtilə) hələ də yerində sayır. Buna əyani nümunə kimi Əbülfət Mədətoğlu kimi qələm əhlinin yaradıcılığına hələ də qədərincə dəyərin verilməməsidir. Bir daha təkrarlayıram, Azərbaycan bədii sənətinin ustadlarından Elçinin təbirincə desək: "Əbülfət poeziyasının bədii-estetik səviyyəsi ədəbi prosesin faktına çevrilməyə layiqdir!".

**"Ədəbiyyat " qəzeti**
**10.02 .2024**

# Sabir Yusifoğlunun xatirə gecəsi keçirilib

***Ağ kağıza yazmadı***
***qələm***
***şeirlərimi.***
***Canımı dost- düşmənə***
***bölən şeirlərimi...***



Sabir Allahla adaş idi.Allahla adaş olanlar onunla bağrıbadaş olurlar.Onların taleyində ya bir natamamlıq olur,ya da peyğəmbər yaşında dünyanı tərk edirlər.Amma adları kimi aydın, alnıaçıq, mərdi- mərdanə bir ömür yaşayırlar Allahla adaş olanlar...

Sabir şeirlərinə çox bənzəyirdi.Oxuduqca dərinlərə baş vurmalı olurdun...

Sumqayıtdakı Poeziya evində AYB Sumqayıt bölməsi və Ə.Kərim adına Poeziya klubunun birgə təşkilatçılığı ilə çağdaş Azərbaycan ədəbiyyatında öz sözü və yeri olan Sabir Yusifoğlunun yaradıcılığına həsr olunmuş xatirə gecəsi keçirildi.



Öncə Azərbaycan torpaqlarının bütövlüyü uğrunda canından keçən vətən oğullarının xatirəsi yad edildi və Azərbaycan Respublikasının himni səsləndirildi.Şairin ömür yolunu əks etdirən video- çarx nümayiş etdirildi.

AYB Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin Sabir Yusifoğlunun şeiri ilə tədbir iştirakçılarını salamladı.AYB - nin Poeziya seksiyasının rəhbəri,Poeziya evinin direktoru İbrahim İlyaslı Sabir Yusifoğlunun həyat və yaradıcılığı haqqında qonaqlara geniş məlumat verdi. Söz AYB - nin Ədəbiyyat Fondunun rəhbəri ,tanınmış yazıçı Varis Yolçuyevə verildi.Varis Yolçuyev Sabir Yusifoğlunun poetik nümunələrindən misal çəkərək,onunla bağlı xatirələrindən danışdı.

Şumqayıtlı qələm adamları Rafiq Yusifoğlu, Ziräddin Qafarlı, Süleyman Hüseynov, Hümbət Quliyev, Sübhan Quliyev, Hafiz Ataxanlı, Lilpar Cəmşidqızı, Elvin Əlizadə Sabir Yusifoğlu şəxsiyyətinin böyüklüyündən bəhs etdilər.

Vaxtilə " Dəniz" ədəbi birliyinin yığıncaqlarında Sabir Yusifoğlu ilə bir yerdə olan ,bu gün imzaları respublika səviyyəsində tanınan- Məryəm Aslanqızı,Asif Asiman,Mövlam Hüseynli,Füzuli Sabiroğlu,Xan Rəsuloğlu,Xəqani Abbasəli Öztürk,Müqəddəs Şahbazov,Almaz Ərgünəş Bəyazid, aşıq İman Ağayev Sabir Yusifoğlunun insani keyfiyyətlərindən və yaradıcılıq məziyyətlərindən söz etdilər.

Sumqayıt Dram Teatrının aktyoru İzaməddin Bağırov şairin şeirlərindən nümunələr səsləndirdi.

22 saylı məktəbin şagirdi Fatimə Məmmədli və nəvəsi Ləman Sabir Yusifoğlunun şeirlərini əzbərdən söylədilər.

**Sonda Sabir Yusifoğlunun övladı qazi şair Emin Piri öz adından və ailə üzvləri adından tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirdi. Aşıq Anar Laçınlının səsləndirdiyi saz havası isə məclisə başqa bir ovqat bəxş etdi.**

# Tanınmış şairin oğluna məktəbdə bulinq

**Şair, yazıçı Cəlil Cavanşir oğluna qarşı bulinq edilməsini deyir.**



Adalet.az xəbər verir ki, Cəlil Cavanşir bununla bağlı şikayət etsə də, şikayətlərinə baxılmır.

"Binə qəsəbəsində yerləşən 334 saylı tam orta məktəbdə, 10-cu sinifdə təhsil alan oğluma qarşı sinif yoldaşları bullinq edib. Bədən tərbiyəsi müəllimi Sahib Cəfərov da şagirdlərə qoşularaq oğlumu ələ salıb. Bu artıq neçənci haldır ki, oğlum müəllimlərin davranışından, yanaşmasından şikayət edir. Təhsil Nazirliyinin qaynar xəttinə zəng edib, şikayət etdim, məni başdan elədilər, yönəltdilər Bakı Şəhər Təhsil İdarəsinə. Təhsil idarəsində də zənglərə cavab vermirlər. İndi mənim 15 yaşlı oğlum bu bullinqə görə özünə nə isə etsə mən kimin yaxasından yapışmalıyam? Bu necə təhsil sistemidir? Nə düşünür bizim Emin müəllim? Nə vaxta qədər debilllər, vicdansızlar təhsil sistemində at oynadacaq?"

**Emin**

## *"Elə bildi narkomanam, çənəm əyilir"*

**Aparıcının taksidə başına gələnlər**



**Aparıcının taksidə başına gələnlər gülüş doğurub. Adalet.az xəbər verir ki, aparıcı, idman şərhçisi Ceyhun Rzayev başına gələn maraqlı bir hadisədən danışıb.**

"Bir dəfə yaşadığım evdən işə taksi sifariş etmişdim. 15 dəqiqəlik yoldur. Maşında çənə məşqi etməyə başladım. Televiziya adamları çənə məşqinin nə olduğunu bilirlər. Çənə məşqini ona görə edirik ki, danışanda ağzımız tam açılsın, sözləri səlis tələffüz edək. Taksi sürücüsü 5 dəqiqə sonra məni maşından düşürüb dedi ki, "qaqaş, təcili işim çıxdı, pul lazım deyil, səni apara bilməyəcəm". Elə bildi narkomanam, çənəm əyilir".

**Emin**

## *Azərbaycan əhalisinin sayı açıqlandı*

**2023-cü ildə ölkə üzrə əhalinin sayı 53625 nəfər və ya 0,5 faiz artaraq 2024-cü il yanvar ayının 1-i vəziyyətinə 10180770 nəfərə çatıb.**

Dövlət Ststistika Komitəsindən Adalet.az-a verilən xəbərə görə, əhalinin 54,5 faizini şəhər, 45,5 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Bu ilin əvvəlinə əhalinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasında, 23,0 faizi Bakı şəhərində, 9,2 faizi Lənkəran-Astara, 8,6 faizi Abşeron-Xızı, 7,3 faizi Qarabağ, 7,1 faizi Mərkəzi Aran, 6,7 faizi Qazax-Tovuz, 6,1 faizi Şəki-Zaqatala, 5,9 faizi Gəncə-Daşkəsən, 5,4 faizi Quba-Xaçmaz, 5,1 faizi Mil-Muğan, 4,9 faizi Şirvan-Salyan, 3,1 faizi Dağlıq Şirvan, 3,0 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşayıb. Ölkə üzrə bir kvadrat kilometrə düşən əhalinin sayı 118 nəfər olub.

# Hürr Qarabağın mübarək!

## Aysel Xanlarqızının Vətən şeirləri üzərinə



Zemfira Məhərrəmli
yazıçı-publisist

**Çağdaş poeziyamızda bir Aysel Xanlarqızı imzası var. İncə, zərif qəlb pıçıltılarını söz-söz, misra-misra şeirə çevirən, bir az şən, bir az kövrək romantik dünyasının bənzərsiz mənzərəsini yaradan gənc, istedadlı Ayselimiz. O, istər lirik şeirlər, istərsə epik nəzm nümunələri yazanda da başqalarını təkrar etmir. Müşahidələrim belə deməyə əsas verir ki, Aysel daim öz üzərində çalışır, mütaliə edir, yuxusuz gecələrinə, Allah vergisi təbinə, ayazımayan ilhamına və əxz etdiyi bilgilərə söykənir.**

Onun şeirlərində insana sevgi də, Vətən sevdası da pak, ilahi bir duyğudur. Onunçün sevgisiz həyat yoxdur. Ondan ötrü həyat həm də candan artıq sevdiyi, pərəstiş etdiyi Vətənlə gözəldir. Şeirləri diridir, canlıdır. Duyğuları, hissiyyatı kimi. Xanım yazarın şeirlərinin maraqla qarşılanması, məqbul sayılması, şairlərin, araşdırmaçı alimlərin diqqətini cəlb etməsi onun nəzminin poetik dəyəri, siqləti ilə bağlıdır. Şairin Qarabağ şeirlərində onun yurd sevgisi, millətinə, xalqına məhəbbəti bütün dərinliyi, incəliyi, ağrı-acısıyla ifadə olunur. Başqa sözlə, o, şeirlərində əsl təəssübkeşdir, milli kimliyimizin ifadəçisidir. Fərqli düşüncəsi, Azərbaycan sevdası ilə. Bir daha təkrar edirəm ki, söz adamının poeziyasında hər şeyin fövqündə öncəliklə sevgi dayanır. Sevgi insana güc, qətiyyət verən, onu yaşadan ucalıqdır.

Şair-publisist, Müstəqil.az saytının redaktoru Aysel Xanlarqızı "Darıxan şeirlər", "Karantin boşluğu", "Pəncərəmə güneş çək" və digər şeirlər kitablarının müəllifidir. Əsərləri Türkiyədə, Güney Azərbaycanda və Almaniyada işıq üzü görüb.

Onun poeziya yaradıcılığı haqqında söz adamları, ədəbi tənqidçilər maraqlı fikirlər söyləyiblər. Filologiya elmləri doktoru, görkəmli tənqidçi Vaqif Yusifliyə görə, "Aysel Xanlarqızı artıq yetkinliyə, sadə dillə desək, doluluğa, tamlığa, bütövlüyə doğru yol gedir. O, istər ayrılıqdan, təklikdən, istərsə də Qarabağdan şeir yazsın, bu şeirlərin hamısında poetik naxışlara rast gəlmək olur. Poetik naxışlar deyəndə biz şeirin şeir kimi incələməsini təmin edən bədii təsvir vasitələrini, sözü ehya etməyin variasiyalarını nəzərdə tuturuq... Vaxtilə böyük rus tənqidçisi V.Q. Belinski demişdi: "Şair olmaq quş kimi melodik səslər çıxarıb civildəmək deyil, şair olmaq poetik obrazlarla düşünmək deməkdir." Ayselin bir çox şeirlərində də obrazlarla düşünmək bacarığı ilə rastlaşırıq."

Ayselin "Karantin boşluğu" kitabına Xalq şairi Sabir Rüstəmxanlı ön söz yazıb. "Bu ön söz qətiyyən həvəsləndirici "mükafat" xarakteri daşımır. Səmimiyyətlə yazılan ön söz, ilk növbədə, onun yaradıcılığına inamdan irəli gəlir (V.Yusifli)."

Görkəmli söz ustası S. Rüstəmxanlının fikrincə, "poeziyanın bir işi də bütün mənəvi və ictimai sıxıntıların səbəblərini axtarmaq, onları aradan qaldırmaq yolları haqqında düşünmək, bu yöndə öz yeni nəğməsini yaratmaq, insanın mənəvi durumunun şəklini çəkmək, həm də ona bu ağır yoldan keçib getməkdə kömək göstərməkdir. Ayselin şeirlərinin başqa bir özəlliyi yaratdığı qəhrəmanın şəxsi taleyini yurdun taleyi üçün nümunəyə çevirməsidir. Onun şeirləri şəxsi faciələrlə, milli faciələrlə iç-içədir."

İstanbulda nəşr olunan "Türk Ədəbiyatı" dərgisinin yazarı, şair Ənvər Aykol Ayselin Türkiyədə işıq üzü görən "Pəncərəmə güneş çək" adlı kitabı barədə qələmə aldığı essedə yazır: "Aysel Xanlarqızının şeirləri təkcə məhəbbətin izharından ibarət deyil. Onun romantik tərzi Qarabağ şeirlərində epik bir dillə, bədii-dramatik təsvirlərə əvəzlənir."

Əsasən sevgi şeirləri ilə tanınan Aysel Xanlarqızının yaratdığı poeziya nümunələri onun iç dünyasından süzülüb gələn hiss və duyğularının tərcümanıdır. Amma uzun illərdən bəri başımızın üstünü kabustək alan, bizi dərd girdabında saxlayan Qarabağ savaşı Ayselin də poeziyasına sirayət edib, onun lirikasının əsas məziyyətlərindən birinə çevrilib. Azərbaycan insanının Qarabağ həsrəti, yurd nisgili, qan-qada, ölüm-itim şairin vətən şeirlərinin canını təşkil edib:



*Atası döyüşdə olan uşaqlar*
*Şəhid oğlu doğulurdu.*
*Anaların oğul həsrəti*
*Torpağın sinəsində*
*Vətən-vətən darıxırdı.*

Şairin "Yadıma düşdü" şeirini də həyəcansız oxumaq olmur. "Yaddaşım hönkürəndə haray saldı boş yurdum", "köçüb getdi köçüm də, bağlı qaldı qapılar" deyən müəllif məmləkətin başına gələn bəlalara görə qəlbini göynədən narahatlığını dilə gətirir:

*Mərmilərin səsini,*
*Körpələr layla bildi.*
*Qərənfil diz çökəndə*
*Torpağa şəhid gəldi.*
*Anaların ahından*
*Göyün gözü yaşardı,*
*Qarabağda hönkürən*
*Vətən yadıma düşdü.*

Üzləşdiyimiz ictimai bəlanın, qanlı müharibənin törətdiyi faciələrin ağrıacısı Ayselin məhz bu üzdən içində yaranmış ağrılara qarışanda o, bu tandemi şeirə gətirirdi. Sən demə, itirilmiş yurd yerlərimizin qürbət ömrü hələ çox uzanacaqmış. Lap gözümüzün kökü saralanadək... Şair isə həssas, qəlbi nisgilli qələm dostları kimi, köçümüzün yurda sarı dönüşünü arzulayırdı:

*Köçüb getdi köçüm də,*
*Bağlı qaldı qapılar...*
*Bir məzar daşı altda,*
*Yatan yadıma düşdü.*
*Yaddaşım hönkürəndə,*
*Haray saldı boş yurdum...*
*Həyatımdan film tək,*
*Ötən yadıma düşdü.*

Aysel Xanlarqızının bu qəbildən olan şeirlərinin qayəsi qan yaddaşımızı oyatmaq, xalq təəssübü çəkmək, el-obanın dərdinə yanmaq, urcah olduğumuz məlum münaqişə, Qarabağ savaşı ilə əlaqədar tarixi həqiqətləri çatdırmaqdır:

*Məndən "kimsən?" ? soruşsalar,*
*Xocalıda əsir ruham!*
*Qeyrətin dar ağacında*
*Çarmıxa çəkilmiş aham...*
*"Haralısan?" soruşdular,*
*Torpaqdanam, mən söylədim,*
*Haqsızlığın susdurduğu*
*Dodaqdanam, mən söylədim.*

Qarı düşmənin çirkin xislətini, yaramazlığını heç vəchlə yaddan çıxarmaq olmazdı. Heç nəyi unutmayan müəllif elatın torpağa bağlılığını, yurd məhəbbətini yaddaqalan bədii təsvirlərlə çatdırır, sözdən qurduğu poetik lövhələrlə çağdaş günümüzə səslənir. O, vətənpərvərliklə yoğrulmuş şeirlərində düşmən tanklarının yol-rizini dağım-dağım etdiyi, ümidləri tikə-parça olan, ahını, qüssəsini içində boğan məmləkətimizin harayına mərd ərənlərin gələcəyinə inanır:

*Hər gün sevgisini*
*dualara bükub*
*cəbhəyə yollayan ananın*
*ayaqları altında*
*pıçıldaşırdı xəzəl...*
*Yurduma gələn*
*bu payız elə gözəldir ki...*
*Qarabağlı gözəl*
*dünyanı heyrətə salıb,*
*Deyəsən qələbəyə lap az qalıb...*

Yaxud:

*Müharibə qoxusuna oyanan gecə,*
*Sabahadək bayraqlarla küləklənirdi.*
*Duaları duyulmayan hansısa evə*
*Arzuları güllələnmiş şəhid gəlirdi...*

Düşündüyümüz və ya heç ağıla gəlməyən, hər hansı bir mövzu öz obrazlı izharını taparsa, yalnız onda ədəbiyyatın predmeti ola bilər. Ayselin Vətən şeirləri bu həqiqəti bir daha təsdiq edir.

Şəhid general Polad Həşimovun əziz xatirəsinə ithaf olunmuş şeir bir qədər bədbin ruhlu olsa da, işğal edilmiş torpaqlarımızın düşməndən tezliklə təmizlənəcəyinə şairin ümidinin, inamının ifadəsidir. Söz adamının fikrincə, generalın döyüşçüləri öz hünərləri, yağını geri oturdan həmlələri ilə, hətta canları bahasına hələ bir qədər sonra qazanacağımız böyük qalibiyyətin bünövrəsini qoyanlardır:

*Səngər boyu sürünən qəzəb*
*ölümü tətikləd ikcə*
*Qarabağ uzaqdan*
*ümid dolu gözlərlə,*
*yalançı sərhədlərin*
*tikanlı məftillərindən*
*həsrətlə baxırdı.*
*Dünya Tovuz boydaydı bu gecə,*
*Bütün manşetlər boyu*
*güllələnirdi xəbərlər,*
*Bir generalın son əmrinə*
*müntəzir dayanmışdı*
*əsgərlər...*
*Paytaxta şəhid gəlirdi.*

Cəmi 44 gün çəkən Vətən müharibəmiz dünya hərb salnaməsinə bənzərsiz bir nümunətək həkk olundu. Qələbə şeirlərini, Zəfər gününün dastanını yaratmaq vədəsi axır ki gəlib çatdı, yurdumuzun yazarlarına, Aysel Xanlarqızına da nəsib oldu:

*Torpaq altda yuva tikən,*
*Sinəsində çiçək əkən,*
*Köksü üstən Vətən keçən*
*Hürr Qarabağın mübarək!*

# YUBİLYARLA GÖRÜŞ

**10 fevral 2024-cü il tarixdə AYB Lənkəran Bölməsinin təşkilatçılığı ilə Lənkəran Mərkəzləşdirilmiş Kitabxana sisteminin akt zalında tanınmış şair, publisist, "Ədalət" qəzetinin baş redaktorunun birinci müavini, respublikanın əməkdar jurnalisti Əbülfət Mədətoğlunun 65 illik yubileyi münasibətilə oxucularla görüşü və imza günü keçirildi.**



Tədbirdə bölgənin çoxsaylı yazarları,ziyalılar və oxucular iştirak etdilər.

Tədbiri giriş sözü ilə bölmənin sədri,yazıçı publisist Qafar Cəfərli açaraq yubilyarın həyat yolu haqqında ətraflı məlumat verdi. Əbülfət Mədətoğlunun təhsilindən, jurnalist olaraq müxtəlif mətbuat orqanlarında, xüsusən son 22 ildə çalışdığı, böyük nüfuza və çəkiyə malik "Ədalət" qəzetindəki fəaliyyətindən,şair olaraq sözə olan sevgisi və məsuliyyətindən, xarici ölkələrdə nəşr olunmuş kitablarından, əsərlərinin müxtəlif dillərə tərcümə olunmasından, görkəmli elm və söz adamlarının onun yaradıcılığına verdikləri qiymətdən, layiq görüldüyü təltif və mükafatlardan, həmçinin şeirlərinə bəstələnmiş mahnılardan danışıb 65 illik yubileyi münasibətilə onu təbrik etdi.

Əbülfət Mədətoğlunun yaradıcılığı haqqında Bölmənin ədəbi məsləhətçisi, şair Ağamir Cavad məruzə etdi. Məruzəçi Ə. Mədətoğlunun çoxşaxəli yaradıcılığından söz açaraq onun həm publisist, həm də şeir yaradıcılığı barədə ətraflı çıxış etdi, ona həsr etdiyi essesini oxudu.

Tədbirin aparıcısı Qafar Cəfərli sözü iştirakşılara verdi. Məxsusi olaraq tədbirə qatılmaq üçün Bakı şəhərindən gəlmiş gənc və istedadlı şair Ülkər Nicatlı; "Sözün işığı" qəzetinin baş redaktoru, şair Ədalət Salman; "Zərban"TV-nin təsisçisi və baş redaktoru, yazıçı Hafiz Mirzə; yazıçılar Eldar Tahirov, Əlizadə Əsədov və Qurban Əhməd; şairlərdən Sakit Üçtərəfli, Əhməd Haqsevər, Məmməd Əvəzoğlu, Ağaddin Babayev, Əyyub Türkay, Bəxtyar Əliyar; Əməkdar məşqçi İdrak Dadaşov, Qarabağ müharibəsi veteranları ictimai birliyinin Lənkəran bölməsi üsrə sədr müavini Saleh Dostiyev, rayonun tanınmış ziyalılarından Fəxrəddin Canıyev, Teyyub Rzayev, Ağadadaş Əliyev çıxış edərək yubilyarın yaradıcılığının müxtəlif məqamlarına toxunmaqla onu təbrik etdilər, peşəkar jurnalistik fəaliyyətində və bədii yaradıcılıqda uğurlar arzuladılar.

Gənc şair, LDU-nun tələbəsi Aytəkin Əziz, şair Əyyub Türkay və yazıçı Qurban Əhməd yubilyarın şeirlərindən nümunələr ifa etdilər.

Söz şair-publisist Əbülfət Mədətoğluna verildi. Yubilyar öz həyat yolu, yaradıcılıq məramları haqqında danışıb tədbirin təşkilatçılarına və çıxış edərək ünvanına xoş sözlər deyən hər kəsə minnətdarlığını bildirdi, iştirakçıların çoxsaylı suallarını cavablandırdı.

Sonda Əbulfət Mədətoğlu nəşr olunmuş kitablarından avtoqrafla oxuculara və kitabxanaya hədiyyə etdi.

Tədbiri bölmənin sədri Qafar Cəfərli yekunlaşdırdı. Xatirə şəkilləri çəkildi.

**Tədbir cənub bölgəsində uğurla fəaliyyət göstərən "Zərban" internet televizyası tərəfindən lentə alındı.**

**QAFAR CƏFƏRLİ**
**AYB Lənkəran Bölməsinin sədri, yazıçı-publisist**








**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 6 (2380) 16 fevral 2024-cü il

**Azərbaycan elə bir dövlət və xalqdır ki, onun zəngin tarixi, mədəniyyəti, keçmişi var. Hələ üstəlik də yeraltı və yerüstü sərvətləri də buna əlavə edilsə, onda görün bizim ölkəmiz nə qədər iqtisadi cəhətdən güclü və qüdrətli bir dövlətdir. Ona görə də tarixən bütün yadellilərin gözü bu məmləkətdə olub, imkan düşdükcə sərvətimizi, varımızı, dövlətimizi əlimizdən alamaq üçün hər cür oyunlardan çıxıblar. Müharibələr ediblər, müxtəlif təzyiq və təsir vasitələrinə əl atıblar.**



# TARİX YAZAN İGİDLƏRİMİZ



Heç şübhəsiz ki, bizim ən böyük düşmənlərimizdən biri, bəlkə də birincisi ermənilərdir. Çünki onlar bizim dövlətə və xalqa qarşı həmişə soyqırımı törədib və ərazilərimizi işğal etmək istəyiblər. Heç də təsadüfi deyil ki, Azərbaycanın 20 faiz torpağ düz otuz il erməni işğalı altında oldu. Bayaq dediymiz kimi, bu işğal zamanı yerüstü və yeraltı sərvətlərimiz Qarabağda talan edildi.

Meşələrimiz qırıldı, flora və faunamız yaman günə salındı. O boyda Qarabağda vəhşi ermənilər bir salamat kənd, bir salamat qəsəbə və bir salamat şəhər qoymadılar. Ağdam kimi, Füzuli kimi, Zəngilan kimi, Qubadlı kimi, Cəbrayıl kimi şəhərləri yer üzündən sildilər. Yaşayış binalarının, sosial obyektlərin və digər binaların daşını, döşəməsini, tavanını, qapısını, pəncərəsini söküb apardılar. Hələ üstəlik, qəbiristanlıqlarımızı da dağıdaraq, qiymətli baş daşlarını və sinə daşalrını ya iranlılara satdılar, ya da götürüb apardılar Ermənistana. Hələ dünya tarixində heç bir ölkə digər dövlətin ərazisini işğal edərkən bu qədər vəhşilik törətməmişdi, yəni qəbiri qazıb cəsədin dişini söküb aparmamışdılar. Amma bunu heç bir millət eləməsə də, ermənilər elədilər və axırda ad öz cəzalarını həm Allah həm də ordumuz tərəfindən aldılar.

Onlar 2020-ci ilin sentyabrın əvvəllərindən 26-a qədər Qarabağ istiqamətində mövqelərimizi və yaşayış məntəqələrimizi fasiləsiz olaraq atəşə tuturdular. Azərbaycan dövləti həm beynəlxalq təşkilatlara, həm də digər qurumlara məlumat verirdi. Amma nə beynəlxalq təşkilatlar, nə də digər qurumlar erməniləri yerində oturtmurdu, əksinə onlara havadarlıq edirdi. Bununla yanaşı, Qarabağla bağlı BMT-nin çıxartdığı 4 qətnamə havadan asılı vəziyyətdə qalmışdı.

Onu isə beynəlxalq təşkilatlar həll etmirdi, əksinə başımızın altına yastıq qoyub, problemi dondurmağa çalışırdı.

Ancaq Azərbaycanın da səbr kasası doldu. 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu əks hücuma keçdi, bir neçə günün ərzində erməni işğalı altında olan Füzulinin və Cəbrayılın neçə-neçə kəndlərini azad etdi. Əlbəttə, onların yaratdığı müdafiə xəttini yarıb keçmək və işğal altnda olan şəhərlərimizi, kəndlərimizi, qəsəbələrimizi azad etmək elə də asan məsələ deyildi. Şəhidlərimiz olsa da, 3-4 gün ərzində Azərbaycan Ordusu çox böyük qələbə əldə etdi. Bu qələbəni əldə etmək elə də asan məsələ deyildi. Çünki ermənilər dünyada uzun müddət belə bir fikir yaratmışdılar ki, onların ordusu çox güclüdür və heç kim onlara üstün gələ bilməz. Amma II böyük Qarabağ savaşının ilk günlərindən erməni ordusunun bu mifi Azərbaycan Ordusu tərəfindən darmadağın edildi və məlum oldu ki, erməni ordusu sabun köpüyü kimi bir şeyimiş, elə ilk həmlədən öz zəifliyini, acizliyni göstərdi və düşmən silah-sursatı döyüş meydanında ataraq qaçdı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə II Qarabağ savaşı 44 gün davam etdi və bu 44 gündə hər gün Azərbaycan Ordusu neçə-neçə kəndi, neçə-neçə yaşayış məntəqəsini erməni işğalından azad etdi.

Çünki Azərbaycan xalqı müharibənin ilk günlərindən Ali Baş Komandanın və Azərbaycan Ordusunun ətrafında bir yumruq kimi birləşdi. Şəhidlər versək də, amma nə şəhid ailələri, nə də Azərbaycan xalqı ruhdan düşmədi. Çünki hər şəhidin qanı, hər şəhidin ürək döyüntüsü bizi qələbəyə və doğma torpağımıza yaxınlaşdırırdı. 3 min yaxıın şəhid verdik. O şəhidlərin hesabına biz Cəbrayılı, Hadrutu, Füzulini, Qubadlını, Zəngilanı, Şuşanı erməni işğalından azad elədik. Əlbəttə, bunlar bizə yuxu kimi görünürdü. Çünki II Qarabağ savaşı ildırım sürətilə getdi və dünya hərb tarixində yeni bir səhifə açdı. Azərbaycan Ordusu göstərdi ki, onlar mümkün olmayan hər hansı bir işi də, döyüşü də gerçəkləşdirə bilər.

Təkcə "Şuşa əməliyyatı"nı xatırlamaq bəs edər. Ən azından ona görə ki, şəhər almaq üçün Azərbaycan Ordusu və Xüsusi Təyinatlılar dünya tarixində çox nadir bir hərbi əməliyyat gerçəkləşdirə bildilər. Onlar yüz metrlərlə hündürlüyə dırmaşaraq, Şuşa şəhərinə daxil oldular. Yüngül silahla silahlanmış əsgərlərimiz burda ermənilərə dəhşətli bir qorxu yaşatdılar. Onların tanklarını, ağır texnikalarını ələ keçirərək, düşmənin özünə qarşı yönəltdilər. Düşmən vahimə içindəydi, heç ağlına gələ bilməzdi ki, Azərbaycan əsgəri qayaları dırmaşaraq, oranı aşacaq və gəlib onları öz mövqelərində yaxalayacaq.

Xüsusən də Yaşmağdakı Xüsusi Təyinatlılarımız burada qeyri-adi bir qəhrəmanlıq göstərdilər. Erməni əsgərləri sonradan xatirələrində yazırdı ki, biz onları avtomatla güllələyirdik, amma onlar yaralı-yaralı bizim üstümüzə gəlir və bizi qırırdılar. Sanki onlar adam deyil, robotlar idi. Bax, Azərbaycan Ordusu Şuşada və eləcə də digər ərəmni işğalından azad olunmuş rayonlarda, kəndlərdə və qəsəbələrdə belə bir qəhrəmanlıq göstərib.

Artıq ermənilər noyabrın 10-da təslim aktı imzaladılar. Noyabr bəyənnaməsi Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən imzalandı. Həmin bəyənanməyə əsasən qısa müddət ərzində ermənilər Ağdamdan, Kəlbəcərdən və Laçından çıxmalı idi. Və bir müddətdən sonra erməni işğalçıları Ağdamı, Kəlbəcəri, Laçını Azərbaycan Ordusuna və Rusiya sülhməramlılarına təhvil verdilər. Azərbaycan dünyada görünməyən möhtəşəm bir qələbə qazandı.

**Öz ərazi bütövlüyünü, əsaslı surətdə təmin etdi. Bu prosses 2023-cü ilin sentyabrın 19-u və 20-də yenidən davam etdi. Bu dəfə isə Xankəndi, Xocavənd, Xocalı, Əsgəran və işğal altında olan digər yaşayış məntəqələri anti-terror əməliyyatı zamanı tamamilə erməni separatçılarından azad olundu və həmin şəhərlərdə Azərbacyan Bayrağı sancıldı və dalğalandı. Ən nəhayət isə Prezidentliyə seçkilər günündə Xankəndində və digər şəhərlərdə seçkilər keçirildi və cənab Prezient İlham Əliyev ailə üzvləri ilə birlikdə Xankəndində seçkidə iştirak etdi və səs verdi! Bir daha tarix göstərdi ki, qüdrətli Ali Baş Komandan İlham Əliyevin və Azərbaycan Ordusunun gücü ilə ölkəmizin ərazi bütövlüyü bərpa edildi!**

**FAİQ QİSMƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# Ənənəvi Türk Səhər yeməyi: Günün Qızıl Yeməyi

**Dünyanın ən məşhur mətbəxlərindən biri olan Türkiyə səhər yeməyi mədəniyyəti ilə xüsusi seçilir. Tez-tez "Qızıl Yemək" kimi təsvir edilən ənənəvi türk səhər yeməyi həqiqətən unudulmaz bir təcrübədir, çünki Türkiyədə səhər yeməyi təkcə günün yanacağı deyil, həm də möhtəşəm bir macəradır.**

### *Türk səhər yeməyi mədəniyyətinin əsasları*

Ənənəvi türk səhər yeməyi tulum, kaşar, həmçinin ağ pendir, çökelek (kəsmik) və mihaliç pendir çeşidlərindən ibarətdir. Süfrədə təzə xiyar, pomidor, bibər və göyərtilərlə yanaşı, ölkənin Marmara və Egey bölgələrindən gələn yaşıl və qara zeytun, bal, evdə hazırlanmış mürəbbə və qaymaq da olur. Təzə bişmiş xırtıldayan çörəklər, simit və "ince belli" stəkanlarda isti türk çayı ilə tamamlanır. Türk səhər yeməyinin digər vacib və məşhur elementi, yumurta, pomidor və bibərdən ibarət ləzzətli yemək olan menemendir. Yeməyi tamamlamaq və həzmi asanlaşdırmaq üçün bu zəngin süfrədən sonra türk qəhvəsini unutmamaq lazımdır.

### *Yerli Türk səhər yeməyi: Ege, Karadeniz, Van və Gaziantep*

Türkiyənin xoşbəxtlik sahilində təqdim olunan tipik Ege səhər yeməyi təzə tərəvəzlər, göyərti və yerli zeytunlarla zəngin sağlam və yüngül ləzzətləri vurğulayır. Təzə çörək yerli istehsal olan sızma zeytun yağına batırılır və ya Bergama tulum pendiri ilə yeyilir. Mürəbbələr qızılgül, ərik, əncir, çiyələk, qara tut, heyva, sitrus meyvələri, nar və hətta badımcan, göyərti, qoz və ya naringi qabı-



ğı kimi yerli məhsullardan hazırlanır. Təzə kəsmik və qovrulmuş göyərtidən hazırlanan otlu xəmir də Ege səhər yeməyi süfrələrinin vazkeçilməzləridir.

Karadeniz bölgəsində səhər yeməyi süfrələri turşu tavalı (təzə lobya), qarğıdalı çörəyi, kayqana və Laz böreği (xəmir) kimi regional yeməklərlə zəngindir. Karadeniz səhər yeməyi dedikdə ağıla ilk gələn təam şübhəsiz ki, muhlama və ya mıhlama olaraq da bilinən kuymakdır. Bu ləzzətli, pudingə bənzəyən Trabzon səhər yeməyi bölgədə yetişdirilən qarğıdalıdan alınan qarğıdalı unu, kərə yağı və xüsusi pendirlə qovrularaq hazırlanır. Vakfıkebir çörəyini üzərində yerli kərə yağı və Anzer balı da möhtəşəm kombinasiyadır.

Təbii ki, türk səhər yeməyinin tacı olan türk çayı da bölgənin məşhur çay plantasiyalarından əldə edilən yarpaqlar ilə dəmlənir. Qastronomiya sahəsində UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil olan Gaziantep Türkiyədə də səhər yeməyi adətləri ilə diqqət çəkir. Gaziantep səhər yeməyinin xüsusi edən təamlar beyran şorbası, noxud qabığı, cartlak kabab, ciyər, sahan kreması, muhammara, yumurtalı piyaz və katmer kimi yerli yeməkləridir. Günə enerjili başlamaq üçün bu təamlar əvəzsizdir.

**Şərqin incisi olan Vanın türk səhər yeməyi mədəniyyətində özünəməxsus yeri var. Türkiyənin ən zəngin səhər yeməyi olaraq qəbul edilən Van səhər yeməyi şəhərin coğrafi baxımdan qeyd olunan otlu pendirini və ənənəvi Van çörəkini (xüsusi xəmir məhsulu), həmçinin murtuğa - un və kərə yağı ilə bişmiş yumurta və çox köhnə təam olan kavutu (halva) vurğulayan mərasimdir. Van səhər yeməyinin variantları ölkə daxilində tapılsa da, bu səhər yeməyinin mənbəyində yemək həqiqətən məmnunedici və misilsiz bir təcrübədir.**

## *Əməkdar artist tövbə etdi*



**Əməkdar artist Elnarə Abdullayeva qəfl addımına görə açıqlama verib.**

Adalet.az xəbər ki, o, efirlərə çıxmağa görə tövbə edibmiş.

Ona görə də uzun müddətdir efirlərdə görünmür:

"Mətanət Əsədova mənə deyəndə dedim ki, nə istəyirsən sənin üçün edim. Amma efirə çıxmağa tövbə eləmişəm". Aparıcı Zaur Nəbioğlu isə əməkdar artistin tövbəsini geri götürməyi üçün M.Əsədova ilə birlikdə E.Abdullayevanın evinə gediblər. Orada əməkdar artistin həyətində qurban kəsiblər:

Aparıcı, " Elnarə mənim bacımdır. Ona bacı deyirəm, 100 belə qurbanı onun ayağı altında kəsərəm. Xahiş edirəm, birdə əsəbləşib belə tövbələr etməyin. Sizi xalq sevir, Elnarə xanım" deyə qeyd edib.

## *Almaxanım Əhmədli: "...şərt kəsib evlənmişəm"*



**Gənc ifaçı Almaxanım Əhmədli açıqlaması ilə gündəm olmağı bacarıb.**

Adalet.az xəbər verir ki, ifaçı ona ən çox atasının dəstək olduğunu etiraf edib: "Bu sənətə gəlməyimdə ən böyük dəstəkçim atamdır. Atam mənə dəstək olmasaydı, heç vaxt bu yerlərə qədər gəlib çatmazdım. Həyat yoldaşım mənə oxumağa icazə verməsə, elə bilərəm ki, sanki əllərim yoxdur. Axı o məni səhnədə görüb, bəyənib. Mümkün deyil ki, o mənə desin ki, Almaxanım, oxuma. Toy məclislərinə getməyə bilərəm.

Onunla razılaşaram. Amma efirə çıxmağı, mahnı yazdırmağı, duet oxumağı qadağa qoya bilməz. Mən onunla şərt kəsib evlənmişəm".

## *"Qızımın xaricdə təhsil almağına icazə vermədim"*



**Xalq artisti Mələykə Əsədova qızı Gülərə etdiyi qadağalardan danışıb.**

Adalet.az-ın məlumatına görə, sənətçi qızına sosial şəbəkə istifadəçisi olmağa icazə vermir. Aktrisa bu məlumatı təsdiqləyib:

"Qızım ali məktəbdə təhsil alır. İkinci kurs tələbəsidir. Azərbaycanda təhsil alır. Fikri var idi ki, xarici ölkədə təhsil alsın. Mən icazə vermədim. Mənsiz olmaz. Tək gedə bilməz.

İncəsənətə qətiyyən marağı yoxdur. Hətta verilişlərə çox çətinliklə gətirirəm. Baxmayaraq ki, qızım tələbədir mən ona instagram və tiktokdan istifadə etməyi qadağan eləmişəm. Olmaz."

## *Dəniz Firudinli: "Yarım saata 3.000 manat alıram"*



**Müğənni Dəniz Firudinli toydan aldığı qonararı söyləyib.**

Adalet.az xəbər verir ki, o, "El canlı " proqramında aparıcı Elcan Rəsulovun "toya neçəyə gedirsiniz" sualına belə cavab verib:

"Harda yaxşı pul var ora gedirəm. Qiymətlər müxtəlif olur. Məsələn, oxuduğum saata görə qiymət deyişir. Yarım saat oxuyuramsa, qiymət başqadır. Ancaq bütöv toyu idarə edirəmsə, təbii ki, bəlli bir məbləğ deyirəm. Yarım saat oxuyuramsa, toy sahibindən 3.000 manat alıram. Amma bütöv toy bahadır".

**ƏNTİQƏ**

## *Səməndər Rzayevin qızı: "Allaha tapşırıram belələrini"*



**Mərhum əməkdar artist Səməndər Rzayevin qızı Rübabə Səməndər atasının məzarı ilə bağlı yayılan söz-söhbətə görə od püskürüb.**

Adalet.az xəbər verir ki, o, atasının məzarına baxmısız deyib onu tənqid edənləri qınayıb:

"Budur ailəmin məzarı. Görün burda baxımsızlıqdan əsər-əlamət varmı? Allah atamın haqqında olmayan əhvalatlar, səviyyəsiz lətifələr uydurub yayımlayanların, ruhunu incidənlərin bəlasını versin. Dünyasını dəyişmiş insanların ruhunu aşağılayan, onların varislərinin heysiyyatı ilə oynayan hər kəs mən yaşadığımı yaşasın. Mənim kimi əzizləri yanaşı yatsın məzarda, bəlkə o zaman insafları qımıldanar. Amma inanmıram. Vicdanı, insafı, əxlaqı pul olanlar çətin dönüb insan olsun. Sadəcə Allaha tapşırıram belələrini".

## *Rejissor deputata təşəkkür etdi*



**Millət vəkili Tahir Kərimli son zamanlar səs-küy yaradan "Apatiya" filmi haqqında fikir bildirib.**

O, "Apatiya kimi murdar filmlərə baxmıram" deyə qeyd edib.

Filmin rejissoru Hikmət Rəhimov isə film haqqında fikirlərini bölüşən deputata təşəkkür edib: "Təşəkkür edirəm. Yaxşı ki, varsınız".

## *Müğənni: "Şou-biznesdə olmasam yaxşıdır"*



**Müğənni Mehriban Qənbərova ailə quracağını açıqlayıb.**

Adalet.az xəbər verir ki, müğənni bu barədə "El canlı" proqramında açıqlama verib:

"Ailə quracam. Doğru deyirsiniz, şou- biznesə yeni gəlmişdim, indi də ərə gedirəm. Düşünürəm ki, elə şou-biznesdə olmasam yaxşıdır. Şou -biznesdəkilərin yıxdığı evi heç kəs yıxa bilməz. O, hər şeyi görüb, bilib, ona görə də məni seçib."

## *Bir dəfə yaşayıb, iki dəfə dəfn olunan qadın*

**1705-ci ildə irlandiyalı qadın Marjori MakKall qızdırmadan vəfat edir.**

Xəstəliyin yayılmasının qarşısını almaq üçün onu tez bir zamanda dəfn edirlər. Qadının barmaqları şişdiyindən,əri bahalı üzükləri onun barmağından çıxara bilmir. Ona görə qadın barmağındakı üzüklərlə birlikdə tabuta qoyulur. Bunu bilən oğrular elə həmin gecə qəbri qazıb,tabutu çıxarırlar.

Üzüyü çıxara bilməyəndə, onun barmağını kəsmək qərarına gəlirlər. Kəsikdən qan çıxan kimi Marjori gün ərzində düşdüyü komadan ayılır. Tabutda oturur və qışqırmağa başlayır. Oğruların taleyi naməlum qalır - beziləri onların elə oradaca öldükləri, digərləri isə arxalarına baxmadan qaçdıqlarını söyləyirlər. Marjori isə tabutdan çıxmağı bacarır və evinə gedir. Marjorinin əri Con MakKall qapının döyülməsini eşidəndə, evdə uşaqlarla birlikdə idi. Kişi uşaqlara deyir: "Əgər ananız sağ olsaydı, and içərdim ki, bu onun qapı döyməsidir". O, qapını açanda Marjorini cənazə paltarında və əlindən qan damcılayan vəziyyətdə görəndə özündən gedərək yerə yıxılır və ölür. Onu elə həyat yoldaşının azad etdiyi tabutda dəfn edirlər. Marjori bu hadisədən sonra çox illər yaşayır, yenidən ərə gedir və uşaqları da olur. Nəhayət vəfat edəndə həmin Şenkill (Lurqan, İrlandiya) qəbiristanlığında dəfn edilir. Onun baş daşı isə qorunub saxlanılır. Daşın üzərində isə bu sözlər yazılıb: "Bir dəfə yaşayıb, iki dəfə dəfn edilib".

**ƏNTİQƏ KƏRİMZADƏ**

**Binəqədi rayonu, Xocəsən Yeni yaşayış massivi, bina 9, №48 ünvanında yaşayan Əliyeva Əsma Rafiq qızının adına olan mənzilin çıxarışı itdiyi üçün etibarsız sayılır.**

Sona Çərkəz ailə üzvləri ilə birlikdə əzizi **Natiq Bayramova** ömür-gün yoldaşı

**Pərişan xanımın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 167
Çapa imzalanmışdır: 15.02.2024